8 fevral 2019-cu il
№05 (8820)

www.muallim.edu.az
muallim@edu.gov.az

# AZƏRBAYCAN MÜƏLLİMİ

*Təhsil millətin gələcəyidir!*
*Heydər Əliyev*

Azərbaycan Respublikası Təhsil Nazirliyinin orqanı

## Bu sayımızda

**Təhsil naziri Ucar şəhərində vətəndaşları qəbul edəcək**
⇨səh.3

**Universitetlərdə nəticəli elmi fəaliyyətin keyfiyyətinin yüksəldilməsinə strateji baxış**
⇨səh.7

**“Rəqəmsal bacarıqlar” layihəsinə daha bir məktəb qoşulub**
⇨səh.11

**Smartfon istehsalı kimyəvi elementlərin tükənməsinə səbəb olur**
⇨səh.13

# Məhdudiyyətləri aşan gələcəyin peşəkarları

## Peşə təhsili müəssisəsində inklüziv təhsil uğurla tətbiq olunur



Aralarında öyrənməyə həvəslisi də var, həvəssizi də. Gecə işləyib, gündüz dərsdə iştirak edəni, dərsə gəlməsi müəllimlərin valideynlərlə işbirliyinin nəticəsi olanlar, 16 yaşında məktəb partasından durub gələnləri, 50 yaşında təzədən oxumaq həvəsinə düşənləri də var.

Ancaq onlar işləyib özlərini təmin etməkdə ali məktəb məzunlarından daha məharətlidirlər. Söhbət Texnika və Texnologiyalar üzrə Bakı Dövlət Peşə Mərkəzinin tələbələrindən gedir.

Burada sağlamlıq imkanları məhdud qızların əlləri ilə yaratdıqları tikiş nümunələri, kişi peşəsi kimi tanınan qaynaqçılıqda qadın toxunuşunun fərqini göstərən 18 yaşlı qızla tanışlıq Peşə Mərkəzinə infoturda iştirak edən hər kəs üçün maraqlı oldu. Hələ peşəkar kran sürücüsünün sonradan quru inşaat ustası ixtisasına yiyələnməsinə ehtiyac duyması faktı ömürboyu təhsil anlayışının həyatımıza niyə girdiyinin zəruriliyini ortaya qoydu.

### Dual təhsil sistemi

Texnika və Texnologiyalar üzrə Bakı Dövlət Peşə Mərkəzində 22 ixtisas üzrə tədris aparılır. Burada elektrik xətt quraşdırıcısı və tikişçi ixtisası üzrə hazırlıq pilot qaydada həyata keçirilir.

⇨Ardı səh.12

# Həyatının uğur salnaməsini yazan gənclər

## 2019-cu il Gənclər üçün Prezident mükafatçıları

Məlum olduğu kimi, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin “2019-cu il Gənclər üçün Prezident mükafatlarının verilməsi haqqında” 2019-cu il 31 yanvar tarixli sərəncamı ilə mədəniyyət, elm, təhsil və ictimai fəaliyyət sahələrində xüsusi fərqlənən şəxslərə Gənclər üçün Prezident mükafatları verilib. Fevralın 1-də Bakı Konqres Mərkəzində Azərbaycan Gəncləri Gününə həsr olunmuş respublika toplantısında mükafatların təqdimolunma mərasimi keçirilib. Həyatının uğur salnaməsini yazan gəncləri oxucularımıza təqdim edirik.

### “Mənə olan inamı doğruldacağam”

*Masər Həsənov, Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universitetinin tələbəsi, SABAH məzunu:* - 1991-ci ildə Bakı şəhərində anadan olub. V sinfə qədər Moskvada təhsil alıb, daha sonra isə Bakıda Sahil qəsəbəsi 273 nömrəli tam orta məktəbdə təhsilini davam etdirib. Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universitetinin “SABAH” qruplarının “Rejissorluq” ixtisası üzrə məzunu olan gənc xalq artisti, görkəmli kinorejissor Eldar Quliyevin tələbəsidir. Universitetin ən nümunəvi tələbələrindən biri kimi çoxsaylı festivalların və ustad dərslərin iştirakçısı olub. Fiziki məhdudiyyətli olmasına baxmayaraq bütün layihələrdə, ictimai işlərdə fəallığı ilə seçilir. O, “British Council”ın “Unlimited” proqramının tərkib hissəsi kimi Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universiteti, Azərbaycan Respublikası Mədəniyyət Nazirliyi və Təhsil Nazirliyinin SABAH qruplarının tərəfdaşlığı ilə həyata keçirilən “Bir Günəş Altında” layihəsində, məşhur kino rejissoru, ssenaristi və aktyoru Nikita Mixalkovun, Kaliforniya Universitetinin əməkdaşı, sənədli film üzrə rejissor Liza Limanın, amerikalı bədii film rejissoru Lanre Olabisinin ustad dərslərində iştirak edib. Ən yaxşı ssenari, sənədli film, müəllif işi, ADMİU-da keçirilən “İlin tələbəsi” layihəsi çərçivəsində “İlin rejissoru” və “Ən yaxşı film” nominasiyaları üzrə mükafatlara layiq görülüb, müxtəlif diplom və sertifikatlarla təltif olunub.

⇨Ardı səh.6

# “Müəllimlərin inklüziv təhsil sahəsində bacarıqlarının artırılması”

Yanvarın 31-də Heydər Əliyev Fondunun “Regional İnkişaf” İctimai Birliyinin (RİİB) Avropa İttifaqının dəstəyi ilə həyata keçirdiyi “Müəllimlərin inklüziv təhsil sahəsində bacarıqlarının artırılması” layihəsinin təqdimatı olub.

Heydər Əliyev Mərkəzində keçirilən təqdimat mərasimində “Regional İnkişaf” İctimai Birliyinin nümayəndəsi Cəmil Əliyev təmsil etdiyi qurumun fəaliyyəti, təhsil, səhiyyə, ekologiya və digər sahələrdə həyata keçirdiyi layihələr barədə məlumat verib. Bildirilib ki, İctimai Birliyin təhsil sahəsində həyata keçirdiyi növbəti layihə ölkəmizdə inklüziv təhsilin inkişafına, qeyd olunan sahədə müəllimlərin tədris imkanlarının və pedaqoji resursların təkmilləşdirilməsinə xidmət edən “Müəllimlərin inklüziv təhsil sahəsində bacarıqlarının artırılması” layihəsidir.

Təhsil nazirinin müavini Məhəbbət Vəliyeva Azərbaycan Prezidenti cənab İlham Əliyevin sərəncamı ilə təsdiq edilmiş “Azərbaycan Respublikasında təhsilin inkişafı üzrə Dövlət Strategiyası”nın əhəmiyyətini vurğulayıb və qeyd edib ki, Strategiyanın 5 illik icra müddətində şəxsiyyətyönlü təhsil məzmununun yaradılması, insan resurslarının müasirləşdirilməsi, müasir idarəetmə sisteminin formalaşdırılması, təhsil infrastrukturunun təkmilləşdirilməsi və təhsilin maliyyələşdirilməsi istiqamətlərinin hər biri üzrə müsbət nəticələr əldə olunub. Dövlət Strategiyasında və müvafiq Tədbirlər Planında sağlamlıq imkanları məhdud uşaqların təhsilə cəlb olunması üçün inklüziv təhsil proqramının qəbul edilməsi ilə bağlı məsələlər də öz əksini tapıb.

⇨Ardı səh.3

# Təhsilin qarşısında duran 10 qlobal meqatrend

Üfüqdə bütün dünyada təhsil sistemlərinə təsir edəcək hansı böyük beynəlxalq tendensiyalar görünür? Rəqəmsallaşma dövründə təhsil sistemləri necə inkişaf edəcək? OECD-nin (İqtisadi Əməkdaşlıq və İnkişaf Təşkilatı) Təhsil və bacarıqlar şöbəsinin direktoru, PISA beynəlxalq qiymətləndirməsi üzrə məsul şəxsi Andreas Şleyxer bütün dünyada məktəblərin cavab axtardıqları bu kimi ən böyük sosial, iqtisadi, siyasi və texnologiya məsələlərini şərh edir.

*1. Sosial mobillik və əhalinin rifah halında fərqlər.* Dünyada ən zəngin və ən kasıb əhali kütləsi arasında fərqlər böyüyür, bu fonda fövqəladə imtiyazların və məhdudiyyətlərin daha böyük intensiv mərkəzləri meydana çıxır. Bu bərabərsizlik yekunda məktəblərin kandarında özünü göstərir. OECD ölkələrində ən zənginlərin 10%-nin gəlirləri ən kasıbların gəlirlərindən 10 dəfə çoxdur. Bu cür bölünmə təhsil sistemləri üçün ən böyük problemlərdən biridir. Belə bir iqtisadi bərabərsizlik şəraitində məktəblər imkanlara ədalətli girişi təmin etmək çağırışlarını necə tənzimləyəcək?

*2. Asiya istehlakçısının artması:* o, bərabər şəkildə bölünməyə bilər. Xüsusən də Asiyada rifah halının yaxşılaşması müşahidə olunur. Qlobal orta təbəqə daha da çoxalır, yeni iştirakçıların 90 faizi Çində və Hindistanda olacaq. Əgər ən təhsilli insanlar Avropa və Şimali Amerikada deyil, Asiyada olacaqsa, dünya iqtisadiyyatı necə dəyişəcək? Bu yeni zəngin istehlakçılar məktəblərdən hansı dəyərləri istəyəcəklər? Ən böyük tələbatları təmin etmək üçün universitetlər genişlənməyə hazır olacaqlarmı?

*3. Miqrasiya artır:* hərəkətdə olan insanlar hədsizdir, bununla belə, Asiya miqrantlar üçün ən populyar istiqamət kimi Avropanı əvəzləyir. Bu mobillik özü ilə mədəni müxtəlifliyi, eləcə də yeni gələnlərin iddialarını da doğurur, amma o, həmçinin problemlər də yaradır.

Məktəblər dünyanın hər yerindən gələn şagirdləri necə dəstəkləməlidir? Bu, inteqrasiya və identikliklə bağlı hansı sualları qaldırır? Məktəb ümumi dəyərlərin öyrədilməsində böyük rol oynaya biləcəkmi?

*4. Bizə pulu göstərin:* maliyyələşdirmə ilə bağlı çətinliklər təhsil sistemləri üçün böyük problem olacaq. Məktəblərin xərcləri haqqında uzunmüddətli qərarlar qəbul edilməlidir, xüsusən tələbat və gözləntilər artdığına görə. Universitetlərə daxil olan çox sayda tələbələrə görə kimlər pul ödəməlidir? Və əgər maliyyələşmənin həcmi azalırsa, onda nələr baş verir? Xüsusi şəxslər həmçinin qəfil iqtisadi sarsıntıların və ya sürəkli resessiyaların maliyyə riskləri haqqında məlumatlı olmalıdırlar.

*5. Təlim və ya “əks-səda”.* Rəqəmsal texnologiyalar əvvəllər heç vaxt olmadığı qədər ölkələr və mədəniyyətlər arasında əlaqə yaradaraq insanları birləşdirə bilər.

⇨Ardı səh.11

# XV Avropa Gənclər Olimpiya Festivalı Azərbaycanda keçiriləcək

“Olimpiya Mədəniyyəti və Təhsil Proqramı” çərçivəsində 2019-cu ilin 20-28 iyul tarixlərində Bakı şəhərində XV Avropa Gənclər Olimpiya Festivalında iştirak edəcək məktəblərin direktorları ilə görüş keçirilib.

Milli Olimpiya Komitəsində (MOK) təşkil olunmuş görüşdə Bakı Şəhəri üzrə Təhsil İdarəsinin (BŞTİ) müdiri Rəşad Tağıyev, Təhsil Nazirliyinin Məktəbdənkənar fəaliyyətin təşkili şöbəsinin müdiri Vasif Məmmədov, MOK-un Marketinq şöbəsinin müdiri Mehman Kərimov, məktəb direktorları və proqramın işçi heyəti iştirak edib.

BŞTİ-nin müdiri Rəşad Tağıyev Prezident İlham Əliyevin rəhbərliyi ilə Azərbaycanda hər zaman idmana və idmançılara yüksək diqqət və qayğı göstərildiyini bildirib. R.Tağıyev, həmçinin paytaxtın ümumi təhsil məktəblərində şagirdlərin idmana olan marağının daha da artırılması, fiziki inkişafının təmin edilməsi, asudə vaxtlarının səmərəli təşkili məqsədilə görülən işlərdən bəhs edib.

⇨Ardı səh.3



# Ticarət etmək üçün oxumaq

## Yaxud dünyanın ən yaxşı biznes məktəblərindən birində gələcək sahibkarlar necə hazırlanır

Səh.9

## RƏSMİ XRONİKA



- Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev fevralın 7-də zəlzələnin baş verdiyi Şamaxıda olub. Ölkə başçısı zəlzələdən zərər çəkən tikililərə baxıb, sakinlərlə söhbət edib.
- Fevralın 7-də dövlət başçısı İlham Əliyev Azərbaycan Respublikasının Şamaxı, İsmayıllı və Ağsu rayonlarında baş vermiş təbii fəlakətin nəticələrinin aradan qaldırılması tədbirləri haqqında sərəncam imzalayıb.
- Prezident İlham Əliyev fevralın 6-da Beynəlxalq Münasibətlərin Təhlili Mərkəzinin yaradılması haqqında fərman imzalayıb.
- Prezident İlham Əliyev fevralın 5-də Moskvanın və bütün Rusiyanın Patriarxı Kirillə görüşüb.
- Fevralın 5-də ölkə başçısı İlham Əliyev Formula 1 Qrupunun baş icraçı direktoru Çeyz Kerini qəbul edib.
- Dövlət başçısı İlham Əliyev fevralın 5-də Azərbaycan Respublikasında fəaliyyət göstərən ümumölkə teleradio yayımçılarının xarici ölkələrdə yayımının təşkilinə dövlət dəstəyi verilməsi, ölkənin şəhər və rayonlarında çoxmənzilli binaların lift təsərrüfatının maddi-texniki bazasının möhkəmləndirilməsi ilə bağlı əlavə tədbirlər haqqında sərəncamlar imzalayıb.
- Azərbaycan Prezidenti İlham Əliyev fevralın 4-də Beynəlxalq Astronavtika Federasiyasının icraçı direktoru Kristian Faythingeri qəbul edib.
- Fevralın 4-də dövlət başçısı İlham Əliyev Malayziyanın XVI Ali Başçısı əl-Sultan Abdullah Riayatuddin əl-Mustafa Billah Şah ibni Sultan Hacı Əhməd Şah əl-Mustain Billaha bu vəzifəyə seçilməsi münasibətilə təbrik məktubu ünvanlayıb.
- Prezident İlham Əliyev fevralın 4-də Seyid Şuşinskinin 130 illiyinin qeyd edilməsi, Bakı Beynəlxalq Multikulturalizm Mərkəzinin fəaliyyətinin təmin edilməsi, Azərbaycan Respublikasının şəhər və rayonlarında çoxmənzilli binaların dam örtüklərinin təmiri ilə bağlı tədbirlər haqqında sərəncamlar imzalayıb.
- Fevralın 2-də ölkə başçısı İlham Əliyev Tərtər rayonunda Olimpiya İdman Kompleksinin tikintisinin başa çatdırılması ilə bağlı tədbirlər haqqında sərəncam imzalayıb.
- Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva fevralın 1-də Bakı Konqres Mərkəzində keçirilən Azərbaycan Gəncləri Gününə həsr olunmuş respublika toplantısında iştirak ediblər. Dövlət başçısı tədbirdə nitq söyləyib. Respublika toplantısı çərçivəsində Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Ukraynada yaşayan soydaşlarımız Umud və Sabir Şirinov qardaşları ilə görüşüblər. Ölkə başçısı həyatları təhlükəyə məruz qalan insanların xilası zamanı göstərdikləri şəxsi şücaətə görə onları “İgidliyə görə” medalı ilə təltif edib.
- Fevralın 1-də Azərbaycan Prezidenti İlham Əliyev Rusiya Federasiyasının Qaraçay-Çərkəz Respublikasının başçısı Raşid Temrezovun rəhbərlik etdiyi nümayəndə heyətini qəbul edib.
- Prezident İlham Əliyev fevralın 1-də Şri-Lanka Demokratik Sosialist Respublikasının Prezidenti Maytripala Sirisenaya bu ölkənin milli bayramı - Müstəqillik Günü münasibətilə təbrik məktubu ünvanlayıb.

# Xocalı soyqırımının iyirmi yeddinci ildönümü haqqında

## Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Xocalı soyqırımı iki yüz ildən çox müddətdə təcavüzkar erməni millətçilərinin xalqımıza qarşı apardığı etnik təmizləmə və soyqırımı siyasətinin qanlı səhifəsidir. Bu qanlı faciədən 27 il ötür. 1992-ci il fevralın 25-dən 26-na keçən gecə Ermənistan silahlı qüvvələri Xocalı şəhərinə hücuma keçmiş, bütün beynəlxalq hüquq, o cümlədən beynəlxalq humanitar hüquq normalarını pozaraq oraya zirehli texnika yeritmiş, şəhərin dinc əhalisinə misli görünməmiş qəddarlıqla divan tutmuşlar. Ermənistan silahlı qüvvələrinin mühasirəsində qalmış şəhər sakinlərindən 613-ü, o cümlədən 106 qadın, 63 uşaq və 70 qoca öldürülmüş, 487 dinc sakin ağır yaralanmış, 1275 nəfər isə girov götürülmüşdür.

Xocalı soyqırımını törətməklə Ermənistan Azərbaycana qarşı hərbi təcavüzün miqyasını daha da genişləndirmiş, Azərbaycanın Dağlıq Qarabağ bölgəsinin hüdudlarından kənara çıxaraq Laçın, Kəlbəcər, Ağdam, Cəbrayıl, Füzuli, Qubadlı, Zəngilan rayonlarını işğal etmişdir. Bunun nəticəsində 20 min soydaşımızın həyatına son qoyulmuş, 50 mindən çox insan yaralanmış və əlil olmuş, torpaqlarımızın 20 faizi işğala məruz qalmışdır. Dünya tarixinin ən qanlı faciələrindən biri sayılan Xocalı soyqırımı XX əsrdə erməni şovinizminin mahiyyətini aşkara çıxaran təkzibolunmaz tarixi gerçəklikdir.

BMT Təhlükəsizlik Şurasının dörd qətnaməsinə, İslam Əməkdaşlıq Təşkilatının, Qoşulmama Hərəkatının, Avropa Şurası Parlament Assambleyasının və eləcə də digər beynəlxalq qurumların qərarlarına baxmayaraq, Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsi bu günədək beynəlxalq hüququn normaları və prinsipləri, ölkəmizin beynəlxalq səviyyədə tanınmış sərhədləri daxilində ərazi bütövlüyü və suverenliyi çərçivəsində öz həllini tapmamışdır.

“Xocalıya ədalət!” kampaniyası çərçivəsində gerçəkləşdirilən tədbirlərin nəticəsi olaraq dünyanın bir sıra ölkələrində bu soyqırımla bağlı müvafiq qərarlar qəbul edilsə də, bəşəriyyət əleyhinə bu cür ağır cinayətə beynəlxalq miqyasda hələ hüquqi qiymət verilməmişdir.

2016-cı ilin Aprel döyüşlərində Azərbaycan Ordusu torpaqlarımızın bir qismini işğaldan azad etmiş, uğurlu Naxçıvan əməliyyatı ilə 11 min hektar ərazi nəzarətimizə keçmişdir. Ölkəmizin ərazi bütövlüyünü bərpa etmək üçün bizim kifayət qədər hərbi gücümüz, iqtisadi potensialımız və siyasi iradəmiz vardır. Mövcud status-kvo qəbuledilməzdir və Ermənistanın işğalçı qüvvələrinin torpaqlarımızdan çıxarılması tələbi daim gündəmdədir.

Azərbaycan xalqı və dövləti Xocalı faciəsini heç vaxt unutmur və unutmayacaqdır.

Xocalı faciəsinin iyirmi yeddinci ildönümü ərəfəsində şəhidlərin xatirəsini dərin hüznlə yad edərək və Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

Azərbaycan Respublikası Prezidentinin Administrasiyası Xocalı soyqırımının iyirmi yeddinci ildönümü ilə bağlı tədbirlər planını hazırlayıb onun həyata keçirilməsini təmin etsin.

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti**

*Bakı şəhəri, 5 fevral 2019-cu il*

## Azərbaycan Dövlət Aqrar Universitetinin yeni tədris korpusunun tikintisi və avadanlıqlarla təchizatına dair tədbirlər haqqında

### Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

**1.** Azərbaycan Dövlət Aqrar Universitetinin yeni tədris korpusunun tikintisi və avadanlıqlarla təchizatı məqsədilə Azərbaycan Respublikası Prezidentinin 2019-cu il 15 yanvar tarixli 890 nömrəli Sərəncamı ilə təsdiq edilmiş “Azərbaycan Respublikasının 2019-cu il dövlət büdcəsində digər layihələr üzrə dövlət əsaslı vəsait qoyuluşu (investisiya xərcləri) üçün nəzərdə tutulan vəsaitin bölgüsü”nün 1.12.23-cü yarımbəndində göstərilmiş məbləğin 14245000 (on dörd milyon iki yüz qırx beş min) manatı Azərbaycan Respublikasının Kənd Təsərrüfatı Nazirliyinə ayrılsın.

**2.** Azərbaycan Respublikasının Maliyyə Nazirliyi bu Sərəncamın 1-ci hissəsində göstərilən məbləğdə maliyyələşməni təmin etsin.

**3.** Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Sərəncamdan irəli gələn məsələləri həll etsin.

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti**

*Bakı şəhəri, 1 fevral 2019-cu il*

## 2019-cu il Gənclər üçün Prezident mükafatlarının verilməsi haqqında

### Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Gənclər üçün Prezident mükafatına namizədlərin seçilməsi üzrə Ekspert Komissiyasının təklifinə əsasən və Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

Mədəniyyət, elm, təhsil və ictimai fəaliyyət sahələrində xüsusi fərqlənən aşağıdakı şəxslərə 2019-cu il Gənclər üçün Prezident mükafatları verilsin:

Hacızadə Hüseynxan Saleh oğlu
Həsənov Masər Fuad oğlu
Rəcəbli Sara Rauf qızı
Mehmandarov Mustafa Adil oğlu
Mirzəmmədova Nigar Mübariz qızı
Şahverənov Allahverdi Umud oğlu.

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti**

*Bakı şəhəri, 31 yanvar 2019-cu il*

## “ADA” Universitetinin yaradılması haqqında” Azərbaycan Respublikası Prezidentinin 2014-cü il 13 yanvar tarixli 216 nömrəli Sərəncamında dəyişiklik edilməsi barədə

### Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

**1.** “ADA” Universitetinin yaradılması haqqında” Azərbaycan Respublikası Prezidentinin 2014-cü il 13 yanvar tarixli 216 nömrəli Sərəncamının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2014, № 1, maddə 29) 1-ci hissəsinə “səviyyələri” sözündən sonra “və orta ixtisas təhsili” sözləri, ikinci halda “ali” sözündən sonra “, orta ixtisas” sözləri əlavə edilsin.

**2.** Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Sərəncamdan irəli gələn məsələləri həll etsin.

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti**

*Bakı şəhəri, 7 fevral 2019-cu il*

# Rumıniyada 2019-2020-ci tədris ili üzrə təqaüd proqramı

Rumıniya Xarici İşlər Nazirliyi 2019-2020-ci tədris ili üçün ali təhsilin bakalavriat, magistratura, doktorantura səviyyələri üzrə təqaüd proqramı elan edib.

Proqrama əsasən, memarlıq, incəsənət, Rumıniya mədəniyyəti və sivilizasiyası, jurnalistika, siyasi və idarəetmə elmləri, sosial və humanitar elmlər, neft-qaz, kənd təsərrüfatı və texnologiya elmləri, baytarlıq üzrə təqaüdlər təklif olunur.

Təqaüd proqramının tədris dili rumın dilidir. Təhsil haqqı, yataqxana xərcləri, aylıq təqaüd Rumıniya tərəfindən qarşılanacaq.

Müsabiqədə iştirak etmək istəyən Azərbaycan vətəndaşları *www.mae.ro/en/node/10251* səhifəsində göstərilən müvafiq ərizə formaları ilə birgə tələb olunan sənədləri fevralın 15-dən 22-dək təqdim etməlidirlər.

Təqaüd proqramı çərçivəsində təhsilə dair əlavə məlumatlarla elan vasitəsilə tanış ola bilərsiniz.



# “Azərbaycanda ali təhsilin gücləndirilməsinə dəstək”

## Tvinninq layihəsi çərçivəsində növbəti iki ekspert missiyası ölkəmizə səfər edib

Avropa İttifaqının Tvinninq proqramının “Azərbaycanda ali təhsilin gücləndirilməsinə dəstək” layihəsi çərçivəsində növbəti iki ekspert missiyası ölkəmizə səfər edib.

Proqramın “Layihə çərçivəsində seçilmiş Milli Təhsil Standartlarının kompetensiyalara əsaslanan yanaşmanı əks etdirməsi məqsədi ilə yenidən hazırlanması” adlı birinci, “Qanunverici və tənzimləyici çərçivəyə düzəlişlərin edilməsi ilə bağlı tövsiyələrin işlənib hazırlanması” adlı dördüncü komponenti çərçivəsində Azərbaycana gələn ekspert qrupuna Fransanın Strasburq Universitetinin Kimya fakültəsinin dekanı Jan Mark Planeks, litvalı ekspert, Avropada Xarici Sərhədlərin Müdafiəsi və Sahil Mühafizəsi Agentliyinin Keyfiyyətin Təminatı üzrə Komitəsinin keyfiyyət məsələləri üzrə mütəxəssisi İnqa Yuknite Petrekiene və Litvanın Ali Təhsildə Keyfiyyətin Qiymətləndirilməsi Mərkəzinin direkor müavini Aureliya Valeikiene daxildir.



Birinci missiyanın məqsədi layihə çərçivəsində müəyyən edilmiş prioritet sahələrdəki (pedaqoji, təbiət, texniki və texnoloji ixtisas qrupları) ixtisaslar üzrə ali təhsil proqramlarının müvafiq Avropa ölkələrinin təcrübəsi və Tüninq metodologiyası nəzərə alınmaqla yenidən nəzərdən keçirilməsi, kompetensiya əsaslı yanaşmanı əks etdirməsi məqsədi ilə yenilənməsidir. Missiyanın nəticəsi olaraq Tvinninq layihəsinin ekspertləri tərəfindən prioritet sahələrdəki ixisaslar üzrə təhsil proqramlarının yeni variantı təklif olunub və Təhsil Nazirliyinin əməkdaşları ilə müzakirə edilib.

İkinci missiyanın məqsədi isə “Ali təhsilin dövlət standartı” adlı layihə sənədinin “Avropa Ali Təhsil Məkanının Kvalifikasiyalar Çərçivəsi” və “Azərbaycan Respublikasının ömürboyu təhsil üzrə Milli Kvalifikasiyalar Çərçivəsi” adlı sənədlərə uyğun hazırlanmasıdır. Missiya çərçivəsində xarici ekspertlər Təhsil Nazirliyinin Elm, ali və orta ixtisas təhsili şöbəsinin əməkdaşları ilə müzakirələr aparıb. Akkreditasiya şöbəsi və Təhsil İnstitutunun əməkdaşları ilə də görüş keçirilib.

## Təhsil naziri Ucar şəhərində vətəndaşları qəbul edəcək

**Ucar, Zərdab, Kürdəmir, Göyçay rayon sakinlərinin nəzərinə!**

Təhsil naziri Ceyhun Bayramov 15 fevral 2019-cu il tarixində saat 11:00-da Ucar şəhərindəki Heydər Əliyev Mərkəzində mərkəzi icra hakimiyyəti orqanları rəhbərlərinin 2019-cu ilin fevral ayında şəhər və rayonlarda vətəndaşların qəbulu cədvəlinə uyğun olaraq, Ucar, Zərdab, Kürdəmir, Göyçay rayon sakinlərini qəbul edəcək. Qəbulda Ucar, Zərdab, Kürdəmir, Göyçay rayonlarında müvəqqəti məskunlaşmış məcburi köçkünlər də iştirak edə bilərlər.

Qəbula gəlmək istəyən vətəndaşlar 7-13 fevral 2019-cu il tarixlərində Təhsil Nazirliyinin Telefon Məlumat Mərkəzinin 146 nömrəli telefonuna ("Qaynar xətt" xidməti) zəng etməklə və ya nazirliyin rəsmi saytının "Vətəndaşların qəbulu" bölməsinə daxil olmaqla *(http://edu.gov.az/az/contacts/request)* elektron qeydiyyatdan keçə bilərlər.

Qeydiyyatdan keçmiş vətəndaşlardan xahiş olunur ki, qəbula gələrkən aidiyyəti məsələləri dolğun ifadə edən ərizə ilə müraciət etsinlər.

## XV Avropa Gənclər Olimpiya Festivalı Azərbaycanda keçiriləcək

### Festivala 50 Avropa ölkəsindən nümayəndə heyəti qatılacaq

⇦ Əvvəli səh.1

"Olimpiya Mədəniyyəti və Təhsil Proqramı" çərçivəsində 2019-cu ilin 20-28 iyul tarixlərində Bakı şəhərində XV Avropa Gənclər Olimpiya Festivalının Azərbaycanda keçiriləcəyini qeyd edən idarə müdiri, ümumilikdə Festivala 50 Avropa ölkəsindən nümayəndə heyətinin qatılması nəzərdə tutulduğunu bildirib. R.Tağıyev qeyd edib ki, Festivalda 10 idman növü üzrə (bədii gimnastika, atletika, basketbol, velosiped, həndbol, cüdo, üzgüçülük, tennis, voleybol, güləş) Bakı şəhərindən 50 məktəb iştirak edəcək.

İdarə müdiri Festivalda ölkəmizi təmsil edən məktəblilərin yüksək nəticələr əldə edəcəyinə və ölkəmizin idman şərəfini layiqincə qoruyacaqlarına inamını ifadə edib.

Tədbirdə çıxış edənlər XV Avropa Gənclər Olimpiya Festivalında məktəblərin rolu və vəzifələri barədə geniş məlumat veriblər. Bildirilib ki, proqramın əsas məqsədi Avropa Olimpiya Komitəsinə üzv ölkələrin gəncləri arasında mədəniyyət və idmanı, həmçinin Olimpiya hərəkatını təşviq etməkdən ibarətdir.

Daha sonra MOK-un əməkdaşı proqramın icrası üçün yaradılmış "@OCEP2019" ünvanlı sosial media platformasını təqdim edərək ondan proqramın icrası zamanı hansı istiqamətlərdə istifadə olunacağını izah edib.

Tədbir Festivala hazırlıq çərçivəsində müxtəlif ölkələrin təhsil müəssisələri ilə Bakı şəhər məktəbləri arasındakı əməkdaşlığı nəzərdə tutan püşkatma ilə başa çatıb.

Qeyd edək ki, "Olimpiya Mədəniyyəti və Təhsil Proqramı" Beynəlxalq Olimpiya Komitəsinin Olimpiya Həmrəyliyi Fondu, Avropa Olimpiya Komitəsinin maliyyə dəstəyi, həmçinin Milli Olimpiya Komitəsi, Təhsil Nazirliyi, Gənclər və İdman Nazirliyi və Bakı 2019 Avropa Gənclər Olimpiya Festivalı Əməliyyat Komitəsinin təşkilatçılığı ilə həyata keçirilir.

# Gənc müəllimlərlə görüş



Fevralın 1-də Gənclər Günü ərəfəsində bir qrup gənc müəllimlə görüş keçirilib.

Əvvəlcə tədbir iştirakçıları "İçərişəhər" Dövlət Tarix-Memarlıq Qoruğuna ekskursiya ediblər.

Daha sonra "Muğam Klub"da Təhsil Nazirliyinin rəhbər heyətinin iştirakı ilə gənc müəllimlərlə görüş keçirilib.

Təhsil naziri Ceyhun Bayramov müəllimləri 2 fevral - Gənclər Günü münasibəti ilə təbrik edərək onlara gələcək fəaliyyətlərində uğurlar arzulayıb. Ceyhun Bayramov gənclər siyasətinin dövlətin əsas prioritetlərindən biri olduğunu, bu istiqamətdə ölkə Prezidenti cənab İlham Əliyev tərəfindən çoxsaylı sərəncamlar imzalandığını, layihələr həyata keçirildiyini bildirib.

Nazir qeyd edib ki, son illər müəllimlərin stimullaşdırılması, peşəkarlığının artırılması və müəllim nüfuzunun yüksəldilməsi istiqamətində məqsədyönlü tədbirlər həyata keçirilir. Ceyhun Bayramov ötən il işə qəbul olunan 4100 nəfərə yaxın müəllimin 2724 nəfərinə həvəsləndirmə tədbirləri tətbiq edildiyini deyib. Ümumilikdə isə müəllimlərin işə qəbulu üzrə müsabiqənin şəffaf keçirilməsi nəticəsində son 5 ildə 18136 müəllim işə qəbul olunub. Onların kənd məktəblərində fəaliyyətə başlamış 11600 nəfərinə (64 faiz) həvəsləndirmə tədbirləri tətbiq edilib.

Ceyhun Bayramov diqqətə çatdırıb ki, hazırda ölkə üzrə müəllimlərin sayı 144 414 nəfər təşkil edir. Onlardan 35 yaşa qədər olan müəllimlərin sayı 39 179 nəfərdir ki, bu da müəllimlərin 27 faizi deməkdir. Həmin müəllimlərdən 6099 nəfəri Bakı şəhərinin payına düşür.

Ötən illərlə müqayisədə müəllim işləmək arzusunda olanların sayında 3 dəfə artım müşahidə edildiyini bildirən təhsil naziri deyib ki, 2014-cü ildə 500 və daha artıq bal toplayan 922 nəfər müəllimlik ixtisasını seçmişdisə, 2017-ci ildə bu rəqəm 1370 nəfər olub. Ötən il keçirilən qəbul imtahanlarında 500 və daha artıq bal toplayan məzunlar arasında müəllimlik ixtisasını 2090 nəfər seçib. Bu göstərici 2014-2015-ci tədris ilinə nisbətən 2,3 dəfə və ya 126,7 faiz, ötən ilə nisbətən isə 1,5 dəfə və ya 53,6 faiz artım deməkdir.

Gənc müəllimlərlə görüşdən məmnun olduğunu vurğulayan Ceyhun Bayramov şagirdlərin milli dəyərlər əsasında formalaşmasında hər bir müəllimin üzərinə düşən vəzifələrdən danışıb. Çıxışının sonunda da nazir gənc müəllimlərə Azərbaycanın sabahı naminə fəaliyyətlərində uğurlar arzulayıb.

Tədbirdə gənc müəllimlərdən Kürdəmir rayonu Qabil Hüseynov adına Bağman kənd tam orta məktəbinin Azərbaycan dili və ədəbiyyat müəllimi Xalid Bayramov və Hacıqabul rayonu Talış kənd məktəbinin ibtidai sinif müəllimi Səbinə Əhmədova çıxış edərək öz fəaliyyətləri haqqında danışıb və onlara göstərilən diqqət üçün təşəkkürlərini bildiriblər.

Tədbir bədii hissə ilə davam edib.

## Qazax rayonunda məktəb açılışı

Fevralın 4-də S.Vurğun adına Qazax şəhər 2 nömrəli tam orta məktəbin əsaslı təmirdən sonra açılış mərasimi keçirilib.

Məktəbin açılışında Təhsil Nazirliyinin Ümumi və məktəbəqədər təhsil şöbəsinin müdir müavini İlqar Mahmudov, Qazax Rayon İcra Hakimiyyətinin başçısı Rəcəb Babaşov, rayon təhsil şöbəsinin müdiri Nizaməddin Babanlı, məktəbin müəllim-şagird heyəti və ictimaiyyət nümayəndələri iştirak ediblər.

Qazax Rayon İcra Hakimiyyətinin başçısı Rəcəb Babaşov məktəbin pedaqoji kollektivini təbrik edərək onlara gələcək fəaliyyətlərində uğurlar arzulayıb.

Təhsil Nazirliyinin Ümumi və məktəbəqədər təhsil şöbəsinin müdir müavini İlqar Mahmudov ölkənin hər bir yerində müasir standartlara cavab verən təhsil ocaqlarının tikildiyini, bunun gənc nəslin savadlı və vətənpərvər ruhda formalaşmasına xidmət etdiyini diqqətə çatdırıb. İlqar Mahmudov təhsilə göstərdiyi diqqət və qayğıya görə ölkə Prezidenti İlham Əliyevə minnətdarlığını bildirib, pedaqoji kollektivi tədrisin keyfiyyətini yaxşılaşdırmağa, gəncləri milli ruhda tərbiyə etməyə, onları ulu öndər Heydər Əliyevin ideyalarına, azərbaycançılıq məfkurəsinə sadiq gənclər kimi yetişdirməyə səsləyib.

Sonra Qazax RTŞ-nin müdiri Nizaməddin Babanlı çıxış edərək ölkə rəhbərliyi və Təhsil Nazirliyinə məktəbin əsaslı təmirinə görə Qazax rayon təhsil işçiləri adından təşəkkürünü bildirib.

Açılış mərasimindən sonra tədbir iştirakçıları tədris ocağında yaradılan şəraitlə tanış olublar.

Qeyd edək ki, məktəb 964 şagird yerlikdir. Məktəbdə 3 laboratoriya, 2 kompüter otağı, yeməkxana, kitabxana, akt zalı, 2 idman meydançası, qazanxana, içməli su anbarı və bir transformator yarımstansiyası var.

## Müəllimlər üçün onlayn kalkulyator xidməti yenilənib

Vergi Məcəlləsinə edilən dəyişikliklərə əsasən, dövlət ümumi təhsil müəssisələrində çalışan müəllimlərin əməkhaqlarının hesablanması üçün onlayn kalkulyator xidmətində düzəlişlər edilib.

Müəllimlər Təhsil Nazirliyinin internet saytının "Aktual keçidlər" bölməsindən "Onlayn kalkulyator" *http://edu.gov.az/az/calc* keçidini seçməklə artımdan sonra əməkhaqlarını hesablama imkanı əldə edə bilərlər. Bunun üçün "Onlayn kalkulyator" keçidinə daxil olaraq müvafiq məlumatlar qeyd edilməli və "hesabla" düyməsi seçilməlidir. Bu zaman hesablanmış əməkhaqqı ekranda əks olunacaq. Müəllimlər ödənilən əlavələr, əməkhaqqından tutulmalar barədə məlumatları "Hesablama" düyməsindən aşağıda yerləşən cədvəl vasitəsi ilə əldə edə biləcəklər.

# "Müəllimlərin inklüziv təhsil sahəsində bacarıqlarının artırılması"

### Layihə müəllimlərin tədris imkanlarının və pedaqoji resursların təkmilləşdirilməsinə xidmət edir



⇦ Əvvəli səh.1

Nazir müavini Azərbaycanda inklüziv təhsilin tətbiqi ilə bağlı 2004-cü ildən başlayaraq bir sıra təşəbbüslərin olduğunu diqqətə çatdırıb. Bildirilib ki, "Azərbaycan Respublikasında xüsusi qayğıya ehtiyacı olan (sağlamlıq imkanları məhdud) uşaqların təhsilinin təşkili ilə əlaqədar İnkişaf Proqramı (2005-2009-cu illər)" çərçivəsində inklüziv təhsilin təşkili ilə bağlı UNESCO-nun maliyyə dəstəyi ilə 2005-ci ildən 3 pilot layihənin icrasına başlanılıb. Layihələrin icrası müddətində 15 ümumtəhsil məktəbi və 13 məktəbəqədər təhsil müəssisəsində 268 əlil uşaq inklüziv təhsilə cəlb edilib. Layihələrin müddətinin bitməsinə baxmayaraq, inklüziv təhsilə cəlb olunmuş digər şagirdlər müəssisələrdə bu gün də təhsillərini davam etdirirlər.

Avropa İttifaqının Azərbaycan Respublikasındakı nümayəndəliyinin rəhbəri Kestutis Yankauskas inklüziv təhsil üzrə layihələr barədə fikirlərini bildirib, sağlamlıq imkanları məhdud uşaqların təhsilə cəlb edilməsinin vacibliyini vurğulayıb.

Heydər Əliyev Fondunun beynəlxalq əlaqələr departamentinin direktoru Soltan Məmmədov ümummilli lider Heydər Əliyevin təhsilə daim böyük önəm verdiyini, ulu öndərin ideyalarının Prezident İlham Əliyev tərəfindən uğurla həyata keçirildiyini bildirib.

Heydər Əliyev Fondunun milli-mənəvi dəyərlərimizin qorunmasına, tariximizin, mədəni irsimizin beynəlxalq aləmdə təbliğinə böyük əhəmiyyət verdiyini qeyd edən Soltan Məmmədov ölkəmizdə təhsilin inkişafı üçün reallaşdırılan tədbirləri diqqətə çatdırıb. O, Azərbaycan Respublikasının Birinci vitse-prezidenti, Heydər Əliyev Fondunun prezidenti Mehriban Əliyevanın təşəbbüsü ilə yüzlərlə yeni məktəb binalarının tikilib istifadəyə verildiyini, təhsil müəssisələrinin müasir avadanlıqlarla təchiz edildiyini vurğulayıb. Bildirilib ki, Heydər Əliyev Fondu fiziki qüsurlu uşaqların və gənclərin həm səhiyyə, həm də təhsil probleminə xüsusi diqqət yetirir. Fondun əsas məqsədlərindən biri xüsusi qayğıya ehtiyacı olan insanlara kömək göstərmək, onların sağlamlığını mühafizə etmək, sosial problemlərini həll etməkdir. Fondun "Regional İnkişaf" İctimai Birliyinin və Avropa İttifaqının dəstəyi ilə Təhsil Nazirliyi tərəfindən tətbiq olunacaq yeni layihə isə ölkədə sağlamlıq imkanları məhdud insanların, xüsusilə də əlil uşaqların ümumi təhsilə əlçatarlığını, hər bir insanın ölkədəki təhsil sahəsinin inkişafından yararlanmasını və xüsusi qayğıya ehtiyacı olan uşaqların cəmiyyətə vaxtında və düzgün inteqrasiyasını təmin edəcək.

Daha sonra layihə rəhbəri Leyla Tağıyevanın təqdimatı dinlənilib. Məlumat verilib ki, icrasına 2018-ci ilin mayından başlanan "Müəllimlərin inklüziv təhsil sahəsində bacarıqlarının artırılması" layihəsi 2020-ci ilin sentyabr ayınadək davam edəcək. Bununla bağlı Bakı şəhəri, Quba, Şəki, Cəlilabad, Ağcabədi və Şamaxı rayonlarında müəllimlərin inklüziv təhsil sahəsində tədris imkanlarının və pedaqoji resursların təkmilləşdirilməsi nəzərdə tutulur. Layihə çərçivəsində fəaliyyət 4 istiqamət - inklüziv təhsil üzrə tədris proqramı və materiallarının təkmilləşdirilməsi, müəllim və yardımçı heyətin bacarıqlarının artırılması, onlar üçün resursların yaradılması, inklüziv təhsil üzrə siyasətin təkmilləşdirilməsi və ictimai maarifləndirmə tədbirlərinin təşkili üzrə aparılır. Bu günədək Bakı şəhəri, Ağcabədi, Cəlilabad, Şamaxı, Şəki və Quba rayonlarında ehtiyacların qiymətləndirilməsi ilə bağlı tədqiqatlar aparılıb. Eləcə də beynəlxalq ekspertlər layihə ilə bağlı yaradılmış işçi qrupa müəllimlərin inklüziv təhsil sahəsində inkişaf strategiyasını təqdim ediblər. İnklüziv təhsil üzrə təlim proqramları hazırlanaraq aidiyyəti qurumlara təqdim olunub, müəllim və yardımçı mütəxəssislərin inklüziv təhsil üzrə resurslara çıxışını təmin etmək məqsədilə Azərbaycan Dövlət Pedaqoji Universiteti və onun filiallarında İnklüziv Təhsil Mərkəzləri yaradılıb. Bununla yanaşı, bir qrup təhsil işçisi inklüziv təhsil sahəsində digər ölkələrin nümunəvi təcrübəsinin öyrənilməsinə cəlb olunacaq.

Tədbirdə "Fərqliyik, bərabərik" adlı videoçarx nümayiş etdirilib.

Sonda "İnklüziv təhsilin əhəmiyyəti" mövzusunda sağlamlıq imkanları məhdud gənclərin motivasiya çıxışları olub.

# BDU ilə Koreya universitetləri arasında əlaqələr genişləndirilir

## Firudin Qurbanov Koreyanın ölkəmizdəki səfiri ilə görüşüb

Təhsil nazirinin müavini, Bakı Dövlət Universitetinin (BDU) rektoru vəzifəsini icra edən Firudin Qurbanov Koreya Respublikasının ölkəmizdəki fövqəladə və səlahiyyətli səfiri Kim Tonq-op ilə görüşüb.

Görüş zamanı Firudin Qurbanov Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin rəhbərliyi ilə iki ölkə arasında əlaqələrin inkişaf etdiyini bildirib. Firudin Qurbanov son illər ölkədə təhsil sahəsində həyata keçirilən islahat və layihələr barədə ətraflı məlumat verib. Bildirib ki, Təhsil Nazirliyi ilə Koreya Respublikasının Təhsil və İnsan Resurslarının İnkişafı Nazirliyi arasında imzalanmış təhsil sahəsində əməkdaşlığa dair anlaşma memorandumundan sonra ümumi və ali təhsil sahəsində bir çox layihələr həyata keçirilib.

Firudin Qurbanov "2007-2015-ci illərdə Azərbaycan gənclərinin xarici ölkələrdə təhsili üzrə Dövlət Proqramı" çərçivəsində 40-dək tələbənin Koreyanın müxtəlif universitetlərində təhsil aldıqlarını diqqətə çatdırıb.

Bakı Dövlət Universitetinin Şərqşünaslıq fakültəsində 12 ildir fəaliyyət göstərən Koreyaşünaslıq ixtisası üzrə 64 nəfərin məzun olduğunu qeyd edən Firudin Qurbanov tədrisin yerli müəllimlərlə yanaşı, koreyalı mütəxəssislər tərəfindən də aparıldığını, tələbələrin universitetdə keçirilən Bakı Koreya dili natiqlik müsabiqəsində aktiv iştirak etdiklərini vurğulayıb. BDU ilə Koreyanın ali təhsil müəssisələri arasında anlaşma memorandumlarının olduğunu xatırladan Firudin Qurbanov əlaqələri daha da inkişaf etdirməyin, birgə layihələrdə iştirakın vacibliyini diqqətə çatdırıb.

Görüşdə həmçinin bildirilib ki, Bakı Dövlət Universiteti Azərbaycanın aparıcı ali təhsil müəssisəsi, elmi tədqiqatlara böyük töhfələr verən, yüksəkixtisaslı kadrlar hazırlayan müasir elm və təhsil mərkəzidir.



Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev Bakı Dövlət Universitetinin 100 illik yubileyinin dövlət səviyyəsində keçirilməsi haqqında sərəncam imzalayıb. BDU-unun yubileyi YUNESKO, İSESKO, o cümlədən bir sıra beynəlxalq universitetlərin assosiasiyaları tərəfindən də qeyd ediləcək.

Koreya Respublikasının ölkəmizdəki fövqəladə və səlahiyyətli səfiri Kim Tonq-op ikili diplom, Koreyaşünaslıq ixtisasında təhsil alan tələbələrin dərsliklər və təqaüdlə təmin olunması, Koreya dili və mədəniyyətini təbliğ edən, Qafqaz regionunda ilk dəfə BDU-nun nəzdində açılan Kral Seconq İnstitutunun fəaliyyəti ilə bağlı fikirlərini bölüşüb. Səfir həmçinin, BDU ilə Koreya universitetləri arasında əlaqələrin genişləndirilməsi istiqamətində birgə fəaliyyətin gücləndirilməsində maraqlı olduqlarını bildirib.

# "UNEC-100" İnkişaf Strategiyası: hədəflər

## Tədqiqat universitetinə transformasiya

"UNEC-100" İnkişaf Strategiyasında Azərbaycan Dövlət İqtisad Universitetinin (UNEC) tədqiqat universitetinə transformasiyası ilə bağlı strateji məqsəd, hədəflər və fəaliyyət istiqamətləri müəyyən olunub.

Strategiyaya əsasən, tədqiqat universitetinə çevrilmək istiqamətində UNEC magistratura və doktorantura təhsilini mütərəqqi dünya təcrübəsinə uyğunlaşdırmağı, milli və beynəlxalq səviyyədə yüksək reytinq qazanmış "beyin mərkəzi" yaratmağı, sifariş və qrantlar əsasında yerinə yetirilən tədqiqat layihələrinin sayını ilbəil artıraraq universitetin büdcəsinin 20%-nə çatdırmağı əsas hədəfə çevirib.

Bununla yanaşı, 2030-cu ilə qədər "Web of Science" və "Scopus" elmi platformalarına daxil olan ən nüfuzlu nəşrlərdə çap edilən məqalələrin sayını ilbəil artırmaq, həmin bazalara daxil olan 3 elmi jurnala sahib olmaq, elmi məruzələri nüfuzlu bazalara daxil edilən beynəlxalq elmi tədbirlər təsis və təşkil etmək, o cümlədən hər il iqtisadçı tələbələrin beynəlxalq tələbə elmi konfransını təşkil etmək UNEC -in İnkişaf Strategiyasında hədəf kimi müəyyən olunub.

Hazırda isə UNEC-də konkret və spesifik tədqiqat istiqamətləri üzrə 17 tədqiqat-araşdırma mərkəzi, İqtisadi Klinika, Sığorta məktəbi və İnkişaf iqtisadiyyatı laboratoriyası fəaliyyət göstərir. Elmi tədqiqatların stimullaşdırılması məqsədilə isə UNEC Tədqiqat Fondu, Diferensial Əmək Haqqı Sistemi və nüfuzlu jurnallarda məqalə nəşrinə görə mükafatlandırma mexanizmi mövcuddur. UNEC-də ali təhsilin magistratura və doktorantura təhsil pilləsi üzrə beynəlxalq standartlara cavab verən müasir tədris və təlim metodlarının tətbiq olunduğu, "İqtisadiyyat və idarəetmə" ixtisas qrupuna daxil olan 11 ixtisas və 39 ixtisaslaşma üzrə 4 dildə tədris aparan Beynəlxalq Magistratura və Doktorantura Mərkəzi də fəaliyyət göstərir.

# ADNSU-nun laboratoriyaları yeni avadanlıqlarla təmin edilib

Fevralın 6-da Azərbaycan Dövlət Neft və Sənaye Universitetinin (ADNSU) rektoru, professor Mustafa Babanlı universitetin yeni avadanlıqlarla təmin olunmuş laboratoriyalarında olub. Əvvəlcə Fizika laboratoriyasına baş çəkən rektor burada yaradılan şəraitlə tanış olub. "Fizika" kafedrasının müdiri, professor Müsavər Musayev yeni avadanlıqlar haqqında rektora məlumat verib, onların iş prinsipini nümayiş etdirib.

Sonra professor Mustafa Babanlı "İdarəetmə və sistemlər mühəndisliyi" kafedrasının laboratoriyasında olub. Kafedra müdiri, professor Fərid Ağayev yeni avadanlıqlar haqqında məlumat verib, müasir laboratoriyaların tələbələr üçün əhəmiyyətini qeyd edib.

Laboratoriyalarla tanışlıqdan sonra professor-müəllim heyəti ilə görüş keçirən rektor universitetdə bu cür tədbirlərin davamlı olacağını bildirib. Laboratoriyaların zənginləşdirilməsinin ali məktəbdə elmin inkişafına böyük təkan verəcəyini deyən M.Babanlı burada tələbələrin kurs işlərini yerinə yetirməsi və startap layihələri üzərində çalışmaları üçün şərait yaradıldığını qeyd edib. Kafedra əməkdaşlarına 3 dildə metodiki göstərişlər hazırlanması və digər məsələlər barədə tövsiyələr verən rektor M.Babanlı professor-müəllim heyətinin təkliflərini dinləyib.

# AzTU İstanbul Texniki Universiteti ilə əməkdaşlıq edəcək

Fevralın 6-da Türkiyənin İstanbul Texniki Universitetinin (İTÜ) prorektoru, professor Əli Fuad Aydın başçılıq etdiyi nümayəndə heyəti Azərbaycan Texniki Universitetində (AzTU) olub.

AzTU-nun rektor əvəzi, professor Xalıq Yahudov rəhbərlik etdiyi universitet haqqında qonaqlara geniş məlumat verib. Söhbət zamanı, son illər AzTU-nun kadr potensialı, elmi-texniki və beynəlxalq əlaqələrinin inkişafı ilə bağlı görülən işlər diqqətə çatdırılıb. Rektor əvəzi iki il öncə İTÜ-nün texnoparkına etdiyi ziyarəti xatırladaraq, AzTU-da bu cür texnopark mühitinin formalaşdırılması üçün yüksək elmi potensial və istək olduğunu vurğulayıb.

Prorektor Əli Fuad Aydın son illər İTÜ-nün beynəlxalq əməkdaşlıqlar üçün aktiv konsepsiya üzrə işlədiyinə diqqət çəkərək, AzTU ilə əlaqələrin yüksək səviyyədə qurulacağına əminliyini bildirib. Prorektor qeyd edib ki, hazırda İTÜ-nün texnoparkı dünya üzrə Amerika Birləşmiş Ştatları və Niderland Krallığının texnoparklarından sonra üçüncü yerdə qərarlaşır. Bundan əlavə, ERASMUS və digər beynəlxalq təhsil layihələrində aktiv iştirak etdiklərini deyən professor Əli Fuad Aydın gələcəkdə bu layihələrdə AzTU ilə birgə iştirakın mümkün olduğunu bildirib.

Sonda prorektor Əli Fuad Aydın rektor əvəzi Xalıq Yahudovu İTÜ-yə səfərə dəvət edib. Qərara alınıb ki, səfər çərçivəsində iki universitet arasında əməkdaşlığa dair müqavilə imzalansın.

# ADPU-da payız semestrinin imtahan sessiyası başa çatıb

## Apelyasiya Komissiyasında araşdırılan 1526 müraciətdən 465-i tələbələrin xeyrinə həll edilib

Azərbaycan Respublikasının Təhsil naziri Ceyhun Bayramovun "İmtahan sessiyasının təşkili və keçirilməsi barədə" imzaladığı 11 dekabr 2018-ci il tarixli əmrdə ali və orta ixtisas təhsili müəssisələrində 2018-2019-cu tədris ilinin payız semestrinin imtahan sessiyasının mövcud normativ sənədlər əsasında təşkil edilməsi, tələbələrin biliyinin qiymətləndirilməsində şəffaflığın və obyektivliyin təmin edilməsi, imtahan sessiyasının müvəffəqiyyətlə keçirilməsi, təhsil müəssisələrində imtahan qərargahlarının yaradılması, bu qərargahlara daxil olan hər bir şikayətin qısa müddətdə çevik şəkildə araşdırılıb lazımi tədbir görülməsi, eyni zamanda imtahanlarda şəffaflığın təmin edilməsi üçün ictimaiyyətin və tələbələrin valideynlərinin iştirakına şərait yaradılması öz əksini tapıb. Azərbaycan Dövlət Pedaqoji Universitetində (ADPU) bu əmrin icrası ilə bağlı müvafiq əmr imzalanıb. Payız semestrinin imtahan sessiyasında tələbələrin imtahan nəticələrinin qiymətləndirilməsində olan şikayətlərin araşdırılması və düzgün qiymətləndirilməsini təmin etmək məqsədilə 9 nəfərdən ibarət Apelyasiya Komissiyası yaradılıb. Eyni zamanda payız semestrinin imtahan sessiyasının obyektivliyini və şəffaflığını təmin etmək məqsədilə 8 nəfərdən ibarət İmtahan Qərargahı yaradılıb.

Payız semestrinin imtahan sessiyası Tədris Departamentinin İmtahan və monitorinq şöbəsi tərəfindən idarə olunub. Apelyasiya Komissiyasının və İmtahan Qərargahının əlaqə telefonları bütün tələbələrə elan edilib, universitetin saytında və facebook səhifəsində yerləşdirilib.

İmtahan Qərargahının rəhbəri, dosent Asif Axundovun verdiyi məlumata görə, yanvarın 4-dən fevralın 5-dək qərargaha ümumilikdə 293 nəfər tələbə müraciət edib. Bu müraciətlərin 283-ü yazılı qaydada, 10-u isə test üsulu ilə verilən imtahanlardan olub. Müraciətlər çevik şəkildə və diqqətlə araşdırılıb. Yazılı qaydada verilən imtahanlarla bağlı edilən 283 müraciətin 262-si tələbələrin xeyrinə həll edilib, 21 müraciət isə əsassız hesab edilib. Test üsulu ilə verilən imtahanlarla bağlı edilən 10 müraciətin 7-si tələbələrin xeyrinə həll edilib, 3 müraciət isə əsassız sayılıb.

Apelyasiya Komissiyasının sədri, siyasi elmlər üzrə fəlsəfə doktoru Rəşad Sadıqovun verdiyi məlumata görə, yanvarın 4-dən fevralın 5-dək komissiyaya ümumilikdə 2050 müraciət daxil olub. Bu müraciətlərin 2035-i yazılı qaydada, 15-i isə test üsulu ilə verilən imtahanlarla bağlı olub. Yazılı qaydada verilən imtahanlarla bağlı 1511 müraciət araşdırılıb. 460 müraciət tələbələrin xeyrinə həll edilib, 1051 müraciət əsassız sayılıb. Digər müraciətlərin araşdırılması davam edir. Test üsulu ilə verilən imtahanlarla bağlı edilən 15 müraciətin 5-i tələbələrin xeyrinə həll edilib, 10 müraciət isə əsassız hesab edilib.

Həmçinin valideynlərlə əlaqələrin yaradılmasına, təhsil ekspertlərinin və kütləvi informasiya vasitələri nümayəndələrinin universitetdə olaraq imtahan prosesini izləmələrinə də xüsusi diqqət yetirilib. ADPU-nun filialları və ADPU-nun nəzdində Azərbaycan Dövlət Pedaqoji Kolleci (ADPK) imtahan sessiyasının gedişi haqqında mütəmadi olaraq Tədris Departamentinə və rektorluğa məlumat veriblər.

ADPU-nun rəhbərliyi müntəzəm şəkildə auditoriyalarda olaraq imtahan prosesini müşahidə edib, öz tapşırıq və tövsiyələrini verib. Bütövlükdə ADPU-da payız semestrinin imtahan sessiyası tam şəffaf və obyektiv keçirilib.

# AzMİU-da "Uğurlu tərəfdaşlıq-real təcrübə" adlı görüş keçirilib

## Əmək bazarının tələblərinə cavab verən kadr hazırlığı qarşıda duran əsas məsələdir

Azərbaycan Memarlıq və İnşaat Universitetində (AzMİU) ölkənin aparıcı istehsalat müəssisələrinin nümayəndələri ilə universitet kollektivinin "Uğurlu tərəfdaşlıq-real təcrübə" adlı görüşü keçirilib.

Görüşdə AzMİU-nun rektoru, professor Gülçöhrə Məmmədova, professor-müəllim heyəti, ölkənin 60-dan cox aparıcı dövlət və özəl müəssisələrinin (Zaferoğlu İnşaat MMC, Embawood MMC, AzerGold QSC, Təmiz Şəhər ASC, AzVirt MMC və s.) rəhbər və nümayəndələri, tələbələr iştirak edib.

AzMİU-nun rektoru, professor Gülçöhrə Məmmədova görüşün məqsədinə toxunaraq universitetdə kadr hazırlığı məsələsində nəzəri biliklərlə yanaşı, praktik biliklərə xüsusi əhəmiyyət verildiyini qeyd edib. Əmək bazarının tələblərinə cavab verən kadr hazırlığının ali təhsil müəssisələri qarşısında duran əsas məsələ olduğunu, bu istiqamətdə elm-təhsil-biznes vəhdətinin vacibliyini diqqətə çatdırıb. Uğurlu tərəfdaşlığın davamında universitetin iş dünyası ilə olan əməkdaşlığının hər iki sahəyə olan müsbət təsirindən danışıb.

Rektor kadr hazırlığında universitetin əmək bazarı ilə birgə fəaliyyətinə geniş imkanlar yaratdığını bildirib. "Hazırda AzMİU-nun tələbə və məzunlarının iş dünyası ilə tanış olması üçün universitetdə bir çox istiqamətlərdə işlər aparılır. Universitetdə Təcrübə və karyera şöbəsi fəaliyyət göstərir, ölkənin aparıcı qurumlarından nümayəndələr universitetə dəvət olunur, onlar mütəmadi olaraq tələbələrlə görüşür, seminarlar keçirir və praktik biliklərini tələbələrlə bölüşürlər". Rektor həmçinin bildirib ki, ötən ildən etibarən tələbələr ilk dəfə olaraq 14 həftəlik istehsalat təcrübəsinə göndərilib. Məhz bu cür təcrübələr zamanı 200-dən çox tələbə əməkhaqqı almaqla yanaşı, işlə də təmin olunub.



G.Məmmədova çıxışının sonunda ölkə iqtisadiyyatının müasir tələblərinə uyğun, praktiki bilik və bacarıqlara malik kadrların hazırlanmasında universitetə göstərdiyi böyük dəstək və səmərəli əməkdaşlığa görə bir qrup istehsal müəssisəsinin rəhbər və nümayəndələrinə təşəkkürnamələr təqdim edib.

İstehsal müəssisələrinin rəhbər və nümayəndələri də öz növbəsində universitet rəhbərliyinə minnətdarlıqlarını bildirib, əməkdaşlığın davamlı olmasını arzulayıblar. AzerGold QSC-nin sədri Zakir İbrahimov, SOCAR-ın "Neftqaztikinti" trestinin müdiri Mirkazım Abbasov, Embawood şirkətinin direktoru Elşad Abbasov və başqaları AzMİU tələbələrini bu il də istehsalat təcrübəsi keçmək üçün rəhbərlik etdikləri müəssisələrə dəvət ediblər. Onlar üçün hər cür şərait yaradacaqlarını deyən qonaqlar kadr hazırlığı prosesində birgə əməkdaşlığın hər iki tərəfə böyük faydası olacağını vurğulayıblar.

# "Keyfiyyətdə əsas nəticəmiz 4 il sonra bilinəcək"

**II hissə**

## Natiq İbrahimov:
## "Məzunlarımıza olan tələbat artıb"

**Ruhiyyə DAŞSALAHLI**

Lənkəran Dövlət Universiteti son 2 ildə bir çox ilklərə imza atıb. Ancaq bunların ən önəmlisi tədrisdə keyfiyyəti artırmalarıdır. Bəs, buna necə nail olublar? Universitetin rektor əvəzi Natiq İbrahimov "Azərbaycan müəllimi"nə müsahibəsində tədrisdə müəllimdən başlayan keyfiyyət dəyişikliyinə doğru addım-addım irəlilədiyi yola bələdçilik edib:



*- Keyfiyyətli təhsil müəllimdən başlayır. Rəhbərlik etdiyiniz universitetdə verilən təhsilin keyfiyyətini artırmaq üçün bu sahədə hansı tədbirlər görülür?*

- Yəqin siz də qəbul edərsiniz ki, yüksək maaş verən universitetin müəllimlərə, dosentlərə etdiyi təklifdən imtina olunmur. LDU-da müəllimlərin maaşı 600 manatdan başlayır. Halbuki Bakıdakı universitetlərin bəzilərində bu məbləğ 400 manatdır. Azərbaycan Milli Elmlər Akademiyasında çalışan və təqribən 450 manat əməkhaqqı alan, əslən bu bölgədən olan dosentə 1000 manat əməkhaqqı təklif etdik və təklifimiz qəbul olundu. Odur ki, artıq universitetin müəllimə olan ehtiyacını ödəyə bilmişik. 150 müəllimimiz arasında elmlər doktorlarının sayı artıb. Yüksək maaş sadəcə müəllimlərin əməkhaqqında deyil. Bizdə vəzifə maaşları da digər universitetlərlə müqayisədə yaxşıdır. Müəllim 600 manat, baş müəllim 800-dən çox, dosentlər 900 manat, professor və kafedra müdirləri 1100 manat maaş alırlar. Müəllimlərə başqa yerdə işləmək imkanı da yaradılıb. Akademiyanın regional bölməsində işləyənlər, LDU-da yarımştat çalışanlar var. Dərslər əvvəllər 8.00-da başlayıb, axşam 19.00-da bitirdi. Artıq 8.30-da başlayıb 17.30-da bitən ikinövbəli dərs sistemini yekunlaşdırırıq. Üstəlik, cədvəllər tələbələrin seçimi əsasında, müəllimlərin vaxtına uyğun qurulur. Yarım saat fasilə var. Birinci və ikinci növbə üzrə təhsil alanların dərsləri toqquşmur. Dünyada tətbiq edilən bu qaydanı müəyyən qədər özümüzünküləşdirərək tətbiq edir, uğurlu nəticələr əldə edirik. Bununla yanaşı, son iki ildə LDU üçün elmi-pedaqoji kadrların hazırlanması məqsədilə universitetə fəlsəfə doktoru proqramlarına doktorantura və dissertanturaya müxtəlif ixtisaslar üzrə 40-dan çox gənc qəbul olunub, həmçinin 5 nəfər digər ali məktəblərə məqsədli yerlərə göndərilib. Eyni zamanda, son 2 ildə müxtəlif ixtisaslardan elmlər doktoru proqramı üzrə 11 nəfər fəlsəfə doktoru Bakı Dövlət Universitetinə, 2 nəfər fəlsəfə doktoru isə Azərbaycan Dövlət İqtisad Universitetinə təhsil almaq üçün ayrılan məqsədli yerlərə göndərilib. Nəticədə bir neçə ildən sonra universitetimizdə çalışan elmlər doktoru və professorların sayının bir neçə dəfə artması gözlənilir. Bunu ölkəmizdə ilk dəfə Lənkəran Dövlət Universiteti tətbiq etdi. Bu, çox vacib məsələdir. Fəlsəfə doktoru hazırlamaq üçün universitetin özünün gücü yoxdur. Bu, universitetin canlanması üçün çox vacibdir.

*- Müəllimlərinizin yaş tərkibi də maraqlıdır. Aralarında gənclər çoxdur, yoxsa..?*

- Universitetimizdə gənclərin fəaliyyətinə xüsusilə diqqət yetiririk. LDU hazırda ən yaxşı inkişaf mərhələsini keçir. İş bacaranlardan ibarət böyük bir komanda universitet rəhbərliyində təmsil olunub. Universitet cavan olduğu üçün İdarə Heyəti də cavanlardan ibarətdir. Ümumiyyətlə, xaricdə təhsil alan gəncləri universitetə dəvət edirik. Bu məsələdə əlimdən gələni əsirgəmirəm. Yaxşı kadrları dəvət etmək üçün bəzən müdafiə etdiklərinə dair təsdiq sənədini almalarını belə gözləmirəm. Gənc müəllimimizdən birini məhz belə etdik. Hələ Ali Attestasiya Komissiyasından təsdiqini almadan, bizim universitetdə işə başladı. Onu da qeyd edim ki, universitetdə tədrisin təşkili və təlim texnologiyaları üzrə prorektor vəzifəsini icra edən riyaziyyat üzrə fəlsəfə doktoru, dosent İdrak Əsgərov gənc mütəxəssislərdən biridir.

*- Universitetə ancaq bu bölgədən olan müəllimləri dəvət edirsiniz?*

- Bəli, əsasən bu bölgədən olanlara üstünlük verdik. Lakin seçki üsulu ilə başqa bölgələrdən olanlar da universitetdə işlə təmin olunurlar.

*- Əslən bölgədən olanlara üstünlük verilməsi müəllimlərin yaşayacağı, qalacağı yerin olması ilə əlaqədardır?*

- Xeyr. Bu, onların bölgəyə yaxından bələd olmaları ilə əlaqədardır. Məqsədimiz LDU-nun müəllimə olan çox böyük ehtiyacını ödəmək idi. İndiyədək 10 nəfər müəllim gəlib. 7 nəfəri əslən bu zonadan olsa da, Bakıda yaşayandır. Qalmaq üçün yerə gəlincə, bunu universitet özü təmin edir. Qalmağa evi olmayanları hər cür şəraiti olan mənzillərdə yerləşdirik. Bu məqsədlə Azərbaycanda ilk dəfə olaraq müəllimlər üçün yaşayış evləri tikdik. İlkin mərhələdə 6 ikiotaqlı mənzil tikib hazırladıq. 6 mənzil tikməklə 7 müəllimin gəlməsini reallaşdırdıq. Onu da deməliyəm ki, ilk mərhələdə həmin 7 müəllimin gəlişi universitetin işinə böyük dəstək oldu. Sonrakı mərhələdə dəvət olunan müəllimlər üçün də 10 nəfərlik qonaq evi yaradıldı.

*- Mənzillər müəllimlərə hansı şərtlərlə verilib?*

- Hər biri ilə razılaşmışıq ki, LDU-da işlədikləri müddətdə həmin mənzillərdə qeydsiz-şərtsiz, pulsuz yaşayacaq, gedəndə isə götürdükləri mənzilləri aldıqları kimi təhvil verəcəklər.

### Yüksək bal toplayanlar arasında universitetimizi seçənlərin sayı artdı

*- Bu tədris ilində 500-600 və ondan daha yüksək bal toplayanların seçdiyi universitetlər arasında Lənkəran Dövlət Universitetinin də adı vardı. Yəqin bu da tədrisin keyfiyyətində özünü göstərəcək?*

- Keyfiyyətdə əsas nəticəmiz 4 il sonra bilinəcək. Amma bu tədris ilində qəbulumuz, sözün əsl mənasında, yaxşı oldu. Yerlərimiz 90 faiz doldu. Yüksək bal toplayanlar arasında universitetimizi seçənlərin sayı artdı.

*- Bu, payız imtahan sessiyasında hansısa fərq yaratdımı? Keyfiyyətli təhsilə nail olmaq üçün imtahanlarda da ciddi dəyişikliklər etmisiniz...*

- Universitetdə imtahan sistemi dəyişdirilib. İmtahanlar tamamilə şəffaflaşdırılıb. İctimai Şura yaradılıb, bütün imtahanlar ictimaiyyət nümayəndələrindən ibarət şuranın nəzarəti altında keçirilir. Yazılı aparılan imtahanlarda 5 sual qoyulur. Hər sualın cavabı ayrıca bir vərəqdə yazılır, ayrı-ayrı kodlaşdırılaraq müəllimlərə paylanır. Bu qayda ilə müəllimlər bir yerdə yoxlasalar belə, yazıların kimə aid olduğunu müəyyənləşdirə bilməzlər.

*- İmtahanların hamısı yazılı olmur?*

- Əlbəttə, yox. Elə fənlər var ki, tələbə ona şifahi də cavab verməlidir. Məsələn, ingilis dili müəllimliyində şifahi tərcümə fənni var. Bu fənn üzrə imtahanı yazılı necə götürmək olar? Ona görə də bəzi fənlər üzrə imtahanlar şifahi götürülür.

### Vəziyyətdən kim razıdır, kim narazı?

*- Universitetdə baş verən dəyişiklik necə qəbul edilir? Daha doğrusu, qəbul edilirmi? Neçə illik ənənəni dəyişdirirsiniz. Müqavimət olmurmu?*

**Bəlkə bu barədə danışmaq hələ tezdir, ancaq biz Lənkəran Dövlət Universitetini xarici ölkələrin ali təhsil müəssisələri ilə rəqabət gücünə malik bir təhsil ocağına çevirməyi qarşımıza məqsəd qoymuşuq. Macarıstanla sıx əlaqələr qurmuşuq. Həmin ölkənin universitetlərindən biri ilə qarşılıqlı gediş-gəlişimiz var, tələbə mübadiləsi həyata keçiririk. Tələbələrimizi həvəslə gözləyirlər.**

- Aşağı kurslarda oxuyan tələbələr vəziyyətdən razıdır. Ancaq IV və V kurs tələbələri arasında vəziyyətdən narazılar var. Başqa cür qiymət almağa alışdıqlarından şəffaflıq və obyektivlik ürəyincə olmayanlar var. Ancaq hətta narazılar belə, indiki universitetin fərqini anlayırlar. Bir neçə tələbəmiz başqa universitetlərə köçürülmüşdü, bəziləri yenidən qayıtdı. Siz təsəvvür edin ki, Bərdədən tələbəmiz oxuyur, halbuki Bərdədə evinin yanında universitet var. Yaxınlığındakı ali məktəbləri qoyub Lənkəran Dövlət Universitetində təhsil almağa üstünlük verənlər çoxdur. Düşünürəm ki, belə gənclərin sayı növbəti tədris illərində daha da artacaq.

*- Söhbət cəmi 25 illik tarixi olan universitetdən gedir, ancaq 100 yaşı olan ali təhsil müəssisələri ilə rəqabətə hazırsınız?*

- Bunun üçün əlimizdən gələni edirik. Bəlkə bu barədə danışmaq hələ tezdir, ancaq biz Lənkəran Dövlət Universitetini xarici ölkələrin ali təhsil müəssisələri ilə rəqabət gücünə malik bir təhsil ocağına çevirməyi qarşımıza məqsəd qoymuşuq. Macarıstanla sıx əlaqələr qurmuşuq. Həmin ölkənin universitetlərindən biri ilə qarşılıqlı gediş-gəlişimiz var, tələbə mübadiləsi həyata keçiririk. Tələbələrimizi həvəslə gözləyirlər. Bizdən 10, hətta 15 tələbə qəbul etməyə hazırdırlar. Ancaq bəzən bu cür imkanları dəyərləndirə bilmirik. Tələbələrin xaricə gedə bilməsində yeganə əngəl onların xarici dil bilməməsidir. Bu əngəli aradan qaldırmaq üçün tələbələrimizlə əlbir olmuşuq. Bəziləri kurslara gedir, bəziləri üçün isə özümüz dil kursları təşkil edirik. "ERASMUS" mübadilə proqramının verdiyi imkanlardan istifadə etməyə çalışırıq. Artıq bu imkanlardan yararlanan 5 tələbə və 2 müəllimimiz olub. "Mövlanə", yaxud "ERASMUS" kimi mübadilə proqramları ilə tələbələrimiz xarici universitetlərdə olub. Ancaq biz istəyirik ki, birbaşa müqavilə ilə xarici universitetlərə tələbə göndərək. Müqavilələrimiz artıq var. Tələbələrimizin hazır olmasını gözləyirik.

*- Müqavilələriniz hansı ölkə və universitetlərlədir?*

- Hazırda Lənkəran Dövlət Universiteti 50-yə yaxın universitet, institut və təşkilatla əməkdaşlıq edir. Təhsil və elm sahəsində imzalanan ikitərəfli əməkdaşlıq müqavilələrinin çoxu 2017-2018-ci illərə aiddir. Məsələn, Macarıstanın Kaposvar Universiteti ilə bu il imzalanan müqavilə tərəflərin üzərinə elmi nəşrlərin mübadiləsi, elmi məlumat və yeniliklərin - birgə konfrans, simpozium və seminarlar çərçivəsində təşkili və keçirilməsi, aqrar ixtisaslar üzrə tələbə-müəllim heyətinin mübadiləsi, magistr və doktorant-dissertantlara birgə elmi rəhbərlik kimi vəzifələr qoyub. Polşanın Rzesov və Bıdqoş İqtisadiyyat universitetləri, Türkiyədəki Amasya, Beykent, İstanbul Kültür, Sinop, Çukurova, Kavkas (Kars) universitetləri, Üsküdar və Avrasiya universitetləri ilə müqavilələrə görə qarşımızda böyük yol dayanıb. Elmi-tədqiqat xarakterli beynəlxalq konfranslarda iştirak edəcək, elmi nəşrlərin çap edilməsi, müvafiq ixtisaslar üzrə tələbə-müəllim mübadiləsi həyata keçirəcək, ortaq tədqiqat layihələrini birgə işləyəcəyik. Amasya Universiteti ilə əməkdaşlıqdan elm və tədqiqat sahəsində birgə fəaliyyət, tələbə-müəllim mübadiləsi, seminarlar və akademik görüşlərdə iştirak nəzərdə tutulub. Beykent Universitetilə müqavilədə tələbələrin, akademik, elmi və inzibati heyətin mübadiləsi, elm və tədqiqat sahəsində əməkdaşlıq, qarşılıqlı maraq doğuran digər təhsil, elmi və akademik əməkdaşlıq, nəşrlərin, elmi məlumatların mübadiləsi nəzərdə tutulub. İstanbul Kültür Universiteti akademik, təhsil və elm sahələrində əməkdaşlıq, tələbə-müəllim mübadiləsi, elmi nəşrlərin, elmi məlumatların mübadiləsi, Sinop Universiteti ilə elmi, akademik sahələrdə əlaqələrin gücləndirilməsi üçün müəllim-tələbə-tədqiqatçıların mübadiləsi, ortaq konfrans, seminarlar, görüşlərin, ortaq yay məktəbinin təşkili nəzərdə tutulub. Ötən il Kavkas (Kars) Universiteti ilə bağlanan müqaviləyə əsasən, nəinki bütün səviyyələrdə akademik heyət və tələbə mübadiləsinin aparılması, həmçinin birgə idman fəaliyyətinin və elmi görüşlərin təşkili planlaşdırılıb. İstənilən sahədə tədqiqat aparmaq, layihələr yazıb həyata keçirmək, elmi işlər üzərində birgə işləmək hər iki universitetin həyatında canlanmaya səbəb olacaq. Üsküdar Universiteti ilə ortaq tədqiqat işlərinin həyata keçirilməsi, fakültə əməkdaşlarının və tədqiqatçıların mübadiləsi, ikili diplom proqramlarının hazırlanması və həyata keçirilməsi, Avrasiya Universiteti ilə tələbə mobilliyi, akademik əməkdaşlıq, birgə layihələrin işlənməsi, birgə simpoziumların, konfransların təşkili və keçirilməsi ötən ilin uğurlarından sayılır. Rusiya və Polşa universitetləri ilə əməkdaşlıqların əsasını qoymaq baxımından da bizim üçün uğurlu olub. Bıdqoş İqtisadiyyat Universiteti ilə birgə elmi tədqiqatların aparılması, tələbə mübadiləsi, ortaq layihələrin işlənməsi, dərc olunmuş materialların mübadiləsi məqsədilə sövdələşmişik. Rusiyanın Ural Dövlət Aqrar Universiteti ilə birgə elmi konfrans və seminarların keçirilməsi, materialların, proqramların, nəşrlərin mübadiləsi, qarşılıqlı maraq doğuran layihələrin işlənməsi razılaşdırılıb. Başqırdıstan Dövlət Aqrar Universiteti, Puşin Dövlət Təbii Elmlər İnstitutu, Samara Dövlət İqtisad Universiteti ilə birgə elmi konfrans və seminarların keçirilməsi, materialların, proqramların, nəşrlərin mübadiləsi, elmi tədqiqatın inkişafı, tədris-təlim və ictimai-mədəni əməkdaşlıq, yeni texnologiya və üsullar üzrə təcrübə mübadiləsi, elmi kadrların hazırlanmasında qarşılıqlı köməkləşmə, gənc alimlərin, tədqiqatçıların, müəllim-tələbə heyətinin mübadiləsi buradakı hər kəsin uğurudur. Rusiyada elm və təhsil proqramlarının birgə işlənməsi və həyata keçirilməsi, innovativ yeniliklərin birgə işlənməsi, professor-müəllim heyətinin, magistrant, doktorant, dissertantların mübadiləsi və elmi məqalələrinin impakt faktorlu jurnallarda birgə nəşri, Belarus Dövlət Aqrar Texniki Universiteti ilə yüksək ixtisaslı və təcrübəli kadrların hazırlanması, elmi nəşrlər və materialların mübadiləsi, texnika və texnologiya sahəsində təcrübə mübadiləsi məsələlərində razılığa gəlinib. "ERASMUS +" üzrə Türkiyənin Qazi Universiteti, Üsküdar Universiteti və İğdır Universiteti, "Mövlanə" mübadilə proqramı çərçivəsində Adıyaman, Batman, Çukurova, Yalova, Munzur, Kafkas (Kars) universitetləri, həmçinin İğdır, Kocaeli, Artvin-Çoruh, Kastamonu, Sakarya, Sinop, Qazi universitetləri ilə müqavilələr imzalanıb. Bulent Ecevit Zonguldak Universiteti ilə 2017-ci ildə bağlanan əməkdaşlığın da ömrü uzun olacaq.

*- Ölkəmizdəki ali məktəblərlə əlaqələriniz necə qurulub?*

- Onlarla da müqavilələrimiz var. Məsələn, Bakı Dövlət Universiteti ilə elm və təhsil sahəsində əməkdaşlıq haqqında müqavilə, Bakı Mühəndislik Universiteti ilə elmi-texniki əməkdaşlıq protokolu, Bakı Avrasiya və Azərbaycan Dövlət Neft və Sənaye universitetləri ilə akademik elmi əməkdaşlıq protokolu imzalamışıq. Xəzər Universiteti ilə "Erasmus" mübadilə proqramı çərçivəsində əməkdaşlığa başlamışıq. Bundan başqa, Azərbaycan Dövlət İqtisad Universiteti ilə tələbə-müəllim mübadiləsi, Azərbaycan Dövlət Pedaqoji Universiteti ilə birgə mütəxəssis hazırlığı nəzərdə tutulub. Sadəcə, universitetlərlə də əməkdaşlıq etmirik, müxtəlif qurumlarla fərqli məsələlərdə razılaşmalarımız var. Məsələn, keyfiyyətli mütəxəssis hazırlığı haqqında Azərbaycan Milli Elmlər Akademiyası Torpaqşünaslıq və Aqrokimya İnstitutu, mütəxəssis hazırlığı, elmi-tədqiqat haqqında Azərbaycan Milli Elmlər Akademiyasının Folklor İnstitutu ilə əməkdaşlıqlara imza atmışıq. Azərbaycan Milli Elmlər Akademiyasının Lənkəran Regional Elmi Mərkəzi, Azərbaycan Milli Elmlər Akademiyasının Mikrobiologiya İnstitutu, "Standard İnsuarence" sığorta şirkəti ilə qarşılıqlı əməkdaşlıq əlaqədar razılaşmışıq. "Azercell Telecom" MMC ilə elmi-texniki və tədris sahəsində təcrübə mübadiləsi aparacağıq. "Maarifçi" Tələbə Kredit Fondu ilə təhsil sahəsində əməkdaşlıq müqaviləsi, Azərbaycan Respublikası Auditorlar Palatası ilə kadr hazırlığı, elmi-tədqiqat işləri ilə bağlı əməkdaşlıq sazişi bağlanıb.

### LDU-nu qazanan üçün keyfiyyətli təhsil, bitirən üçün isə iş əlçatandır

*- Təhsil haqqı və onun ödənişi qaydaları universitetinizi əlçatan edir, yoxsa əksinə?*

- Təhsil haqqının ödənilməsində tələbələrimizi sıxışdırmırıq. Birinci kurslar da daxil olmaqla, tələbələrimizə hissə-hissə ödəniş üçün imkan yaratmışıq. Birinci kurslar təhsil haqqının yarısını ödəmək imkanına malikdir. Onların heç birini təhsil haqqına görə qapıdan qaytarmırıq. İllik ödənişin yarısını ödəyən hər tələbəyə təhsil almaq üçün şərait yaradılıb. Hesab edirəm ki, bu, daha ədalətlidir. Bəlkə tələbə ikinci semestrdən təhsilini başqa yerdə davam etdirəcək. Ona görə də təhsil haqqı məsələsində hər hansı şərt qoymuruq.

*- Yerdəyişənlər çox olur?*

- 2018-2019-cu tədris ilindən 18 nəfər LDU-ya transfer olunaraq bizdə təhsil almağa başlayıb. Onlardan 4 nəfəri ötən semestrlərdə gedənlər idi, geri qayıtdılar. Eyni zamanda təxminən 30 tələbə bizdən başqa ali məktəblərə transfer olunub.

*- Bəs, məzunlarınız? Onları müraciət etdikləri iş yerlərindən geri qaytarmırlar ki?*

- Əksinə, məzunlarımız bu il ali məktəbi bitirən kimi iş tapdılar. Laboratoriyalarda hazırlanan kadrlar iş yerində çətinlik çəkmir və kadrlarımızın hazırlıq səviyyəsi işverənin tələblərinə cavab verir. Təhsilin keyfiyyətinin artması məzunlarımıza olan tələbatı da artırıb. Mənə verilən məlumata görə, məzunlarımızın əksəriyyəti müsahibə mərhələsini uğurla başa vuraraq, müəssisə və təşkilatlarda asanlıqla işə qəbul olunurlar. Lənkəranda 2 dəfə məzun yarmarkası keçirilib. Birinci dəfə yüzdən çox, ikinci dəfə iki yüzdən çox tələbəmiz iş yeri tapıb. Hətta çay fabriki tələbəmizi hələ məzun olmadan işlə təmin edib. Bu, kadr hazırlığında keyfiyyətə nail olduğumuzu göstərir.

# Həyatının uğur salnaməsini yazan gənclər

⇦ Əvvəli səh.1

**Oruc MUSTAFAYEV**

## 2019-cu il Gənclər üçün Prezident mükafatçıları



Masər Həsənov



Hüseynxan Hacızadə



Nigar Mirzəmmədova



Allahverdi Şahverənov



Mustafa Mehmandarov



Sara Rəcəbli

2017-ci ildə Azərbaycan Respublikası Kinematoqrafçılar İttifaqının təsis etdiyi Rasim Ocaqov adına təqaüdə layiq görülüb. Aktiv yaradıcı fəaliyyəti ilə seçilən, bir çox sənədli və bədii filmlərin, sosial çarxların müəllifi olan gənc “Bakı Oskar Festivalı-1”də “Ən yaxşı ssenari”, “Bakı Oskar Festivalı-2” də isə “Ən yaxşı sənədli film” nominasiyaları üzrə qalib olub. “Deja vu” filmi Türkiyə, Rusiya və Rumıniyada keçirilən beynəlxalq festivallarda iştirak edib. Bu film, eyni zamanda Azərbaycanda keçirilən beynəlxalq “START” film festivalında “jürinin rəğbəti” nominasiyası üzrə mükafata layiq görülüb. Gənc rejissorun çəkdiyi “Sevgi naminə” qısametrajlı bədii filmi ilə “9th Independent International Internet Short Film Festival”da iştirak edib və birinci dərəcəli laureat seçilib.

- Mən qürur duyuram ki, cənab Prezident məni Gənclər üçün Prezident mükafatına layiq görub. Mənə olan inamı doğruldacağam. Sevincimin hədd-hüdudu yoxdur. Mükafata layiq olduğumu biləndə çox həyəcanlı idim. Sevincimi ilk olaraq evdə anamla, bacımla və həyat yoldaşımla bölüşdüm. Təltif olunma günü, görəndə ki, cənab Prezident yaxınlaşıb mənə diplomu təqdim edir, həyəcanım daha da artdı. Mən çox şanslıyam ki, həmin gün cənab Prezidentlə və Mehriban xanımla görüşdüm. Onlarla fəxr edirəm.

### “Biz gənclərə göstərdiyi diqqətə görə Prezident İlham Əliyevə dərin minnətdarlığımı bildirirəm”

*Hüseynxan Hacızadə, Gələcəyə Körpü” Gənclər Birliyinin icraçı direktoru:* - 1994-cü ilin mart ayının 2-də anadan olub. 2012-ci ildə Gəncə şəhəri 24 nömrəli tam orta məktəbi bitirib. Həmin ildə 598 balla (universitet 2-cisi) Azərbaycan Dövlət Aqrar Universitetinin “Maliyyə” ixtisasına qəbul olub. 2013-cü ildən gənclərlə iş sahəsində yerli və beynəlxalq səviyyəli layihələrdə fəaliyyətə başlayıb. 2014-cü ildən etibarən Avropa Komissiyasının Erasmus+ Gənclər Proqramı çərçivəsində Ukrayna, Türkiyə, Gürcüstan, Polşa, Xorvatiya, Serbiya, Niderland Krallığı və s. ölkələrdə layihələrdə Azərbaycanı yüksək səviyyədə təmsil edib.

Avropa Komissiyasının Erasmus+ proqramının EVS (Avropa Könüllülük Xidməti) çərçivəsində “Gələcəyə Körpü” GİB-də EVS koordinator olaraq 2015-ci ildən 15 nəfərdən çox yerli gəncin Avropanın müxtəlif ölkələrində təcrübə keçməsi, o cümlədən könüllülük etməsi və 15 nəfərdən çox əcnəbi gəncin (Almaniya, Türkiyə və Polşadan olan) Gəncə şəhərində yerli gənclər üçün dil dərsləri, şəxsi və peşəkar inkişaf etmələri üçün müxtəlif növ fəaliyyətlər (seminarlar, görüşlər, təqdimatlar və s.) həyata keçirməsini təmin edib.

2017-ci ilin iyun ayından Azərbaycanda ilk dəfə olaraq Avropa Komissiyasının Erasmus+ proqramının rəsmi Məlumat Mərkəzinin yaradılması və icra olunması təşəbbüsünə qoşulub. Mərkəzin koordinatoru olaraq regionlarda yerli gənclərin proqramın imkanlarından yararlanması istiqamətində görüşlər həyata keçirib. İndiyədək bu istiqamətdə Bakı, Şəki, Mingəçevir və Gəncə şəhərlərində, Samux, Astara, Tovuz, Qazax, Bərdə, Şəmkir və Göygöl rayonlarında gənclərlə maarifləndirici görüşlər təşkil edib. Gənclərin şəxsi və peşəkar inkişafı, ətraf mühit və ekologiya, vətənpərvərlik, təhsil, məşğulluq, Avropada gənclər proqramlarında iştirak və s. mövzularında layihələrdə çalışır.

2016-cı ildə 2 fevral - Gənclər Günü ilə əlaqədar Gəncə Şəhər İcra Hakimiyyəti tərəfindən “İlin fəal gənci” nominasiyasına layiq görülüb. 2016-cı ilin oktyabrından “Gələcəyə Körpü” Gənclər Birliyinin icraçı direktoru vəzifəsində çalışır.

- Gənclər sahəsində ilkin fəaliyyətimə Gəncə şəhərində “Gələcəyə Körpü” GİB-də könüllülük edərək başlamışam. Həm sağlam ətraf, fərqli və innovativ düşüncəli gənclər, ideyalar, fərqliliklər, əylləncə və həm də ən əsası yeni təcrübələr əldə etmək baxımından bu təşkilat həyatımda misilsiz rol oynayıb.

Mənə verilən bu mükafat “ictimai fəallığımı motivasiya edən və daha çox fəal olub işlər görməyimə dəstək olacaq ən böyük dəyərdir” deyərdim. Verilən mükafata və göstərdiyi diqqətə görə cənab Prezident İlham Əliyevə həm şəxsən, həm də Birliyimiz adından dərin minnətdarlığımı bildirirəm.

### “Sevincimi heç bir sözlə ifadə edə bilmərəm”

*Nigar Mirzəmmədova, Naxçıvan MR Şahbuz rayonu A.Hüseynov adına Ağbulaq kənd tam orta məktəbinin ingilis dili müəllimi:* - 1 may 1996-cı il tarixində Naxçıvan MR Babək rayonu Babək qəsəbəsində anadan olub. 2013-cü ildə Vəli Mahmudov adına orta məktəbi bitirib. Həmin ildə 585 balla Naxçıvan Dövlət Universitetinin Beynəlxalq münasibətlər və xarici dillər fakültəsinin “İngilis dili müəllimliyi” ixtisasının əyani şöbəsinə qəbul olunub. Universitet illəri ərzində bir sıra beynəlxalq tədbirlərdə iştirak edib. 2013-cü il 21 dekabr tarixində Naxçıvan Tələbə Gənclər Təşkilatı tərəfindən təşkil olunan bilik müsabiqəsində iştirak edərək sertifikat əldə edib. 2017-ci ildə universitetin bakalavr pilləsini fərqlənmə diplomu ilə bitirib. Daha sonra Şahbuz rayonu A.Hüseynov adına Ağbulaq kənd tam orta məktəbində ingilis dili müəllimi vəzifəsinə təyinat alıb. Hazırda həmin məktəbdə ixtisası üzrə çalışır.

- Bu gün muxtar respublikada gənclərin maariflənməsi üçün yorulmadan çalışan müəllimlərin əməyinin qiymətləndirilməsi, onların hərtərəfli qayğı ilə əhatə olunması diqqət mərkəzindədir. Ölkəmizin inkişafında öz fəaliyyəti ilə fərqlənən, Vətəninə və xalqına xidmətdə nümunə göstərənlərin əməyinə dövlətimiz tərəfindən daim yüksək qiymət verilir. Bu günlərdə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin müvafiq sərəncamı ilə bir qrup şəxs Gənclər üçün Prezident mükafatına layiq görüldü. Təltif edilənlər arasında mənim də adımın olması sevincini heç bir sözlə ifadə edə bilmərəm. Bu, mənim həyatımdakı ən böyük uğur, nailiyyətdir. Əməyimə göstərilən bu qayğı və diqqət, verilən bu dəyər məndə böyük ruh yüksəkliyi yaratdı, məni gələcəkdə daha məhsuldar fəaliyyət göstərməyə sövq etdi. Bundan sonra da hərtərəfli biliyə malik gənclərin yetişməsi üçün səylə çalışacağam, öz ölkəmə, xalqıma layiqincə xidmət edəcəyəm. Əmin edirəm ki, göstərilən bu etimadı doğruldacaq, əməyimə verilən bu yüksək qiymətə əməli işimlə cavab verəcək, fəaliyyət göstərdiyim A.Hüseynov adına Ağbulaq kənd tam orta təhsil ocağında əsl vətənpərvər, dövlətini, xalqını, torpağını sevən savadlı, intellektli gəncliyin yetişməsində savadımı, bacarığımı və var qüvvəmi əsirgəməyəcəyəm.

### “Bu yüksək etimad gənc tədqiqatçılarımız üçün böyük bir stimuldur”

*Allahverdi Şahverənov, AMEA Genetik Ehtiyatlar İnstitutunun İnsan genetikası laboratoriyasının müdiri, tibb üzrə fəlsəfə doktoru:* - 1990-cı il yanvarın 28-də Sumqayıt şəhərində anadan olub. 1996-2007-ci illərdə Sumqayıt şəhərində tam orta məktəbdə təhsil alıb. 2007-ci ildə Azərbaycan Tibb Universitetinin (ATU) Müalicə-işi fakültəsinə daxil olub. 2012-ci ilin iyul və avqust aylarında Almaniyanın Heidelberq Universiteti Böyrək Mərkəzinin yay tibb məktəbində təcrübə keçib. 2012-ci ilin oktyabrında Almaniyanın Manheim Tətbiqi Elmlər Universitetində biotexnologiya seminarında iştirak edib. 2013-cü ildə ATU-nun Müalicə işi fakültəsindən məzun olub. Universiteti bitirdikdən sonra 2013-cü ilin sentyabrından hökumətlərarası müqavilə çərçivəsində dövlət xətti ilə Çinin Huazhong Elm və Texnologiya Universitetinin tibb üzrə doktorantura səviyyəsinə daxil olub. 2016-cı ildə dissertasiya işini müdafiə edərək, tibb üzrə fəlsəfə doktoru elmi dərəcəsi alıb. 2017-2018-ci illərdə Çinin Şencen Cənubi Elm və Texnologiya Universitetində postdoktorantura təhsili alıb. Azərbaycan, alman, ingilis, rus, Çin və türk dillərini bilir.

- Azərbaycan Respublikasının Prezidenti möhtərəm İlham Əliyev cənablarına elmi fəaliyyətimə yüksək qiymət verərək məni Gənclər üçün Prezident mükafatına layiq gördüyü üçün dərin minnətdarlığımı bildirirəm. Prezidentimizə gənc alimlərə göstərilən xüsusi diqqətə və qayğıya görə təşəkkür edirəm. Hesab edirəm ki, ölkəmizdə alimlərə göstərilən bu yüksək etimad gənc tədqiqatçılarımız üçün böyük bir stimuldur.

### “Yaradıcılıq bioqrafiyam üçün çox qiymətli mükafat”

*Mustafa Mehmandarov, Üzeyir Hacıbəyli adına Azərbaycan Dövlət Simfonik Orkestrinin dirijoru:* - 1992-ci ildə Bakı şəhərində anadan olub. 2009-2013-cü illərdə Üzeyir Hacıbəyli adına Bakı Musiqi Akademiyasında skripka aləti üzrə təhsil alıb. Skripkaçı kimi Bolqarıstan, Lüksemburq, İtaliya və Avstriyada keçirilən bir sıra beynəlxalq müsabiqələrin laureatıdır. Dirijorluq üzrə ilk dərslərini, tanınmış dirijor, xalq artisti, professor Rauf Abdullayevdən alıb. 2013-2018-ci illərdə Vyana Konservatoriyasında tanınmış dirijor, professor Maksimilian Çençiçin sinfində “Opera-simfonik dirijorluğu” fakültəsində təhsil alıb. “Xəzər virtuozları” orkestrinin təsisçisi, bədii rəhbəri və baş dirijoru, TÜRKSOY Kamera Orkestrinin qonaq-dirijoru və Üzeyir Hacıbəyli adına Azərbaycan Dövlət Simfonik Orkestrinin dirijorudur. ABŞ, Birləşmiş Krallıq, Avstriya, Almaniya, Fransa, İtaliya və s. ölkələrdə konsert proqramları ilə çıxış edib. Onun repertuarına Avropa, rus və Azərbaycan bəstəkarlarının əsərləri daxildir.

- Prezidentin sərəncamı ilə gənclərin yüksək mükafata layiq görülməsi məndə yüksək təəssürat yaradıb. Əlbəttə ki, bir gənc olaraq Prezident mükafatına layiq görüldüyümə görə çox sevindim! Ümumiyyətlə, yaradıcı insanlara verilən qiyməti çox dəyərləndirirəm. Gənclər üçün Prezident mükafatı mənim yaradıcılıq bioqrafiyam üçün çox önəmli və qiymətli mükafat oldu!

### “Azərbaycanımız üçün əlimdən gələni edəcəyəm”

*Sara Rəcəbli, Sosial Biznes Gənclər Mərkəzinin təsisçisi, “One Young World” şirkətinin Azərbaycanda elçisi, sosial sahibkar:* - 1996-cı ildə Sumqayıt şəhərində anadan olub. 2013-cü ildə Azərbaycan Turizm İnstitutunun turizm və otelçilik ixtisasına daxil olub. 2014-2015-ci illərdə DAAD Fondunun təqaüdünü qazanaraq Almaniyanın Yade Universitetində turizmin iqtisadiyyatı üzrə təhsil alıb. 2015-2018-ci illərdə turizm, sosial sahibkarlıq, sosial haqlar, gənclər siyasəti mövzuları üzrə DAAD, Erasmus +, Avropa Komissiyası, Avropa Şurası, “Yunus & Youth”, Azərbaycan Gənclər Fondu, Azərbaycan Respublikası Gənclər və İdman Nazirliyi, Tatarıstan Respublikası Gənclər və İdman Nazirliyinin təqaüdlərini qazanaraq Azərbaycanı Türkiyə, Rusiya, Mərakeş, İsveç, Polşa, Fransa, Belçika, Niderland Krallığı və s. ölkələrdə təmsil edib.

2017-ci ildə Azərbaycan Turizm və Menecment Universitetini bitirərək “BUTA Art & Sweets” sosial biznesini yaradıb. Bundan əlavə, “Baku Business Factory” mərkəzində rezidentlik qazanıb, “Yunus & Youth” Sosial Sahibkarlıq Fellowship proqramına Azərbaycandan ilk sosial biznes layihəsi kimi seçilərək böyük uğurlara imza atıb. “Yunus & Youth” Sosial Sahibkarlıq Fellowship proqramının ən məsuliyyətli iştirakçısı kimi Niderland Krallığının Haaqa şəhərində keçirilən “One Young World” zirvəsində iştirak üçün tam təqaüd qazanıb. Müxtəlif görüş və tədbirlərlə xüsusi ehtiyacı olan xanımlar haqqında “əlillik” stereotiplərin sındırılması üzrə çalışıb.

“BUTA Art & Sweets” Azərbaycandan seçilən ilk sosial biznes layihəsi kimi 2018-ci ildə Cenevrədə keçirilən UNCTAD Gənclər Forumunda iştirak hüququnu qazanaraq BMT-də Azərbaycanda olan sosial sahibkarlığı təmsil edib.

2018-ci ilin mayında Sosial Biznes Gənclər Mərkəzi yaradıb. Mərkəzin əsas məqsədi sosial sahibkarlığı gənclər arasında maarifləndirmək, təbliğ etmək və gələcəkdə sosial bizneslərə lazımi dəstək göstərməkdir. 7 ay ərzində 3 ölkədə təmsil olunaraq və 11 təşkilatla əməkdaşlıq quraraq sosial sahibkarlıq mövzusuna aid gənclər üçün təmənnasız tədbirlər həyata keçirib.

- Gənclər üçün Prezident mükafatına layiq görülməyim haqqında məlumat alanda, çox təəccübləndim. Əslində bu, mənim üçün gözlənilməz oldu. Bu, mənim həyatımda aldığım ən ali mükafatdır. Mənə göstərilən bu etimada görə cənab Prezidentə təşəkkür edirəm. Bundan sonra da Azərbaycanımız üçün əlimdən gələn hər şeyi edəcəyəm. Yüksək mükafat aldığıma görə mənə inanan və dəstək olan hər kəsə təşəkkür edirəm.

# Universitetlərdə nəticəli elmi fəaliyyətin keyfiyyətinin yüksəldilməsinə strateji baxış



**Əvəz ƏLƏKBƏROV,**
*Azərbaycan Dövlət İqtisad Universitetinin "Maliyyə və maliyyə institutları" kafedrasının müdiri, iqtisad elmləri doktoru, professor, Əməkdar müəllim*

Fəlsəfi anlamda elm hər bir cəmiyyətin üstqurum elementidir. Mahiyyət etibarilə bazis münasibətlərindən asılı olan bu element, eyni zamanda, nisbi müstəqildir və nəticə etibarilə siyasət, əxlaq və din kimi cəmiyyətin bazisinə fundamental təsir gücünə malikdir. Klassik iqtisadi nəzəriyyədə deyildiyi kimi, "ayrı-ayrı iqtisadi dövrlərin fərqi onda deyil ki, nə istehsal olunur, məhz bundadır ki, necə istehsal olunur, hansı əmək alətləri ilə istehsal olunur". Təcrübə əsasında tamamlanmış biliklər olmadan nə əmək alətlərini təkmilləşdirmək, nə də istehsalın keyfiyyətli necəliyini təmin etmək olar.

Deməli, keyfiyyətli və səmərəli nəticə verən elmi fəaliyyət olmadan hər hansı bir toplumun strateji tərəqqisi ciddi basqı altına düşə bilər. Buna imkan verilməməsi üçün elmi fəaliyyətin bütün istiqamətləri cəmiyyətin diqqət mərkəzində saxlanılmalıdır.

İnkişaf etmiş müasir dünyada elmi fəaliyyət əsasən iki istiqamətdə: elmi-tədqiqat institutlarında və universitetlərdə reallaşdırılır. İstiqamətindən asılı olmayaraq əgər elmi fəaliyyət düzgün və səmərəli təşkil edilirsə, onda bu fəaliyyətə yönəldilmiş maliyyə kapitalı, tsiklin sonunda, müxtəlif iqtisadi məkanlarda 1:3-ə, 1:5-ə nisbətində yeni maddi dəyər yaratmış olur.

Dünyanın əksər dövlətlərində olduğu kimi Azərbaycanda da elmin maliyyələşdirilməsinin əsas mənbəyi dövlət vəsaitləri hesab olunur. Funksional istiqamətlərə uyğun olaraq 2019-cu il dövlət büdcəsinin xərcləri içərisində elmə çəkiləcək xərcləri aşağıdakı cədvəldə görmək olar *(bax cədvəl 1.)*.

Göründüyü kimi, 2019-cu ildə elmə çəkiləcək xərclər ümumi büdcə xərclərində nəzərəçarpacaq dərəcədə olacaq. Bu, 2017-ci ilin müvafiq göstəricilərindən 29,5 faiz, 2018-ci il proqnozundan isə 11,0 faiz çox olacaq. Elmə çəkilən xərclərin maiyyələşdirmə tempi bundan sonra da diqqət mərkəzində saxlanılacaq.

Qərbin inkişaf etmiş ölkələrində də bu sahəyə vəsait yönəldilməsi xüsusi prioritet kəsb edir. ABŞ, Çin, Almaniya kimi ölkələrdə də bu işdə böyük irəliləyişlərə nail olunub. İqtisadi potensial baxımından böyük olmayan Estoniya, Sloveniya, Slovakiya və başqa bu kimi Avropa Birliyi ölkələrində də innovasiya layihələrinə, elmi-tədqiqat hazırlıqlarına milyonlarla avro vəsait xərclənməkdədir.

Azərbaycan Respublikası Prezidenti cənab İlham Əliyevin rəhbərliyi altında iqtisadi artım strategiyası YDM-nin, dövlət büdcəsinin gəlir və xərclərinin, əhalinin real pul gəlirinin artırılması yolunda nəhənq işlər görülür və daha böyük nəticələr əldə ediləcək. Bu isə o deməkdir ki, elm və təhsilə dövlət dəstəyinin dayanıqlı olmasına münbit şərait yaradılacaq.

Deməli, məhsuldar qüvvələrin sürətli inkişafı üçün elmə xüsusi diqqət verilməsi tarixi vacib məsələlərdən hesab olunmalıdır. Bu baxımdan istər elmi-tədqiqat institutları və universitetlər səviyyəsində, istərsə də sənaye klasterləri və startaplar miqyasında elmi tədqiqatlara bütün maliyyələşmə mənbələri vasitəsilə dəstək verilməlidir.

Bəllidir ki, çağdaş dünyamızda cəmiyyətin aparıcı qüvvələrindən biri də universitetlər hesab olunur. Müasir tələblərə və çağırışlara cavab verən universitetlər həmin cəmiyyətlərdə bir növ lokomotivlərə çevrilir və dövrünün ictimai, siyasi, iqtisadi təşkilati və mənəvi tərəqqisinin mənbəyi kimi çıxış edirlər.

Dünyanın hər yerində universitetlər 2 fundamental əsas üzərində fəaliyyət göstərir: tədris və elm. Elmi araşdırmaları zəif olan universitetlərin tədrisi də, təhsili də güclü ola bilməz. Bu baxımdan bu məsələnin elmi müstəvidə öyrənməsi özü-özlüyündə artıq çox böyük əhəmiyyət və aktuallıq kəsb edir. Tədqiq etdiyimiz bu məsələdə diqqətverici məqamlardan biri də bundan ibarətdir ki, universitetlərdəki elmin inkişafı ilə elmi-tədqiqat institutlarındakı elmin inkişafı anlayışlarını bir-birindən fərqləndirməyi bacarmalıyıq. Belə ki, birincinin özəlliyi, məhz elmi bilikləri anditoriyalara dərhal daşımaqdan ibarət olduğu üçün o, tədrisin keyfiyyətinin yüksəldilməsində, yeni biliklərin kütləviləşdirilməsində müstəsna əhəmiyyət daşıyır.

Bu baxımdan kafedralardakı elmin qayğısına qalmaq, onu metodiki, təşkilati-iqtisadi və informasiya baxımından möhkəmləndirmək, - hər bir universitetdə prioritet istiqamətlərdən hesab edilməlidir. Digər tərəfdən, kafedralardakı elmi inkişafı dəstəkləmək, elə mahiyyət etibarilə, ixtisasın keyfiyyətinin artırılması, onun müasir dövrün tələblərinə uyğun təkmilləşdirilməsi demək olardı.

Tam qətiyyətlə demək olar ki, məhz kafedralardakı elmi-tədqiqatların dərinləşdirilməsi son nəticədə ixtisas biliklərinin dərinləşməsinə və keyfiyyətli ixtisaslı kadrların hazırlanmasına şərait yarada bilər. Dünya təcrübəsi alternativ yola sahib deyil. Deməli, kafedradakı elmi işin dəstəklənməsi prosesi universitetlərdəki elmi fəaliyyəti nizamlayan bütün qurumlar tərəfindən diqqət mərkəzində saxlanılmalı və ona dəstək verilməlidir.

Bir məsələyə xüsusi aydınlıq gətirərək toxunmaq istərdim. Avropanın və ABŞ-ın bir sıra qabaqcıl universitetlərinin alimləri aspirantura, indiki dildə desək, doktorantura proqramlarına əsaslı şəkildə yenidən baxılmasını, bəziləri isə nə qədər paradoksal səslənsə də, mövcud şərtlər daxilində, ümumiyyətlə, ləğv edilməsini təklif edirlər.

Məncə, radikal islahatlar doktorluq tədqiqatlarının həm təşkilati, həm də mahiyyət tərəflərini bir kompleks şəklində əhatə etməlidir. Xüsusilə də tədqiqatların mahiyyət tərəfi belə bir sadə həqiqəti dərk etməyimizi tələb edir ki, əgər elmi-tədqiqat işinin praktiki tətbiqi mümkün deyilsə və o, konkret praktiki nəticəyə söykənmirsə, onda onun cəmiyyət üçün faydalılığı böyük sual doğurmaya bilməz.

Bəzən Qərb alimləri elmi tədqiqatların həddən artıq ixtisaslaşdırılmasının əleyhinə çıxır, mövzuların bir növ xırdalanmasını, onun praktiki nəticələr baxımından səmərəsizliyini vurğulayırlar. Həqiqətən real təcrübə artıq çoxdan sübut edib ki, elmi tədqiqatlardan hasil edilən real iqtisad səmərə, əsasən ixtisaslararası, fənlərarası layihələrin icrası nəticəsində əldə edilə bilər.

**"Elm müstəqil Azərbaycanın dövlət siyasətinin prioritet sahələrindəndir. Alimlərimizin yüz illər boyu dəyərini itirməyən əsərləri bəşəriyyətin intellektual inkişafına xidmətin parlaq nümunəsidir"**

**İlham ƏLİYEV**

Lakin bu, eyni zamanda, zəruri ixtisaslaşmanı və onun daha da rasional dərinləşdirilməsini inkar etmir. Ən sadə şəkildə ifadə etmiş olsaq, bu, o deməkdir ki, institusional əsasları formalaşmış hər bir iqtisadi kateqoriya - bir ixtisas, hər ixtisas isə ayrıca bir kafedra ehtiva edir və etməlidir.

Fikrimcə, XXI əsrdə universitetlərdə doktorantura pilləsində elmi-tədqiqatların inkişafı vektoru məhz göstərdiyimiz 2 istiqamət üzrə, yəni bir tərəfdən ixtisasın dərinləşdirilməsi, digər tərəfdən isə fənlərarası, ixtisaslararası layihələrin kombinləşməsi yolu ilə aparılmalıdır. Son nəticədə doktorantura təhsili kafedral elmi-tədqiqatları stimullaşdırmalı və bu fəaliyyəti ən səmərəli şəkildə tənzimləməlidir. Çünki mahiyyət etibarilə yaradıcı insan əməyi olan elmi fəaliyyət heç bir bürokratik təsirlərlə hüdudlana və müəyyən çərçivələrə salına bilməz. Əksinə, reqlamentləşdirmədən kənar tam sərbəstlik, məsuliyyət və səmimi mühit elmi yaradıcılığı mənalı, həvəsli və dəyərli edə bilər.

Etiraf edək ki, universitetlərin bəzi strukturlarında elmi fəaliyyətlə bağlı qəbul edilən qərarlar peşəkar kargüzarlıq səviyyəsindən o tərəfə keçmir, elmi fəaliyyəti asanlaşdırmaq əvəzinə, onun yolunda mənasız sədlərə çevrilir. Nəticədə daha təhlükəli bir tendensiya - real işi stimullaşdırmayan, yaradıcılıqdan uzaq, onun ancaq imitasiyasını yaradan bir atmosfer formalaşır. Belə mühitdə yazılan və müdafiə edilən dissertasiya tədqiqatları isə heç kimə lazım olmur.

Bu baxımdan yaxın perspektivdə elmi fəaliyyətin yaradıcı mühitinin daha da yaxşılaşdırılması üçün kafedraların səlahiyyətlərinin və məsuliyyətinin artırılması işi davam etdirilməli, onların elmi potensialına arxalanmalı, idarəetmə strukturları ilə bir-birinin işinə mane olmaq deyil, əksinə, işbirliyinə söykənən tərəfdaşlıq etibarının möhkəmləndirilməsindən ibarət olmalıdır.

Universitetlərdə elmi fəaliyyətin təşkili işində hər şey istisnasız olaraq "əsas istehsal" prosesinə tabe edilməlidir. Ali məktəblərdə "əsas istehsalı"n məhz tədris və elmi fəaliyyət olduğunu, bunun mənbəyinin isə öz növbəsində məhz kafedralarla bağlılığını nəzərə alsaq, onda toxunduğumuz məsələnin aktuallığı bir daha aydın görünmüş olar. Dünyamızda daim gedən inkişaf prosesləri elm və bürokratiyanı bir-birindən istisna etməyə məhkumdur. Tarixi gerçəklik də bunu böyük alman kansleri Otto Bismarkın "Ölkəni inkişaf etdirib irəli aparan elm və təhsildir" kəlamında bir daha sübut edib.

Vurğulamaq istədiyim budur ki, universitet idarəetmə qurumları ixtisas kafedralarının fəaliyyətinə maksimum əlverişli mühit yaratmalı, onun səmərəliliyinin yüksəldilməsinə imkan verən təşkilati tədbirlər icra etməli, bürokratik kargüzarlıqdan uzaq olmalı və nəticə etibarilə, yaradıcı qurumlar kimi "əsas istehsal" prosesinə məhz xidmət etməlidirlər. Universitetlərin perspektiv inkişafı bu fundamental prinsipi nəzərə almadan mümkün deyil.

Ali məktəblərdə yaradıcı tədris və elmi mühitin formalaşmasında Azərbaycan Respublikası Prezidentinin 16 noyabr 2018-ci il tarixli Sərəncamı ilə təsdiq etdiyi "2019-2023-cü illər üçün Azərbaycan Respublikasında ali təhsil sisteminin beynəlxalq rəqabətliliyinin artırılması üzrə Dövlət Proqramı"nın da mühüm rolu şübhəsizdir. Bu baxımdan hər bir universitetdə tədris və elmi fəaliyyətin rəqabətliliyinin yüksəldilməsi üçün yaxın perspektivdə çox ciddi addımlar atılması məqsədəuyğun hesab edilməlidir.

**2019-cu il dövlət büdcəsində elm üzrə proqnozlaşdırılan xərclər (min manatla)**

| İllər/ xərclər | 2017 (icra) | 2018 (proqnoz) | 2019 (proqnoz) | 2019-cu il proqnozunun 2018-ci il proqnozu ilə müqayisəsi | | 2019-cu il proqnozunun 2017-ci il ilə müqayisəsi | |
|---|---|---|---|---|---|---|---|
| | | | | Fərq (+;-) | Faiz (+;- ) | Fərq (+;- ) | Faiz (+;- ) |
| Ümumi xərclər | 17594,5 | 23100,0 | 25190,0 | 2090,0 | 9,0 | 7595,5 | 43,2 |
| Elm üzrə xərclər | 109,8 | 128,1 | 142,2 | 14,1 | 11,0 | 32,4 | 29,5 |

# Uğur üçün yaşayanlar



**Sənan NƏCƏFOV**

Bu yazılar, Mömin Sökmenin dediyi kimi, çox insana deyil, doğru insana danışmaq, hər kəsə, hər kəsimə deyil, uğur üçün yaşayanlara yazmaq, yüksəlmək üçün dünyaya gələnlərə göstərmək üçündür. Bu gün və ya bir gün bunun nə olduğunu, onun tam mahiyyətini, içindəkiləri mütləq anlayacaqlar.

Höte yüksək fikirlərini anlatdığı bir kitabı yazarkən deyirdi: "Bilirəm, dünya mənə, dənizdən minlərcə mil uzaqdakı dağın təpəsində, ixtiyari bir gəmi ixtira etmişəm kimi baxır. Amma zaman gələcək sular yüksələcək, mənim gəmim üzəcək və onu düzəldəni insan zəkasının heç çatmadığı bir yerə aparacaq".

Tarix boyunca Çindən Qrinviçə, Barentsdən İynə burnuna qədər böyük coğrafi ərazidə "uçmağı bacaran ilk insan" olmaq üçün yüzlərlə, minlərlə macəra axtaran bəxtini sınayıb. Uğur taktikaları demək olar ki, fərqlənmirdi: quşları uğur örnəyi qəbul edir, qollara taxma qanad keçirilir və çox yüksək nöqtədən aşağı tullanırdılar. Praktik düşünməyə söykənən bu təcrübə əksər vaxt ya ölümlə, ya da qazanılmış əlilliklə bitirdi. Uçmağın nəzəri əsasları ilə maraqlanmadıqları üçün bu mövzunu araşdırmaq məqsədilə masa arxasında işləməyi boşuna itirilmiş vaxt sayırdılar. Onları maraqlandıran suallar sadə idi: uçmağa səbəb olan qanaddır, tüklərdir, yoxsa tüklü qanadın bədənə birləşməsi? Axı, dəvəquşunun qanadları və tükləri var, amma uça bilmir. Yarasanın qanadları var, tükləri yoxdur, uça bilir. Uçan sincabların qanadları, tükləri yoxdur, o da uça bilir. Bu qarışıq təcrübələr və nəzəriyyələr uçmaq arzusunda olan macəra axtaranların düşüncəsini alt-üst edirdi.

**Yəni heç səhv etməmiş insan heç danışmayan, hərəkət etməyən, alıb-verməyən insandır. Hərəkət varsa, yanlışlıq da olacaq. Təkrarlanan uğursuzluqlar uğur yolundakı mayak kimidir. Əgər itirməkdən narahatsınızsa, sınamaya bilərsiniz. Deməli, sınamırsınızsa, bacarmazsınız. İtirəcək bir şeyiniz də olmaz. Sınamaq hər şeyin əvvəlidir.**

Məhz elə o ərəfədə holland-isveçrə kökənli riyaziyyatçı Daniel Bernoulli "Hidrodinamika" kitabını yazır. Bu kitabda Bernouli, uçmağı deyil, uçduqdan sonra havada qala bilməyin sirlərini izah edirdi. Beləliklə, hazırda istifadə etdiyimiz modern uçuş texnologiyalarının təməli quş müşahidəçilərinin deyil, tutarlı riyazi formulları ilə ortaya iş qoyan dəqiq elmin nəticəsidir.

Uğur qapısına fərqli yönlərdən quraşdırılmış nərdivanlar qoyulub. Özünə inamı olmayanlar nərdivanların qarşısındakı ilk pilləyə ayaq qoymağa belə çəkinir, səhv yolla gedəcəklərindən qorxurlar. Orta təbəqə uğur nərdivanı ilə daha sürətlə necə qalxacağı üstündə baş sındırır. Oyun qurucuları isə üzərində hər kəsin qalxa biləcəyi bir uğur nərdivanı düzəldərlər. Bunlar həmin nərdivanı ən sürətlə qalxanlar deyil, sahibləridirlər. Niyə nərdivanla dırmaşmaq üçün növbəyə durursunuz? Özün yeni bir nərdivan inşa etsən, necə olar? Elə isə düşünün, başqa insanları da yüksəldəcək bir uğur platformasını necə yarada bilərsiniz?

Qədim romalılara görə, insan həyatını şəkilləndirən iki zər var. İlk zər doğuşdan atılır, ikincisi isə insanın mübarizəsi, təhsili və özünü inkişaf etdirməsinə görə şəkillənir. Mömin Sökmen isə daha bir zər əlavə edir. Onun nəzəriyyəsinə görə, 3 zərdən ilki doğuşdan atılıb, ikinci zər nəzarətimizdədir, ətrafımızla, daxil olduğumuz qarşılıqlı təsirlə formalaşır, üçüncü zər isə haradasa tam nəzarətimizdədir. Bura iradə, mübarizlik, əzm, hərəkət, intizam daxildir. Taleyimiz və karyeramız bu üç zərin toplamı əsasında qurulur. Bəs, insanın uğur imkanlarını nə bəlli edir?

Türk motivatorun fikirlərinə görə, insanın uğur formulu 3 şeydən formalaşır: 1)doğuşdan gələn, 2)sonradan inkişaf etdirilən 3)uğur imkanlarını istifadə etmə bacarığı. Yəni, ilk bacarıq anadagəlmədir, ikinci təhsil, təlim və ətraf mühitlə qazanılır, üçüncü isə özünü inkişaf etdirməklə, yeni şeylər öyrənməklə, öyrəndiklərini gündəlik həyatında tətbiq etməklə.

Bütün bu qeyd etdiklərimiz heç də o anlama gəlməsin ki, bu işartıları olmayanlar uğursuz, bacarıqsızlardılar. Bunun əksini sübut edə bilərik. Ümumiyyətlə, uğursuzluq varmı? Əslində, uğursuzluğu müvəfəqqiyyətsizlik kimi beynimizə hopdurmuşuq. Uğursuzluğu həyatın bir parçası hesab edən motivatorlar, fərdi inkişaf ustaları var. Hətta inkişafımız üçün uğursuzluğa ehtiyacımızın olduğunu deyənlər də tapılır. Burada önəmli olan uğursuzluqdan uğur üçün nə öyrəndiyimizi müəyyənləşdirmək, ayağa qalxıb, mücadilə etməkdir. Bütün tarixi şəxsiyyətlər, elm adamları, dünyaya ilkləri gətirənlər uğursuzluqla tanış olublar, onun acı suyunu içiblər. Guya biz rastlaşmamışıq? İməkləmədən sonra ilk addımı atarkən nə qədər yıxılmışıq? Uğursuzluq deyil? Tələbə olana qədər imtahan veririk, kəsilənlər olur, bu uğursuzluqdur? Hər yarışmanın, matçın bir qazananı, bir məğlubu var. Bu, həyat prinsipidir.

Bütün uğurlu insanların həyatlarında uğursuzluq olub. İnsanlıq tarixinə hədsiz çox dəyər vermiş şəxsiyyətlərin həyatlarını oxuyanda adamı həyəcan bürüyür. Bunlardamı? Bəli!

Maykl Cordan - adını NBA-nın gəlmiş-keçmiş ən yaxşı oyunçusu siyahısında ilkə yazdırmış birisi xərçəngə qalib gəlib. Buna qədər isə o, liseydə oxuduğu zaman basketbol komandasından bacarıqsızlığına görə qovulub, bu səbəbdən basketbolu da atıb. Dünyaca məşhur siyasətçi Çörçil orta məktəbdə oxuyarkən sinifdə qalıb. Henri Ford 40 yaşı olanda 5 dolları belə yox idi, ilk maşını satıb şirkətini iflasdan qorumağa çalışmış, 5 dəfə müflis olmuşdu. ABŞ prezidenti olmuş Abraham Linkolnun həyatı uğursuzluq kitabıdır. Əlini nəyə atıbsa, yandırıb. Çarlz Dikkens yüzlərlə qapıdan "səndən yazıçı olmaz" arqumenti ilə qovulub. Bethovenin ilk müəllimi "bunda musiqi duyumu yoxdur", - demişdi.

Yəni heç səhv etməmiş insan heç danışmayan, hərəkət etməyən, alıb-verməyən insandır. Hərəkət varsa, yanlışlıq da olacaq. Təkrarlanan uğursuzluqlar uğur yolundakı mayak kimidir. Əgər itirməkdən narahatsınızsa, sınamaya bilərsiniz. Demək, sınamırsınızsa, bacarmazsınız. İtirəcək bir şeyiniz də olmaz. Sınamaq hər şeyin əvvəlidir. Sınamırsınızsa, uğursuzluğu qəbul edirsiniz. Uğursuzluq dediyimiz şey bir insanı tutursa, ən asan, ən məntiqli olan imtina etmək görünür, elə deyilmi? Çox insanın etdiyi səhv də budur. Uğur bəlkə də insana nəsə öyrətməz, amma uğursuzluq mütləq öyrədir.

Müvəffəqiyyət üçün yaşamaq şərtlərin və insanların tətbiq etməsi deyil, öz xarakterlərinin və qərarlarının nəticələrini yaşamaq deməkdir. Anadan olduğumuz yeri biz deyil, taleyimiz seçər, yaşayacağımız yeri karyeramız. Uşaq vaxtındakı şərtləri taleyimiz seçər, ahıllıq dövründəkiləri karyeramız.

Elə isə qayıdaq söhbətimizin əvvəlinə və özünüz üçün bu suallara cavab tapmağa çalışın. Daniel Bernoulli "Hidrodinamika" kitabında uçmağı deyil, uçduqdan sonra havada qala bilməyin sirlərini bəlli edirdi. Siz necə, uğur qazanıb, onu əldə saxlamağın yollarını bilirsiniz? Yoxsa, quş müşahidəçiləri kimi yüksək bir yerə çıxıb, taxma qanadlarla uçmağı sınaqdan çıxarırsınız?

# Texnologiyadan dərs nümunəsi

## Şagirdlər yaradıcı yanaşmaya yönləndirilərək bilik, bacarıq və vərdişləri möhkəmləndirilir




**Gülsüm İBRAHİMOVA,**
*Bakı şəhər 147 nömrəli texniki-humanitar liseyin texnologiya və və təsviri incəsənət müəllimi*

*Fənn:* Texnologiya (xidmət əməyi)

*Mövzu:* Tərəvəzlərdən hazırlanan yeməklər və onların insan orqanizminə faydaları

*Standartlar:* 1.3.1,1.3.2.

*Dərsin məqsədi:* şagirdləri yaradıcı yanaşmaya yönəldərək bilik, bacarıq və vərdişlərin möhkəmləndirilməsi və inkişaf etdirilməsi.

*İnteqrasiya:* rəsm, riyaziyyat, biologiya, kimya, ədəbiyyat, tarix və b.

*Resurslar:* əyani vəsaitlər, tərəvəzlər, tərtibatlar üçün müxtəlif vasitələr, videomateriallar.

*Təlim metodları:* “beyin həmləsi”, müşahidə, müzakirə.

*İş forması:* qruplarla iş.

*Dərsin tipi:* bilik, bacarıq və vərdişlərin kompleks halda tətbiq edilməsi.

*Dərsin mərhələləri və vaxt bölgüsü:*

Sinfin təşkili - 3 dəq.
Motivasiya - 5 dəq.
Tədqiqatın təşkili və aparılması - 15 dəq.
Təqdimat - 12 dəq.
Müzakirə - 10 dəq.
Qiymətləndirmə - 5 dəq.

*Dərsin gedişi:*

1. Salamlaşma
2. Davamiyyətin yoxlanması

*Motivasiya:*

“Beyin həmləsi” fəal təlim metodundan istifadə edərək mövzu haqqında tam təsəvvür yaratmaq üçün:

1. Tərəvəzlər haqqında tapmacalar nümayiş etdirilir.
2. Masanın üzərinə müxtəlif tərəvəz nümunələri yerləşdirilir. Bu da mövzunun açılmasına bir işarədir.

*Tədqiqatın təşkili və aparılması:*

1. Sagirdlər qruplara bölünürlər. Qruplar öz liderini seçirlər.
2. Qrupların adları müəyyənləşdirilir.
3. Görəcəkləri işi yerinə yetirmək üçün lazımi ləvazimatları masanın üzərinə yığıb, iş bölgüsü aparırlar.
4. Salatların hazırlanma texnologiyası və ardıcıllığı müəyyənləşdirilir.
5. Qrupların marağını dərsə cəlb etdikdən sonra dərsin maraqlı keçməsi, dinləyicilərin yorulmamasını təmin etmək üçün “Texnologiya” ilə musiqini inteqrasiya edərək xalqımızı zəhmətə, əməyə səsləyən, vətənpərvərlik ruhunu artıran musiqilərdən istifadə edilir.
6. Qruplar qazandıqları bilgilər əsasında işə başlayırlar.

*I qrup - Nanə*

Nanədən hansı yeməklərdə istifadə olunur?

Nanədən hazırlanan çayın orqanizmimizə faydaları.

*II qrup - “Cəfəri”*

Cəfəridən hazırlanan yeməklər və onların insan orqanizminə faydaları.

Cəfəridən hazırlanan çayın faydaları.

*III qrup - “Şüyüd”*

Şüyüddən hazırlanan yeməklər.

Şüyüd suyu nə üçün istifadə olunur ?

*IV qrup - “Reyhan”*

Reyhandan istifadə olunan yeməklər.

Reyhan kompotu necə hazırlanır?

*Təqdimat:*

1. Hazırlanan tərəvəzlər haqqında maraqlı məlumatlar, onlardan hazırlanan yeməklər liderlər tərəfindən tək-tək təqdim edilir.
2. Liderlərin şərhləri dinlənilir.
3. Qrup üzvlərinin əlavələri dinlənilir.
4. Təqdimat zamanı çıxış edən və bütün dinləyicilər diqqətdə saxlanılmaqla şərh və dinləmə prosesi müəllim tərəfindən izlənilir.
5. Fikir tamlığı əldə etmək və qaranlıq məqamları aydınlaşdırmaq üçün yönəldici suallar verilir.

*Müzakirə:*

1. Müzakirələr hər təqdimatın davamı olaraq aparılır və təfəkkürün müxtəlif növlərini (məntiqi, tənqidi və yaradıcı) səfərbər edir.
2. Müzakirələrdə qrupların gördüyü işlər təhlil olunur. Müsbət və mənfi cəhətlər qeyd edilir.
3. Yönəldici və köməkçi suallardan istifadə edilərək əldə edilmiş nailiyyətlərin məqsədyönlü müzakirəsinə kömək göstərilir.
4. Müzakirələr tədqiqat sualının cavabının hiss edilməsi ilə nəticələnir.
5. Müzakirələrin nəticələrinə əsaslanaraq qiymətləndirmə aparılır.

*Qiymətləndirmə və refleksiya:*

1. Qiymətləndirmə müzakirələrin nəticələrinə əsasən aparılmaqla nailiyyətlərin təkmilləşdirilməsinə xidmət edir.
2. Əvvəlcə özünüqiymətləndirmə aparılır. Qruplar və onların üzvləri öz qüsurlarını və nailiyyətlərini aşkar edir, daha uğurlu nəticələrin qazanılmasında nələrin mane olduğunu və nələrin köməklik etdiyi müəyyənləşdirilir.
3. Sonra qruplararası qiymətləndirmə aparılır. Qrup və ya onun üzvləri tərəfindən digər qrupların işləri dəyərləndirilir.
4. Qiymətləndirmənin yekunlaşdırılması və fərqlənən qrupun mükafatlandırılması.
5. Qiymətləndirmə şifahi və xüsusi hazırlanmış anket formasında yazılı aparılır.

| Qrupun №-si | Tərəvəzlərin növləri və faydalarının sadalanması | Tərəvəzlərin saxlanma qaydalarının sadalanması | Tərəvəzlərin ilkin emalının mərhələlərinin sadalanması | Salatların hazırlanma ardıcıllığını və tərtibatını bacarma | Təhlükəsizlik, sanitar-gigiyena qaydaları və əməkdaşlıq | Ümumi bal |
|---|---|---|---|---|---|---|
| I | 4 | 5 | 5 | 5 | 5 | 24 |
| II | 5 | 5 | 4 | 4 | 5 | 23 |
| III | 5 | 5 | 5 | 4 | 5 | 24 |
| IV | 5 | 5 | 5 | 5 | 5 | 25 |

*Resurslar:*

1. 2016-2017-ci dərs ilinə aid Kurikulum əsasında tədris proqram
2. X.Qədimova. İnteraktiv təlim metodları və onların tətbiqi yolları (metodik tövsiyə), Bakı, 2003.
3. Z.Əliyeva. Yeni pedaqoji təfəkkürün inkişafı: müəllim fəaliyyətinin əsas istiqamətləri (metodik vəsait).
4. Z.Veysova. Fəal (interaktiv) təlim:müəllimlər üçün vəsait, UNİCEFF, Bakı, 2007.
5. Tərəvəzlərin, təsviri olan plakatlar, dərslik, iş vərəqləri

# “Kompasito” dərs icmalları




### Dovşanın hüquqları

*Bizim xoşbəxt, təhlükəsiz və sağlam həyat hüququmuz var!*

*Fəslin mövzusu:* Ümumi insan hüquqları.

*Çətinlik dərəcəsi:* I dərəcə.

*Yaş həddi:* 8 - 10 yaş.

*Tələb olunan vaxt:* 30 dəqiqə.

*İştirakçı sayı:* 5 - 20 uşaq.

*Oyunun növü:* Təxəyyül, beyin həmləsi, müzakirə.

*Xülasə:*

Uşaqlar ev dovşanına zəruri olan qayğını təsəvvür edirlər və öz təsəvvürlərini uşaqların ehtiyaclarına, onların yaşamaq və inkişaf etmək hüquqları sahəsinə köçürürlər.

*Vəzifələr:*

* Uşaq Hüquqları Konvensiyası ilə tanış etmək.
* İnsan hüquqları ilə şüuraltı səviyyəsində tanış olduqlarını uşaqlara göstərmək.
* İnsanın tələbatları ilə hüquqları arasında əlaqənin olduğunu izah etmək.

*Hazırlıq:*

* Uşaq Hüquqları Konvensiyasının surətini çıxarın və ya cədvəlini tərtib edin.

*Materiallar:*

* Flipçart vərəqləri və markerlər
* Uşaq Hüquqları Konvensiyasının surəti və ya cədvəli

*Təlimat:*

1. Uşaqlardan xahiş edin ki, evdə dovşan saxladıqlarını təsəvvür etsinlər və onu adlandırsınlar. Uşaqlar dovşanın xoşbəxt, sağlam və özünü təhlükəsiz hiss etməsi üçün ona lazım olan hər bir şey barədə düşünməlidir. Uşaqlardan soruşun: “Dovşana nə lazımdır?” Onlar qəfəs, saman, qida, su, qaçmaq, diqqət, sevgi, ola bilər və s. darıxmaq olmaq üçün başqa bir dovşanın lazım olduğunu söyləyə bilərlər. Aşağıda göstərilən qaydada cədvəlin sol sütununun birinci sətrində “Dovşan” (və ya ona qoyduğunuz adı) yazın və uşaqların cavablarını aşağı sətirlərdə qeyd edin.
2. Sual verin: “Dovşana lazım şeylərin hamısının olması üçün kim məsuliyyət daşıyır?”

Uşaqların cavablarını qeyd edin (uşaqların cavablarında “özümüz” və ya “dovşanın sahibi” ifadələrinin səslənməsi ehtimalı var).

3. Dovşana yaşamaq və inkişaf etmək üçün qida, su və qəfəsin olmasının zəruriliyini təsdiqləyin. Sonra belə suallar verin:
   a) Əgər yaşamaq üçün bunlar dovşana lazımdırsa, dovşanın onlara sahib olmaq hüququ olmalıdırmı?
   b) Dovşanın bu məsələlərlə əlaqədar hüquqlarının qorunmasına kim məsuliyyət daşıyır?
4. Cədvəlin sağ sütununun yuxarı sətrində “Uşaqlar” yazaraq beyin həmləsi keçirin.

“Xoşbəxt, təhlükəsiz, sağlam həyat və inkişaf üçün uşaqlara nə lazımdır?” Uşaqların dediklərini cədvəlin sağ sütununun aşağı sətirlərinə qeyd edin. “Ev”, “qida”, “su”, “ailə”, “dostlar”, “oyuncaqlar”, “təhsil”, “sevgi” və “diqqət” kimi cavabların səslənməsinə nail olmaq üçün uşaqların bütün fikirlərini qeyd edin.

5. Soruşun: “Uşaqların xoşbəxt, sağlam olması və özlərini təhlükəsiz hiss etmələri, onlara lazım olan bütün şeylərinin olması üçün məsuliyyəti kim daşıyır?” “Yaşlılar”, “valideynlər”, “ailə” və “himayə edən digərləri” kimi cavabların söylənməyini dəstəkləyin.
6. Uşaqların dünyagörüşünü artırmaq məqsədi ilə cədvələ digər tələbatları da əlavə edin.

*Bunun üçün növbəti sualları verin:*

a) Özlərini müdafiə olunmuş hiss etmələri, yaşamaları, fəaliyyət və inkişafı üçün uşaqlara nə lazımdır?
b) Əgər yuxarıda sadalananlar uşaqlara lazımdırsa, onda uşaqların onlara hüquqları olmalıdırmı?
c) Uşaqların bütün bu hüquqlarının olmasını təmin etmək üçün məsuliyyəti kim daşıyır?

7. Uşaqlardan nə vaxtsa Uşaq Hüquqları Konvensiyası haqqında eşidib-eşitmədiklərini soruşun. Onlara Konvensiyanın uşaqlar üçün tərtib olunmuş variantını paylayın və ya plakatda yazılmış mətndən istifadə edin. İzah edin ki, bu sənəddə dünyanın hər bir uşağına məxsus hüquqlar öz əksini tapıb.

*Təhlil və qiymətləndirmə:*

1. Cədvəldə qeyd edilmiş hüquqları Konvensiyada verilmiş hüquqlarla müqayisə etməyi uşaqlara təklif edin. Cədvəldə yazdıqları siyahının uşaq hüquqlarına aid olduğunu uşaqların diqqətinə çatdırın. Belə suallar verin:
   a) Sizin yazdığınız hansı tələbatlar eyni zamanda Uşaq Hüquqları Konvensiyasında da var? Onları cədvəldə ulduzla qeyd edin.
   b) Necə düşünürsünüz, necə oldu ki, siz bu qədər hüquq yaza bildiniz?
2. Vurğulayın ki, müəllim kömək etməmişdən əvvəl inkişaf və fəaliyyət üçün uşaqlara lazım olanları qrup artıq bilirdi. Uşaqlar öz həyatını digərlərdən yaxşı bilirlər! İzah edin ki, Uşaq Hüquqları Konvensiyası uşaqların hüquqlarını dəstəkləmək, müdafiə və təmin etmək, eyni zamanda onların həyatda fəal iştirakını təmin etmək üçün yaradılmışdır.

*Davam üçün təkliflər:*

* Bu oyun - uşaqların hüquqlarla tanışlığı üçün əla vasitədir. O, tələbatlar və hüquqlar arasında əlaqələr yaradır. Bu oyun hüquqları öyrənən digər oyunlar silsiləsinin (“Mənim kainatım”, “Mobil haqlıdır”) bir mərhələsidir.

*Aparıcıya tövsiyələr:*

* Bu oyun oxu vərdişləri tələb etmədiyindən onu balaca uşaqlarla da keçirmək olar. Lakin onları “hüquqlar” anlayışı ilə ən sadə formada tanış etmək lazımdır. Uşaq Hüquqları Konvensiyasını bir müddətdən sonra da təqdim etmək olar.
* Dovşanı digər ev heyvanı ilə əvəz edə bilərsiniz.
* Variantlar: Sizin qrupunuzun səviyyəsinə uyğundursa, oyunu Konvensiyanın ucadan oxunması ilə bitirmək olar (hər uşaq bir maddəni oxuyur).
* Böyük uşaqlara uyğunlaşdırma: Uşaqlarla tərtib olunmuş siyahını Konvensiyada verilmiş hüquqlarla müqayisə etdikdən sonra cədvəldə qeyd olunmamış hüquqları müzakirə edin. Bunun üçün aşağıdakı sualları verin:

a) Konvensiyada elə tələbat və hüquqlar varmı ki, sizin siyahıda qeyd olunmayıb?
b) Necə fikirləşirsiniz, nə üçün onlar Konvensiyada var?
c) Necə fikirləşirsiniz, siz nə üçün bu tələbatlar və hüquqlar haqqında düşünməli idiniz?

| Dovşan | Uşaqlar |
|---|---|
| | |





# Ticarət etmək üçün oxumaq

## Yaxud dünyanın ən yaxşı biznes məktəblərindən birində gələcək sahibkarlar necə hazırlanır

**Rüstəm QARAXANLI**

Gələcəyini biznesdə görən və biznesmen peşəsinə yiyələnmək istəyən gənclərin ticarət işi üzrə ali savad almalarına ehtiyac var, yoxsa bu, anadangəlmə intuisiya və fərasətdən asılı bacarıqdır? Tarix boyu dünya heç bir məktəb oxumamış minlərlə uğurlu tacirlərə şahidlik edib. İndinin özündə də təhsili boş vaxt itkisi sayan böyük kapitala sahib biznesmenlər var. Bir tərəfdən iri transmilli şirkətlərdə işçilərin işə götürülməsi zamanı diplomlardan imtina edilməsi tendensiyasını izləyirik. Qərbin böyük korporasiyaları bacarıqları diplomdan üstün tutmağa başlayıblar. Digər tərəfdən isə gəncləri biznes işinə öyrədən köklü universitetlər fəaliyyətlərini uğurla davam etdirirlər. Bir çox reytinqlərə görə ən yaxşı biznes təhsili verən ali məktəblərdən biri də ABŞ-ın Babson Kollecidir.

### Məqsədə nail olmaq üçün iradəyə malik şəxslərin məktəbi

Babson Kollecinin əsası 100 il əvvəl Massaçusetsdə Rocer Babson tərəfindən qoyulub. Ali məktəb Boston şəhərinə coğrafi yaxınlığa malikdir. Bu şəhər isə məlum olduğu kimi, ABŞ-ın iri biznes mərkəzlərindən biri hesab olunur. Babson Kolleci biznes təhsili ənənələrinə malik olan sayılıb seçilən ali məktəblər sırasında ən yaxşılardandır. Bir əsrdir ki, bu təhsil ocağı nəinki ənənələrini qoruyub saxlayır, Babson Kolleci eyni zamanda, bütün bəşəri yeniliklərə açıq ali məktəbdir. Təsadüfi deyil ki, hazırda qarşısında durduğu ən ciddi məsələ bir sıra peşələrin tədricən süni intellekt tərəfindən əvəzlənməsi ilə əlaqədar olaraq həm proqramın, həm də tədris metodlarının transformasiyasına nail olmaqdır.

Kollecin təqribən 3500 tələbəsi var. Onlar həm bakalavr, həm də magistr proqramları üzrə təhsil alırlar. Eyni zamanda, rəhbər heyət üçün xüsusi proqramlar da fəaliyyət göstərir. Tələbələr üçün təklif edilən magistr proqramlarında fənlərin tən yarısı humanitar istiqamətlidir. Ancaq 24 ixtisasdan 6-sı humanitar əsaslıdır.

“U.S. News and World Report” kimi nüfuzlu nəşr özünün “ABŞ-ın ən yaxşı biznes məktəbləri” araşdırmasında Babson Kollecini “Sahibkarlıq üzrə №1 biznes məktəb” elan edib. Düz 13 il! “Success” jurnalı isə kolleci 5 il ardıcıl olaraq “Sahibkarlar üçün ən yüksək səviyyəli təhsil ocağı” olaraq təqdim edib. “Ernst & Young”, “Highwired Network”, “International Data Corp.”, “A.T.Kearney”, “Deloitte & Touche”, “KPMG Peat Marwick”, “Polaroid”, “SAP America” kimi dünya çaplı korporasiyalar Babson Kollecinin əsas rekruterləridir. Kolleci bitirən şəxslərin işlədikləri yerlərdə illik maaş göstəriciləri 100 min dollarlıq həddən başlayır.

Kollecin innovativ bakalavr proqramı nüfuzlu “The Pew Charitable Trust” mükafatına malikdir. “Menecment və sahibkarlığın əsasları” kursu Amerikanın Kiçik biznes və sahibkarlıq Assosiasiyası tərəfindən sahibkarlıq sahəsində ən qabaqcıl proqram kimi qəbul olunur. Babson bakalavr biznes təhsilinə görə Teodor Hesberq mükafatına layiq görülüb. “Financial Times” və “BusinessWeek” Babsonun ixtisasartırma kurslarını dünyada ən yaxşılardan biri kimi qiymətləndirirlər.

Babson ailəsi özünün dənizlə bağlılığı ilə məşhur olub, nəsildən bir neçə gəmi kapitanı çıxıb. Bu səbəbdən universitetin gerbində də gəmi şəkli öz əksini tapır. R.Babson hesab edirdi ki, üzən gəmi öz yerini bilən və qarşısındakı məqsədə nail olmaq üçün kifayət qədər iradəyə malik şəxslərin simvoludur.

Ali məktəbə ilk olaraq 27 nəfər qəbul olunub və söz verilib ki, onlara uğurlu biznes karyerası qurmaları üçün lazım olan nə varsa, öyrədiləcək: şəxsi gigiyenadan tutmuş mühasibat uçotuna qədər. Düşünə bilərsiniz ki, şəxsi gigiyenanın tədris proqramına nə dəxli? Elə deyil. Babsonun niyyəti mükəmməl biznes adamlarını yetişdirmək olub, onun hərtərəfli inkişafı və dünyagörüşü, o cümlədən, şəxsi gigiyenası da diqqət mərkəzində olmalıdır. Tələbələr dress-koda və sənaye dövrünün iş saatına bərabər sərt dərs vaxtı rejiminə riayət edirdilər, hər biri biznes-mühitin imitasiyası məqsədilə köməkçilərə malik idilər.

**Ancaq sonradan hamı anlamağa başladı ki, həvəs və savad əldə etmək istəyinin mövcudluğu şəraitində hər bir şəxs biznes təhsili ala bilər. Maraqlıdır ki, bu qənaətin lokomotivlərindən biri də məhz elə Babson Kolleci oldu. Əvvəl Babson düşünürdü ki, bacarıqlar insanda doğulan andan mövcuddur, latent haldadır və onları inkişaf etdirmək lazımdır.**

Babson əmin idi ki, insanın xarakteri onun taleyini müəyyən edir və nəsildən-nəslə ötürülür. Bu səbəbdən o, ilk illərdə universitetə istisnasız olaraq iş adamlarının övladlarını qəbul edirdi. Tezis belə idi: İşgüzarlıq anadangəlmə qabiliyyətdir! Coan Roulinqin magiyalı dünyasındakı kimi - ya var, ya yoxdur. Ancaq sonradan hamı anlamağa başladı ki, həvəs və savad əldə etmək istəyinin mövcudluğu şəraitində hər bir şəxs biznes təhsili ala bilər. Maraqlıdır ki, bu qənaətin lokomotivlərindən biri də məhz elə Babson Kolleci oldu. Əvvəl Babson düşünürdü ki, bacarıqlar insanda doğulan andan mövcuddur, latent haldadır və onları inkişaf etdirmək lazımdır. Cəmi bir il sonra isə fikrini dəyişməli oldu və biznes peşəsinə yiyələnmək istəyən hər bir kəsi kollecə qəbul etməyə başladı. Dress-kod ləğv edildi, köməkçilər ixtisara düşdü. 4 illik sistem təyin edildi, kurslar modullara bölündü, tədris vaxtı fərdiləşdi. İşgüzarlıq konkret tapşırıq deyil, riski də nəzərə almaqla özünə istədiyin istiqamətdə cığır açma bacarığı kimi qəbul edilməyə başlandı.

### Pul qazanmaqdan da ali amallar var

Tədris planını şərti olaraq ETA (Entrepreneurial Thought and Action) formulu və “mədəni hazırlığ”ın vəhdəti hesab etmək olar. ETA qeyri-müəyyənlik şəraitində işgüzarlıq fəaliyyətini əks etdirən Babson metodologiyasıdır. Bakalavr mərhələsində dərslərin yarısı azad sənət kurslarına həsr olunur. Məsələn, “Şəhər bir test kimi”, yaxud “Qədim Yunan fəlsəfəsi”. Bu, tələbənin mədəni hazırlığını təmin edən dərslər blokudur. Hesab olunur ki, birincisi, azad sənətlər insanı cəmiyyətin elitasına yaxınlaşdırır, bir növ sizin vizit kartınızdır. Söhbət nədən gedir? Sizin mədəni hazırlığınız həmsöhbətinizlə ünsiyyətinizi daha möhkəm, davamlı və məzmunlu edir. Elə bu ünsiyyət müstəvisində də bizneslə bağlı problemləri həll edə bilirsiniz. Ən azı cəhd edirsiniz. İkincisi isə azad sənətlərdə, incəsənətdə insanın dünyagörüşünün formalaşması texnikası mövcuddur.

Digər dərslər bloku isə sırf biznes və sahibkarlıqla bağlı fənlərdən ibarətdir. Bunlardan ikisinə xüsusilə toxunaq. Məsələn, “Menecment və sahibkarlığın əsasları”. Bu kursu bir il müddətində şəxsi biznesin başlanılması və inkişaf etdirilməsi kimi də qələmə verə bilərik. Proses necə baş verir? Başlıca tezis budur: nəyisə məhz edərkən öyrənmək olar. Tələbələrə startap üçün 3000 dollar verilir. Onlar da bu vəsaiti bir işə yatırırlar, əldə edilən gəlir yerli sosial xidmətlərin hesablarına ianə edilir. Özü də “startap” deyilərkən mütləq halda hansısa nou-haudan söhbət getməməlidir. Əsas məqsəd gəlir əldə etməkdir. Məsələn, 2017-ci ildə tələbələr “Gold feet” adlı şirkət yaradıblar. Şirkət gül ətri verən corablar istehsal edib. Satışdan əldə edilən pullar isə Massaçusetsdəki evsizlərin hesabına köçürülüb. Kurs ərzində tələbələr real işin köməyi ilə biznes bacarıqlara yiyələnirlər. Paralel olaraq həm də bu tip ianə və yardımlarla digərlərinin həyatlarını necə dəyişə bilmək imkanları barədə məlumatlanırlar. Bu yanaşma R.Babsonun mənəviyyat fəlsəfəsindən qaynaqlanır. Babson düşünürdü ki, pul qazanmaq vacibdir, ancaq əsas məqsəd olmamalıdır. Çünki pul qazanmaqdan da ali və müqəddəs amallar var.

İkinci proqram isə “Liderliyə və komanda işinə hazırlıq” adlanır. Tələbələr müxtəlif keyslər üzərində işləyir, müəllimlər və iş adamları isə onların düşüncə tərzləri və qərar qəbuletmə bacarıqlarını izləyirlər. Sonra müəllim hər tələbə ilə ayrılıqda görüşüb söhbətləşir, iki həftə sonra isə hər kəsə məktub göndərilir. Məktubda buraxılan səhvlər və zəif nöqtələr barədə məlumat verilir. Vəssəlam. Heç bir qiymətləndirmə sistemi yoxdur.

### Təkrar edilməyəni və ehtimal olunmayanı kəşf etmək

Babson Kolleci Olin Kolleci ilə qonşuluq edir. Olində gələcəyin mühəndisləri hazırlanır. Babson və Olin “qonşu” olsalar da, onların tələbələrini dərhal fərqləndirmək mümkündür. Olinin gələcək mühəndislərini gözlərindən tanıya bilərsiniz - sakit, mülayim, haradasa xəyalpərəst görünüşlü. Babsonun yetirmələri isə əksinə, özündən arxayın, inamla addımlayan, sanki nəyi necə etməyi hamıdan yaxşı bilən.

Sahibkarlıq təhsili getdikcə bir normaya çevrilir və bu prosesdə Babson nəinki sonuncu rolu oynamır, kollec hətta ən yaxşı biznes savadı verən ali məktəblərdən biridir. “Bizim biznes təhsilinə baxışımız ənənəvidir: tələbəyə şəxsi işini qurmağa kömək et və bu, yetərlidir” - deyə kollecin beynəlxalq əlaqələr üzrə məsul nümayəndəsi Amir Reza söyləyir. Babsonun ETA sistemi bu prosesi tənzimləyir. ETA hər şeyə cavabdehdir - biznesin açılmasından bağlanmasınadək, “paslanmış” işin yenidən dirçəldilməsindən hətta romantik münasibətlərin qurulmasınadək. Kollecin fəlsəfəsi bütünlüklə sahibkarlıq ruhunun formalaşmasına xidmət edir.

20 il bundan əvvəl Babsonla London Biznes Məktəbi birlikdə “Global Entrepreneurship Monitor” (GEM) proqramına start veriblər. Proqramın əsas vəzifəsi sahibkarlığı araşdırmaqdır. GEM-in əldə etdiyi hər bir yenilik dərhal tədris proqramına daxil edilir. Olinlə müştərək yeni proqrama da start verilib. “Foundry”nın fəaliyyət sahəsi sahibkarlıqla mühəndisliyin “sərhəd”idir.

Yüz ildir Babson ənənələri qorumaqla yanaşı, həm də inkişaf edir və dəyişir. Mütəxəssislərin dediyinə görə, hazırda ABŞ-da biznes təhsili sanki bir böhran yaşayır. Şirkətlər əməkdaşlarının “upgrade”i üçün ya vəsait ayırmırlar, ya da bunu könülsüz edirlər. Statistika göstərir ki, magistraturaya daxil olmaq üçün tələb olunan GMAT-ı verən tələbələrin sayı getdikcə azalır. Bu tendensiya hətta məşhur Harvard Biznes Məktəbinə də şamil olunur. Belə bir reallıqda hamı, o cümlədən Babson da çıxış yolları arayır. Kollecdə MBA sabibkarlıq kursları onsuz da çox idi, getdikcə daha da artır. Babson rəhbərliyi hesab edir ki, daima eksperimentlər etməlisən, risk olmasa, inkişaf edə bilməyəcəksən. Boston Universitetinin prezidenti Cozef Aun özünün “Süni intellekt əsrində ali təhsil” (Robot-Proof: Higher Education in the Age of Artificial Intelligence) kitabında yazır ki, “nəyi ki, təkrarlamaq və ehtimal etmək olar, avtomatlaşdırılacaq”. Bu tezisdən çıxış edən Babson rəhbərliyi də hesab edir ki, kollecin amalı təkrar olunmayan və ehtimal edilməyəni kəşf edə biləcək tələbələri hazırlamaq olmalıdır.

## Ətraf mühitlə bağlı təlim

Fevralın 2-3-də Azərbaycan Dövlət Aqrar Universitetində Azərbaycan Respublikasının Prezidenti yanında Gənclər Fondunun maliyyə, ADAU və Gəncə Aqrobiznes Assosiasiyasının təşkilati dəstəyi ilə keçirilən “İllüstrasiya və fəaliyyətlər yolu ilə gənclərin ekoloji maarifləndirilməsi və ətraf mühitin qorunması istiqamətində onların bilik və bacarığının formalaşdırılması” layihəsi çərçivəsində “Ətraf mühitlə davranış və ekoloji problemlərin həllində antropogen təsir” mövzusunda ilk təlim keçirilib.

Redaksiyamıza daxil olan məlumata görə, layihə rəhbəri Cəfər Cəfərov təlimdən əvvəl çıxış edərək gənclərə göstərdiyi dəstəyə görə Gənclər Fonduna minnətdarlığını bildirib. O, layihənin əsas məqsəd və hədəflərindən söz açıb. Təlimin məhz Gənclər Günündə keçirilməsinin təsadüfi olmadığını diqqətə çatdırıb. Aqrobiznes və idarəetmə fakültəsinin dekanı Əlövsət Əsgərov belə layihələrin gənclər üçün önəmini vurğulayıb. O, təlimin gedişinə uğurlar arzu edib.

Sonra təlimçi Fərrux Rəhimovun təqdimatında müvafiq mövzuda ilk təlim keçirilib. Təlimin mövzusu iştirakçılar tərəfindən maraqla qarşılanıb. Təlimdə ümumilikdə 50 gəncdən ibarət kontingent formalaşdırılıb. Qarşılıqlı diskussiya şəklində keçən təlimdə ətraf mühitin əhəmiyyəti, insanların ona olan rəğbəti, ekoloji problemlərin həllində antropogen təsirlə bağlı maraqlı faktlar diqqətə çatdırılıb.

## “Ədəbiyyat biliciləri”

Ağstafada “Ədəbiyyat biliciləri” müsabiqəsinin rayon mərhələsinin qalibi müəyyən olub. Belə ki, texniki-humanitar təmayüllü liseyin 10-cu sinif şagirdi Nazənin Əlizadə rayon mərhələsinin qalibi seçilib.

Müsabiqə Azərbaycan və dünya ədəbiyyatının görkəmli nümayəndələrinin yaradıcılıqları haqqında şagirdlərin məlumatlılıq səviyyəsinin artırılması, mütaliəyə maraqlarının gücləndirilməsi məqsədi ilə keçirilib.

**Nəcibə VƏLİYEVA,**
*Ağstafa Rayon Təhsil Şöbəsinin ictimaiyyətlə əlaqələr üzrə məsul şəxsi*




# “Müəllim ədaləti hər şeydən üstün tutmalıdır”

*Səyid Əsədov:* “Şagirdlərimi əsl vətəndaş kimi yetişdirmək ən böyük amalımdır”



**Səyid Əsədov 1993-cü ildə Samux rayon Qovlarsarı kəndində anadan olub. Orta məktəbi bitirdikdən sonra 2011-ci ildə Azərbaycan Dövlət Pedaqoji Universitetinin Cəlilabad filialının tarix-coğrafiya fakültəsinə daxil olub. 2015-ci ildə universitet təhsilini başa vurduqdan sonra Təhsil Nazirliyi tərəfindən ümumi təhsil müəssisələrinə müəllimlərin işə qəbulu üzrə mərkəzləşdirilmiş qaydada keçirilən müsabiqədə 52 bal toplayaraq Şəkinin Aydınbulaq kənd tam orta məktəbinə tarix müəllimi təyin olunub.**

*- Səyid müəllim, necə oldu ki, müəllim olmağa qərar verdiniz?*

- Müəllim peşəsi ən şərəfli peşədır. Hər bir insanı gələcəyə hazırlayan müəllimdir. Mən daim bu peşənin sahibkarı olmaq istəmişəm. Təhsilimi bitirdikdən sonra müəllim olmaq istəyim digər peşələrdən öndə getdiyindən müəllim olmaq qərarına gəldim.

*- Aydınbulaq kənd tam orta məktəbini seçərkən məktəbi necə təsəvvür edirdiniz və işə başlayanda real olaraq hansı vəziyyətlə rastlaşdınız?*

- İlk olaraq təsəvvür edirdim ki, kənd məktəbi olduğu üçün məktəb binası köhnə olar, lakin məktəbi görəndən sonra fikrim dəyişdi. Məktəb binası tam təmirlidir, hər cür şəraitə malikdir. Rəhbərlik və kollektiv mənə olduqca yaxşı təəssürat bağışladı. İlk gündən məktəb rəhbəri mənə hər cür köməklik göstərdi.

*- Kənd məktəbində işləyirsiniz, pedaqoji fəaliyyətinizdən razısınızmı?*

- Artıq 5 aydır ki, ucqar dağ kəndində müəllim işləyirəm. Bu müddətdə çox gözəl müəllim kollektivi, yeni insanlar və bir-birindən gözəl, təhsil almağa həvəsli şagirdlərlə tanış olmuşam. Kəndin ucqarlığına baxmayaraq, hər gün sinfə daxil olarkən şagirdlərimin gülər üzü, təbəssümü məni daha da ruhlandırır. Onların uğuru mənim uğurumdur. Hər bir gənc müəllimə pedaqoji fəaliyyətinə kənd məktəbində başlamasını məsləhət görərdim. Düşünürəm ki, kənd məktəblərinin və təhsil almağa həvəsli şagirdlərin bizim kimi gənc müəllimlərə daha çox ehtiyacı var.

*- Dərsdənkənar vaxtlarda nə ilə məşğul olursunuz?*

- Dərsdən sonra yaşadığım evə gəlib, bir az istirahət edirəm. Amma səhəri gün şagirdlərimlə yenidən görüşəcəyimi bildiyim üçün istər internetdən, istərsə də kitablardan yeni informasiyalar əldə etməyə çalışıram. Özümə məxsus hobbilərimlə də məşğul olmaq mənim üçün önəmlidir...

*- Pedaqoji fəaliyyətinizdə hansı çətinliklərlə rastlaşırsınız?*

- Təbii ki, bütün peşələrin özünəməxsus çətinlikləri var. Əlbəttə ki, mənim üçün də kənd məktəbində işləmək asan deyil. Bunlardan nəqliyyat problemini, işlədiyim kənddə daimi yaşayış yerimin olmamasını və s. göstərmək olar. Lakin bunlar peşəmə olan həvəsimin kölgəsində qalan məsələlərdir. Tədrisin keyfiyyətini yüksəltmək, şagirdlərimi əsl vətəndaş kimi yetişdirmək mənim ən böyük amalımdır.

*- Siz necə düşünürsünüz, şagirdlərdə öz fənninizə qarşı maraq oyada bilmisinizmi?*

- Bunu söyləmək, məncə, hələ tezdir. Amma mən çox çalışıram bunun üçün...

*-Kənd məktəbində uzun müddət müəllim kimi çalışmaq fikriniz var, yoxsa necə?*

- Bunu zaman göstərəcək. Ancaq mənə yaradılan şərait, bütün lazımi avadanlıqlarla təchiz olunmuş məktəb binası, məndə müəllimlik sevgisini artıran şagirdlərim və bunların hamısı mənim üçün çox xoşdur. Elə bu kənddə də müəllimlik fəaliyyətimi davam etdirməyi çox istəyirəm. Çünki kollektivdə səmimilik, mehribanlıq çox önəmlidir və işlədiyim kollektivdə sadaladıqlarım çox yüksək səviyyədədir.

*- Sonda, müəllim olmaq istəyənlərə nə tövsiyə edərdiniz?*

- Müəllim savadlı olmalıdır, amma hər yüksək biliyə sahib olan müəllim olacaq demək deyil. Müəllim doğruluğu, ədaləti hər şeydən üstün tutmalı, müəllim qarşısındakına dəyər verməli, müəllim sevməyi və sevdirməyi bacarmalı, o, əsl şəxsiyyət olub məktəbdə, həyatda öz yolu ilə getməyi bacarmalıdır. Müəllimlik yolu çətindir. Bu yolu getmək istəyənlər əzmlə mübarizə aparmalı, bezmədən-tükənmədən addımlamalı, qarşılarındakı ilk maneədə geri çəkilməməli, fənnini sevdirməli və şagirdlərinə peşə sevgisi, şagird sevgisi aşılamalıdır.

**Mahal MƏMMƏDOV,**
*Şəki Şəhər Təhsil Şöbəsinin ictimaiyyətlə əlaqələr üzrə məsul şəxsi*

## “Məktəbimin yetişdirdiyi vətən oğlu”

Şabran məktəbliləri arasında keçirilən “Məktəbimin yetişdirdiyi vətən oğlu” inşa-yazı müsabiqəsinin nəticələri məlum olub.

Nəticələrə əsasən, Şabran rayon Gəndov kənd tam orta məktəbinin X sinif şagirdi Aytən Abdullayeva “Məktəbimin yetişdirdiyi vətən oğlu-Füzuli Salahov” inşası ilə I, şəhər R. Yusifov adına 2 nömrəli tam orta məktəb-liseyin XI sinif şagirdi Mələkxanım Babayeva “Məktəbimin yetişdirdiyi vətən oğlu-Raman Yusifov” inşası ilə II, C.Məmmədov adına Aygünlü kənd tam orta məktəbinin IX sinif şagirdi Gülarə Şərifova “Məktəbimin yetişdirdiyi vətən oğlu-Cəlal Məmmədov” inşası ilə III yerə layiq görülüb.

17 məktəbdən 35 şagirdin yazı işinin iştirak etdiyi müsabiqədə daha 5 yazı işi-şəhər S. Zülfüqarov adına 3 nömrəli tam orta məktəbin VIII sinif şagirdləri Pərvanə Əmirova, Əfsanə Hacıbalayeva, P. İdrisov adına Ağbaş kənd tam orta məktəbinin X sinif şagirdi Əsmər Məmmədova, Şahnəzərli kənd tam orta məktəbinin X sinif şagirdi Səma Qurbanova və Dəvəçikənd kənd tam orta məktəbinin X sinif şagirdi Gülnar Qəniyevanın inşaları fərqləndirilib.

Müsabiqənin keçirilməsində əsas məqsəd məktəblilərin təhsil aldıqları məktəblərin məzunu olmuş, Vətənin bütövlüyü, müstəqilliyi uğrunda canlarından keçmiş igid vətən oğullarının həyat və qəhrəmanlıqları barədə daha çox məlumat toplamalarına rəvac vermək, məktəblilərdə vətənpərvərlik duyğularını formalaşdırmaq, yazılı ifadə bacarıqlarını inkişaf etdirmək və istedadlı şagirdləri üzə çıxarmaqdan ibarət olub.

## Alimin 70 illik yubileyi qeyd olunub



Şabran rayonunda filologiya üzrə elmlər doktoru, professor Məmməd Əliyevin 70 illik yubileyi qeyd olunub. Xaqani Şirvani adına poeziya evində təşkil olunan yubiley tədbirində Şabran rayon rəhbərliyi, elm xadimləri, müəllimlər iştirak ediblər.

43 il ali məktəbdə müəllim, baş müəllim, dosent, professor kimi çalışan Məmməd Əliyevin çapdan çıxan elmi əsərlərinin ümumi sayı 70-dən çoxdur. Hazırda Azərbaycan Milli Elmlər Akademiyasının Nizami adına Ədəbiyyat İnstitutunda çalışan professor Əməkdar müəllim adına layiq görülüb.

Tədbirdə rayon icra hakimiyyətinin başçısı Novruz Novruzov çıxış edərək filologiya üzrə elmlər doktoru, professor Məmməd Əliyevin elmi fəaliyyəti, yaradıcılığı barədə danışıb. Bildirilib ki, M.Əliyev ədəbiyyat nəzəriyyəsinin əsasları, Azərbaycan şeirinin vəzn və evfoniya problemləri, şeir sənəti haqqında bir sıra elmi əsərlərin və dərs vəsaitlərinin müəllifidir.

Çıxışlarda dövlət müstəqilliyimizin bərpasından sonra Azərbaycanda elmin sürətlə inkişaf etdiyi, bu istiqamətdə böyük nailiyyətlərin qazanıldığı bildirilib.

Sonda yubilyara Şabran Rayon İcra Hakimiyyəti tərəfindən fəxri fərman və hədiyyələr təqdim olunub.

**Gülər HÜSEYNOVA,**
*Şabran Rayon Təhsil Şöbəsinin ictimaiyyətlə əlaqələr üzrə məsul şəxsi*

## “Narkomaniyaya qarşı mübarizə sağlam həyata təminatdır”

Narkotik vasitələrin və narkomanlığın qarşısının alınması istiqamətində təbliğat-təşviqat işlərini gücləndirmək məqsədi ilə Balakən Rayon Təhsil Şöbəsində “Narkomaniyaya qarşı mübarizə sağlam həyata təminatdır” mövzusunda “dəyirmi masa” keçirilib. Redaksiyamıza daxil olan məlumata görə, tədbirdə RTŞ-nin aparıcı məsləhətçiləri, metodistləri, məktəblərin sinifdənxaric və məktəbdənkənar işlər üzrə direktor müavinləri, psixoloqlar və uşaq birliklərinin rəhbərləri və başqaları iştirak ediblər.

RTŞ-nin aparıcı məsləhətçisi C.Alqayev, metodistlər R.Musayev, M.Əliyeva və Q.Daanova, Sarıbulaq kənd tam orta məktəbinin təşkilatçı müavini M.Motuxova, Şərif kənd 1 nömrəli tam orta məktəbin təşkilatçı müavini A.Hacıyeva və digər şəxslər çıxış ediblər.

Şagirdlər arasında narkomanlıqla bağlı hüquqa zidd hərəkətlərin qarşısının alınması, onların zərərli vərdişlərdən çəkindirilməsi üzrə qabaqlayıcı profilaktik tədbirlərin həyata keçirilməsi ilə əlaqədar məktəb rəhbərlərinə tapşırıq verilib.

## Qaliblərə diplom və hədiyyələr təqdim edilib

Astara Olimpiya İdman Kompleksində rayon gənclər və idman idarəsinin, təhsil şöbəsinin birgə təşkilatçılığı ilə məktəblilər arasında keçirilən mini-futbol üzrə rayon birinciliyi başa çatıb.

Təhsil şöbəsindən redaksiyamıza daxil olan məlumata görə, oyunlara hazırlıq məqsədilə təşkil olunan yarışda rayonun ümumtəhsil məktəblərini təmsil edən 6 komanda qələbə uğrunda mübarizə aparıb.

Rayon birinciliyinin finalında Astara şəhər 1 və 2 nömrəli tam orta məktəblərin komandaları qarşılaşıblar. Maraqlı və gərgin idman mübarizəsi şəraitində keçən final görüşündə əsas və əlavə olunmuş vaxtda qalib müəyyənləşmədiyindən komandalar güclərini on bir metrlik cərimə zərbələrini yerinə yetirməklə sınayıblar. On bir metrlik cərimə zərbələrini daha dəqiq yerinə yetirən şəhər 1 nömrəli tam orta məktəbin komandası rəqibinə 3:1 hesabı ilə üstün gələrək rayon birinciliyinin qalibi olub.

Sonda qaliblərə diplomlar və hədiyyələr təqdim edilib.

**Səhifəni hazırladı:** *Şakir CƏFƏROV*

# "Rəqəmsal bacarıqlar" layihəsinə daha bir məktəb qoşulub

"İnformatika" fənninin yeni formatda tədrisi üzrə "Rəqəmsal bacarıqlar" layihəsinə daha bir məktəb qoşulub.

Fevralın 7-dən Milli Qəhrəman Mübariz İbrahimov adına Biləsuvar Təhsil Kompleksi "Rəqəmsal bacarıqlar" layihəsi çərçivəsində dərslərə başlayıb.

Qeyd edək ki, pilot layihə Təhsil Nazirliyi tərəfindən "Algoritmika" beynəlxalq təhsil şirkəti ilə birgə həyata keçirilir.

Layihənin rəhbəri Fəxri Qurbanov Biləsuvar Təhsil Kompleksində keçirilən dərslərlə tanış olub. Layihə rəhbəri qeyd edib ki, Milli Qəhrəman Mübariz İbrahimov adına Biləsuvar Təhsil Kompleksi "Rəqəmsal bacarıqlar"a qoşulan birinci özəl məktəbdir.

Fəxri Qurbanov "Rəqəmsal bacarıqlar" layihəsinin Milli Qəhrəmanın adını daşıyan liseydə tətbiqinin Mübariz İbrahimovun doğum gününə təsadüf etdiyini bildirib, bu günün şagirdlər üçün əhəmiyyətini vurğulayıb.

Layihəyə liseyin 120 nəfər V-VI sinif şagirdi cəlb olunub. Onlara ixtisasartırma təlimlərinə cəlb olunmuş 2 informatika müəllimi tərəfindən dərs keçiriləcək.

"Rəqəmsal bacarıqlar" layihəsi 2018-2019-cu tədris ilində Bakı şəhərində 65, Gəncə şəhərində 6 məktəbi və Biləsuvar rayonunda 1 özəl liseyi əhatə edib. Layihə çərçivəsində şagirdlər öz layihələrini, cizgi filmlərini və oyunlarını yarada, cari ilin sonunda isə "Rəqəmsal bacarıqlar"a qoşulan məktəblər arasında keçirilən müsabiqədə iştirak edə biləcəklər.

Layihə informatika fənninin tədrisinin təkmilləşdirilməsi yolu ilə şagirdlərin kompüter savadlılığının yüksəldilməsini, onların yüksək texnoloji ixtisaslara marağının artırılmasını nəzərdə tutur. Layihənin həyata keçirilməsində məqsəd şagirdlərdə alqoritmik düşüncə və məntiqin, layihə bacarıqlarının inkişafı və proqramlaşdırmanın əsaslarının öyrədilməsidir. Layihə təhsilalanlara yeni texnologiya və rəqəmsal bacarıqları təcrübədə öyrənməyə, proqramlaşdırmanın sirlərinə bələd olmağa imkan yaradır.





# Təhsilin qarşısında duran 10 qlobal meqatrend

## Rəqəmsallaşma dövründə təhsil sistemləri necə inkişaf edəcək?

⇦ Əvvəli səh.1

**Oruc MUSTAFAYEV**

Bu, ən azından bir nəzəriyyədir. Bu, həmçinin dünyanı daha dəyişkən və qeyri-müəyyən edə bilər. O, cəmiyyətdən gələn səsləri eşitməyə imkan verməklə demokratiyanı təşviq edir, amma sonra qeyri-məhdud sayda hakimiyyəti məhdud əllərdə toplayır.

Nə vaxt ki, xəbərlər və informasiya bizim üçün alqoritmlərin köməyi ilə qurulur, insanlar yalnız tərəfdarlarını eşidə və əks baxışlardan qorunmuş ola bilərlər. Məktəblər və universitetlər ideyalara daha açıq yanaşmalara necə meyilli olacaqlar?

*6. Birinci sinif insanlar və ya ikinci sinif robotlar?* Süni intellektin işinin təhlükəsi haqqında çox xəbərdarlıqlar olub. Amma təhsil sistemləri gənc insanları dəyişən əmək bazarı üçün yenilənən və adaptasiya oluna bilən bacarıqlarla silahlandırmalı olacaqlar.

İrəlidə maşınlar tərəfindən hasil edilməsi mümkün olmayan istedadlı insanların necə inkişaf etdirilməsi kimi suallar durur. Biz təxəyyül, məsuliyyət və emosional dərketmə kimi insani keyfiyyətlərin süni intellektin hesablama gücü ilə yanaşı istifadə olunmasını necə təmin edə bilərik?

*7. Ömürboyu dərslər.* İnsan ömrünün uzanmasına dair gözləntilər artır, əvvəlcədən proqnozlaşdırıla bilməyən əmək bazarı isə o deməkdir ki, insanların çoxu tez-tez yenidən hazırlanmaya ehtiyac duyurlar. Daha çox diqqət insanların ömürboyu təliminə ayrılmalıdır ki, insanlar iş yerini dəyişə və daha gec yaşlarda təqaüdə çıxa bilsinlər. 1970-ci ildən OECD ölkələrində təqaüdə çıxdıqdan sonra yaşanan illərin orta miqdarı 13-dən 20-yə qədər artıb.

Bu onilliklərdə iş yerlərində böyük dəyişikliklər və "ömürboyu işlər"in sıradan çıxması baş verib. Amma hazırda yaşlılar və daha çox təhsilə ehtiyacı olanlar, eləcə də ixtisas dərəcəsi aşağı olanlar bu təhsili ala bilərlər. Çox vaxt məhəl qoyulmayan bu problem getdikcə daha əhəmiyyətli faktora çevrilir, yəni insanların bacarıqları mövcud iş yerlərinə uyğun olmalıdır.

*8. Onlayn və ya oflayn?* İnternet gənc insanların həyatının ayrılmaz hissəsidir. Bəzi ölkələrdə 15 yaşlıların internetdə keçirdikləri onlayn vaxtların miqdarı son 3 ildə iki dəfə artıb. Yeniyetmələrin çoxu deyir ki, internet xətlərin kəsilməsi onlara pis təsir edir. Amma təhsil daima bu şəbəkədə olmaq zərurəti ilə barışmalıdır. Bu öyrənmədə internet hansı rolu oynamalıdır? Onun kiber-hədələr və məxfiliyin itirilməsi kimi neqativ nəticələrini necə azaltmaq olar?

*9. Təlim dəyərləri.* Hamı gözləyir ki, məktəblər dəyərləri tədris edəcək, amma dünyanın daha çox qütbləşdiyi indiki zamanda kim bilir, uşaqlara hansı dəyərləri öyrətmək lazımdır? Rəqəmsal dünya çox insana öz fikrini söyləməyə imkan verib, amma bu, zəmanət vermir ki, onlar etibarlı və tarazlaşdırılmış informasiyaya giriş əldə edə və ya başqalarının fikirlərinə qulaq asmaq istəyəcəklər.

Vətəndaşlar uydurmaları faktlardan necə ayıra bilərlər? Məktəblər fikir və obyektiv informasiya arasında fərqi necə öyrətməlidir? Məktəblərin işi siyasi cəhətdən neytraldırmı və ya konkret ideyaları, düşüncə tərzlərini inkişaf etdirə bilərlərmi? Və müasir demokratiyalar hansı vətəndaş məziyyətlərini tələb edir?

*10. Hətta başlanğıc nöqtədə deyil.* Bu problemlər dünyada yüz milyonlarla ən kasıb uşaq üçün, xüsusilə Saharadan cənuba Afrika ölkələrində əhəmiyyətə malik olmayacaq. Çünki onlar hətta məktəb yerlərinə girişə malik deyillər və ya məktəblər elə keyfiyyətsiz təhsillə əhatə olunublar ki, uşaqlar adi baza savadı olmadan və ya hesablama əməlini bilmədən təhsil ocaqlarını tərk edirlər.

İctimai-iqtisadi itkilər haqqında qlobal vədlərə və xəbərdarlıqlara baxmayaraq, BMT bildirir ki, təxminən 260 milyon uşaq ibtidai və orta məktəbdən kənarda qalıb.

# Məktəbin fəaliyyətini düzgün istiqamətləndirəndə

**Natiqə AĞAYEVA**

Bu gün dünyanın hər yerində olduğu kimi, Azərbaycanda da təhsil sistemi təkmilləşməkdə, yeniləşməkdə və inkişafda davam edir. Dövlətimiz tərəfindən bu sahənin inkişafına göstərilən diqqət və qayğı Azərbaycan təhsilinin dünya standartları səviyyəsinə yüksəldilməsinə hərtərəfli şərait yaradıb.

1999-cu ildən həyata keçirilməyə başlayan Təhsil İslahatı Proqramı, 2013-cü ilin oktyabrında qəbul edilmiş "Azərbaycan Respublikasında təhsilin inkişafı üzrə Dövlət Strategiyası" təhsilin bütün pillələrində genişmiqyaslı işlərin yerinə yetirilməsinə, habelə təhsilimizdə bir sıra məzmun yeniliklərinin yaranmasına səbəb olmuşdur. Buna müvafiq olaraq respublikamızın bütün bölgələrində tədrisin və təhsilin keyfiyyəti durmadan artmaqda davam edir. O cümlədən, rayonumuzda da təhsilin keyfiyyətinin dinamik olaraq yüksələn xətt boyunca inkişaf etdirilməsi diqqət mərkəzindədir. Təsadüfi deyil ki, son illər Lənkəran məktəblərinin məzunları respublikamızın ali məktəblərinə qəbul imtahanlarında ən yüksək nəticələr göstərməyə müvəffəq olurlar. Bəli, bu gün Lənkəranda təhsilə, elmə, tədrisə böyük önəm verilir. Təbii ki, bu mühüm missiya məktəblərdə həyata keçirilir. Demək olar ki, Lənkəranın pedaqoji kollektivlərinin hamısı milli təhsilimizin formalaşdırılması istiqamətində həyata keçirilən islahatlarda fəal iştirak edərək, qarşıya qoyulan məqsədə nail olmaq üçün əzmkarlıq göstərirlər. Şürük kənd orta məktəbinin də əsas devizi gənc nəslin təlim-tərbiyəsi və onlara elmin sirlərinin öyrədilməsi ilə yanaşı, həm də əxlaqlı, vətənpərvər, milli-mənəvi dəyərlərə hörmət edən, onları qoruyan gənclər yetişdirilməsi işidir. Qeyd edək ki, məktəb rayonda istər buraxılış imtahanlarında, istərsə də ali və orta ixtisas məktəblərinə qəbulda həmişə fərqlənir. Hər il məktəbin 10-15 şagirdi ali məktəblərə daxil olur ki, nəticədə məktəb davamlı olaraq rayon məktəblərinin reytinq cədvəlində ilk onluqda yer alır. Əlbəttə, bu uğurun qazanılmasında pedaqoji kollektivlə yanaşı, məktəb rəhbərliyinin də böyük əməyi vardır. Qeyd edək ki, bu gün məktəbə tanınmış pedaqoq Namiq Bağırov rəhbərlik edir. 2004-cü ilin oktyabr ayından bu təhsil ocağında direktor kimi çalışan Namiq müəllim rayonda nüfuzlu ziyalı, bacarıqlı rəhbər kimi yaxşı tanınır. Məhz onun rəhbərliyi və işgüzarlığı sayəsində məktəb bugünkü səviyyəyə gəlib çataraq, bir sıra uğurlar əldə etməyə nail olub.

N.Bağırov sadə bir ömür yolu keçib. 1959-cu il fevralın 2-də Lənkəran rayonunun Türkəkəran kəndində dünyaya göz açıb. İlk təhsilini elə Türkəkəran kənd əsas məktəbində alıb. 1976-cı ildə Lənkəran şəhər 1 nömrəli tam orta məktəbi bitirərək Azərbaycan Dövlət Universitetinin (indiki Bakı Dövlət Universiteti) mexanika-riyaziyyat fakültəsinə daxil olur. 1981-ci ildə universiteti müvəffəqiyyətlə bitirən N.Bağırov elə həmin il Lənkəranın Şürük kənd orta məktəbində müəllim kimi pedaqoji fəaliyyətə başlayır. Elə ilk günlərdən müqəddəs müəllim peşəsinə vurğunluğu, tədris etdiyi fənni şagirdlərinə dərindən mənimsətməyə çalışması, olduqca təvazökar və məsuliyyətli olması ilə diqqəti çəkir. Çox keçmir ki, Namiq müəllimin yaxşı işi qiymətləndirilir. Baş müəllim adına layiq görülən N.Bağırov yuxarıda qeyd etdiyimiz kimi, 2004-cü ildə Şürük kənd orta məktəbinin direktoru vəzifəsinə irəli çəkilir. Namiq müəllimin rəhbərliyi altında bu gün məktəbin uğurları artmaqda davam edir. Hazırda məktəbdə iki internet mərkəzi və Debat mərkəzi mövcuddur. Hər iki xətt internet şəbəkəsinə qoşulub. Həm məktəbin müəllimləri və şagirdləri, həm də qonşu məktəblər, icma nümayəndələri bu mərkəzlərin fəaliyyətindən bəhrələnərək, qlobal informasiya məkanına daxil olur, təhsil və biznes yönümlü məsələləri öyrənir, onları maraqlandıran suallara cavab axtarırlar. Proyekt Harmoniya və Debat proqramları üzrə işlər düzgün qurulduğuna görə həm Təhsil Nazirliyi, həm Proyekt Harmoniya təşkilatının rəhbərliyi, həm də şəhər təhsil şöbəsi bu işləri müsbət qiymətləndirmişdir. Bütün bunlar xüsusi bülletenlərdə də öz əksini tapıb.



N.Bağırov həm də daim öz üzərində işləyən, bilik və bacarığını artıran, yeni təlim üsullarının və texnologiyalarının hazırlanmasında fəal iştirak edən istedadlı bir müəllimdir. Belə ki, 2010-cu ildən Dövlət İmtahan Mərkəzi ilə əməkdaşlıq edən Namiq müəllim hazırda bu Mərkəzin riyaziyyat üzrə ekspertidir. O, 2010, 2012, 2014 və 2018-ci illərdə DİM-nin keçirtdiyi ali məktəblərə qəbul kampaniyasında iştirak etmiş və I, IV qruplar üçün riyaziyyatdan ali məktəblərə qəbul testlərinin çeşidlənməsi və hazırlanması işini həyata keçirənlərdən biri olmuşdur. O, həmçinin DİM-nin abituriyentlərə kömək məqsədi ilə həyata keçirdiyi iki video mühazirənin müəllifidir. Bundan başqa, "Fizika və riyaziyyat tədrisi" jurnalında məsələ və misalları dərc olunub. Bu illər ərzində iki şagirdi respublika riyaziyyat olimpiadasında iştirak etmişdir. Ötən ilin noyabr ayının 28-də keçirilən Azərbaycan müəllimlərinin XV qurultayının nümayəndəsi olan Namiq Bağırov ölkəmizin siyasi həyatında da fəal iştirak edərək, vətəndaşlıq mövqeyini hər zaman ortaya qoyur, vətənə və dövlətçiliyimizə sədaqətlə xidmət edir.

Namiq müəllim həm də gözəl ailə başçısıdır. Övladlarının üçü də ali təhsillidir. Qızları Ülkər və Şəbnəm Lənkəran Dövlət Universitetinin məzunudurlar. Oğlu Cəlil isə onkoloq həkim işləyir. Şagirdlərini və övladlarını hər zaman cəmiyyət üçün layiqli, ləyaqətli və əsl vətəndaş kimi görmək ən böyük arzusudur.

... Müəllim kimi şərəfli adı daşımaq Namiq müəllim üçün böyük fəxrdir. O, hər yerdə və hər zaman bu ada layiqincə əməl edərək, təkcə uşaqlara deyil, elə böyüklərə də nümunə, örnək olmağa çalışır. Ömrünün 6-cı onilliyini haqlamaqda olan Namiq müəllimə bundan sonrakı həyatında da tükənməz enerji, el-oba məhəbbəti və həmişə işli-güclü olmasını arzulayırıq.

Əminik ki, onun rəhbərliyi altında Şürük kənd orta məktəbinin əldə edəcəyi yeni və daha böyük uğurlar hələ qabaqdadır.

# BMU-nun əməkdaşları Sumqayıt Kimya Sənaye Parkında olublar

Bakı Mühəndislik Universitetinin Müəssisələrlə Əlaqələr və Karyera departamentinin təşkilatçılığı ilə İqtisadiyyat Nazirliyinin tabeliyində fəaliyyət göstərən "Sumqayıt Kimya Sənaye Parkı" MMC-də universitetin nümayəndə heyəti ilə növbəti görüş keçirilib.

Tərəflər arasında imzalanmış əməkdaşlıq memorandumuna əsasən keçirilən görüşdə "Sumqayıt Kimya Sənaye Parkı" MMC-nin direktoru Nazim Talıbov ölkə başçısı İlham Əliyevin təşəbbüsü ilə yaradılan sənaye parklarının bu günü və gələcək hədəfləri haqqında ətraflı məlumat verib. Bildirib ki, sənaye parkının ərazisində prioritet sənaye sahələri üzrə rəqabətqabiliyyətli məhsullar istehsal edən müəssisələr fəaliyyət göstərir. İstehsal olunan məhsullar daxili bazarın tələbatını ödəməklə yanaşı xarici bazarlara da ixrac olunur. Nazim Talıbov qeyd edib ki, ölkəmizdə ilk dəfə şüşə istehsalı müəssisəsi də Sumqayıt Kimya Sənaye Parkının ərazisində inşa olunur. O, tərəflər arasında əlaqələrin təşkili formaları, tələbələrin təcrübə keçmələri kimi məsələlərlə bağlı da danışıb və bu sahədə dünya təcrübəsindən nümunələr gətirib.

Bakı Mühəndislik Universitetinin rektoru, professor Havar Məmmədov Prezident İlham Əliyevin rəhbərliyi ilə ölkəmizdə hər sahədə sürətli inkişafın olduğunu diqqətə çatdırıb. Son illərdə fəaliyyətə başlayan müasir texnologiyalı sənaye müəssisələrinin tam gücü ilə işləməsi üçün müasir bilikli kadr potensialının da hazırlanmasına ehtiyacın olduğunu diqqətə çatdıran rektor BMU-nun sənaye müəssisələri, xüsusilə sənaye parkları ilə əməkdaşlıqda maraqlı olduğunu bildirib. Qeyd edib ki, BMU-da sənaye müəssisələri üçün mühəndislik və iqtisadiyyat ixtisasları üzrə müasir nəzəri bilikli, qabaqcıl müəssisələrdə təcrübə keçən və müsbət vətəndaş xüsusiyyətlərinə malik kadr hazırlığı həyata keçirilir və universitetin gələcəkdə sahibkarlıq universitetinə çevrilməsi yönündə mühüm işlər görülür.

Görüşdə İqtisadiyyat Nazirliyinin Sənaye şöbəsinin müdir müavini Fikrət Qurbanov, BMU-nun prorektorları Həmzağa Orucov, Bayram Hüseynzadə, Manafəddin Namazov, İqtisadi İslahatlar Elmi Tədqiqat İnstitutunun direktor müavini Arzu Hüseynova universitet-sənaye əlaqələrinin inkişafının ölkə iqtisadiyyatına verəcəyi töhfələrdən danışıblar. Qeyd ediblər ki, Bakı Mühəndislik Universitetinin gənc olmasına baxmayaraq innovativ texnologiyalı laboratoriyaları və müasir bilikli akademik heyəti sənaye müəssisələri ilə əməkdaşlıq sayəsində tələb olunan səviyyədə kadr hazırlığını həyata keçirə bilər.

Tədbirin sonunda iştirakçılar "Sumqayıt Kimya Sənaye Parkı" MMC-nin ərazisində yerləşən müəssisələr və istehsal prosesi ilə tanış olublar.

# İbtidai sinif və fənn müəllimləri üçün yekun qiymətləndirmə

Ümumi təhsil müəssisələrinin ibtidai sinif və fənn müəllimləri üçün yekun qiymətləndirmə keçirilir.

Təhsil İşçilərinin Peşəkar İnkişafı İnstitutu (TİPİİ) tərəfindən təşkil olunmuş imtahanlarda 2018-ci ilin noyabr-dekabr aylarında paytaxt üzrə ibtidai sinif və fənn müəllimləri üçün keçirilən ixtisasartırma təlimlərini başa vuran 1387 müəllimin iştirakı nəzərdə tutulur.

İmtahanda iştirak etmiş müəllimlərə dövlət nümunəli ixtisasartırma sertifikatları təqdim olunacaq.





# Məhdudiyyətləri aşan gələcəyin peşəkarları

## Peşə təhsili müəssisəsində inklüziv təhsil uğurla tətbiq olunur

⇦ Əvvəli səh.1

Ruhiyyə DAŞSALAHLI

40 tələbəni əhatə edən layihəyə görə, Almaniyanın dual (paralel) təlim sistemi tətbiq edilir. Bu sistemə görə tədrisdə əsas üstünlük səriştəyə, praktikaya verilir. Tədris prosesində təcrübənin çəkisi 70 faiz təşkil edir. Tələbələrin səriştəsi "səriştəli", "səriştəsiz", "müəllimin dəstəyi ilə" səviyyələrinə uyğun dəyərləndirilir. Bölgü 3 olsa da, Mərkəzdə tələbələrinin səriştəsiz olmaması üçün əllərindən gələni edirlər.

### Hər dərs həm də bir yarışdır

Bir sözlə, tədris ilinin əvvəlindən dərslərdə nəzəriyyədən çox praktika olur. Tələbələr yorğanlar sırıyır, adyallar hazırlayır, biçib tikirlər. Trikotaj məhsulu, süfrə bəzədilməsində istifadə olunan aksesuarlar, geyimlər hazırlayırlar.

İlin əvvəlindən iynə-sapı əlindən düşməyən tikiş avadanlığının operatoru, tikişçi ixtisası üzrə I kurs tələbələri ilə Texnika və Texnologiyalar üzrə usta Təranə Qasımova və Samirə Cabbarova işləyir. Bu dəfə onlar mətbəx aksesuarı hazırlayırlar. Dəmkeşin üstünə çayı isti saxlaması üçün gəlincik dekor hazırlayırlar.

Tapşırıq verilən kimi hamı dərhal işə girişir. Model bəllidir: müəllimləri onlara gözəl bir gəlincik təqdim edib. Ancaq tələbələrin öz işi bu gəlinciyə nə qədər bənzəyəcək, ümumiyyətlə, bənzəyəcəkmi, bax, bu, dərsin sonunda bəlli olacaq. Çünki çertyoj qurulandan, kəsim başlayandan sonra qızların düşüncələrində yüzlərlə model canlanır.

Hələlik heç kimə yaxın durmaq olmur. Təranə müəllim deyir ki, hər dərs onlar üçün həm də bir yarışdır. Dərsdə, sadəcə, "kim bacardı?" sualına cavab axtarmırlar, necə, nə qədər müddətə bacarmaq da qiymətləndirmədə mühüm rol oynayır. Aytac Butdayeva, Vüsalə Şükürova, Nigar Məmmədova bu yarışlarda tez-tez fərqlənib, hətta mükafatlandırılıblar da.

### "Öz atelyemi quracağam"

Təranə müəllim hesab edir ki, bu qrupda 10 nəfər potensial dərzi var. Ancaq aralarında öz atelyesini yaradıb tikdikləri ilə ölkə, hətta dünya bazarına çıxmağa cəmi iki tələbə iddialıdır. Onlardan biri də Rənadır.

Rəna Nəbiyevanın gəlinciyi bir aşpazdır. Məktəbin fəal tələbələrindəndir. Gələcəyini bu peşədə görür: "Məktəbdə tikib-biçməyi öyrənirik. Çox həvəsliyəm. Yaxşı ki, bu məktəbi seçdim və burada oxuyuram. Məncə, məktəbi bitirən kimi dərzi işləyə bilərəm. Hətta öz atelyemi qurmaq fikrindəyəm. Adını da "Aynur" qoyacam. Ay işarəsi, yanında da nur sözü. Ayın nuru gecəni aydınlatdığı kimi, mənim də tikdiklərim insanların üzünü, ovqatını aydınladacaq".

### "Adlı-sanlı dərzi olmaq istəyirəm"

Öz gəlinciklərini bəzəmək üçün əlinə iynə-sap alan Fatimə də bu işdə ad alıb, nüfuz qazanmağa iddialıdır: "Anam dərzidir. Bu peşəyə marağım da anamdan qaynaqlanır. Məktəb barədə qohumumdan eşitmişdim. Yaxşı öyrətdiklərini demişdi. Gəlib gördüm ki, həqiqətən elədir. Təhsil almağa başlayandan çox şey öyrənmişəm. Öyrənməyimə anam da çox həvəs göstərir. Müstəqil işləməyə başladıqdan sonra əl işlərimi sosial şəbəkələr vasitəsilə nümayiş etdirəcəyəm. Əsas müştərilərimi burdan toplayacağam. Sıradan deyil, tanınmış, adlı-sanlı dərzi olmaq istəyirəm".

### İnklüziv qrup

Bu qrup həm də inklüzivdir. Texnika və Texnologiyalar üzrə Bakı Dövlət Peşə Mərkəzində iki ildir ki, inklüziv təhsil həyata keçirilir. Bu tədris ilində də Mərkəzə sağlamlıq imkanı məhdud tələbələr qəbul olunub. Tikişçi qızların arasında 5 nəfər sağlamlıq imkanı məhdud tələbə təhsil alır. Müəllimlərinin sözlərinə görə, qabiliyyət sarıdan digər tələbələrdən geri qalmırlar. Şağan 3 saylı əqli və fiziki qüsurlu uşaqlar üçün internat evindən məzun olan bu qızlardan biri Nigar Məmmədova beynəlxalq müsabiqələrə qatılaraq böyük uğurlar da qazanıb. Nigar Məmmədova uşaqlığından tikib-biçməyə, rəsm çəkməyə başlayıb. Atası da, anası da dərzidir. Nigar da dərzi kimi yetişir. Norveçdə, Hindistanda rəsm sərgiləri keçirilib və ona sertifikatlar verilib.

Samirə Cabbarova bu prosesə ilk qoşulanlardandır. Texnologiya mütəxəssisi olan Samirə müəllim iki il əvvəl kursdan keçərək nitq qüsurlu uşaqlarla işləməyə başlayıb. Bu dərsdə də surdo müəllimdir.

### Onlar tullantılardan sənət nümunəsi yaradırlar

Tikişçi qızların plastik qablardan, tullantılardan maraqlı əl işləri var. Onlar öz nümunələri ilə çoxsaylı müsabiqələrə qatılıb, bol-bol uğurlar qazanıblar. Özü də, sadəcə, tikişçilər yox. Mərkəzin tələbələri müsabiqələrdə əsas yerləri tuturlar. Elə qaynaqçılar da ətrafındakı tullantılara xammal gözü ilə baxmağa başlayıblar.

STEP Kompüter Akademiyasının keçirdiyi beynəlxalq "Golden Byte" (Qızıl Bayt ) müsabiqəsinin regional mərhələsində özü ilə bağlı çəkib montaj etdiyi filmlə III yerə layiq görülən Kifayət Hüseynova ölkədə yeganə qaynaqçı qız sayılır və hazırda Mərkəzdə məhz bu ixtisas üzrə II kursda təhsil alır. 18 yaşlı qaynaqçı qız insanların atdığı dəmir tullantılarından elə onların özü üçün yararlı ola biləcək əşyalar düzəldib. Dediyinə görə, əmisinə baxıb qaynaqçı olmaq həvəsinə düşüb. Müəllimi onun barəsində bu fikirdədir: "Bu əllərlə o, yaxşı qaynaqçı ola bilər".

### "Onları mən yox, özləri qiymətləndirirlər"

Müəllimi Balağa Poladov 70-ci illərdən usta müəllimdir. Hər tələbəsinin adı qeyd olunmuş böyük masası var. Adların qeyd olunduğu cədvəldə gündəlik əl işlərini sərgiləyir: "Hər kəs adının üstündə duran işə özü qiymət verir. Onları mən yox, özləri qiymətləndirirlər. Qaynaqçılıq əl işidir. İnsan nə qədər çox işləsə, peşəsini bir o qədər yaxşı bacaracaq. Qrupda Əmrah Ağayevin əl qabiliyyəti hamıdan yaxşıdır. Onun etdiyi qaynağı tələbə demirəm, hər usta bacarmır. Taleh Əhmədov, Mehdi Mirzəyev, İlham Abbaszadə də onun kimi əlinə burada qaynaq alan uğurlu tələbələrimizdəndirlər".

Taleh Əhmədov İsmayıllı rayonundandır. İş tapmaq dərdi yoxdur. Deyir ki, gedib rayonda öz sexini açıb işləyəcək.

Fərid Məlikov IX sinifdən çıxıb peşə məktəbinə gəlib: "İstədim ki, bir sənətim olsun. Uşaqlıqdan bu sənətlə məşğulam. Atam yönləndirdi məni. İndiyədək dostumla birgə işləyirdim. Artıq 6 ildir qaynaqçıyam. Burada isə bu sənətin texnikasını öyrənirəm".

Növbəti emalatxanada hərə bir işlə məşğuldur. Kəsən, birləşdirən, quraşdıran... Amma onlar gücünü qızlar kimi parça üzərində deyil, dəmir-dümür üzərində sınayırlar. Nə işlə məşğul olduqlarını özlərindən öyrənməyə çalışırıq.

### "Öyrənməyə başlayandan sonra bu peşəni də sevdim"

Çilingər-santexnik ixtisası üzrə təhsil alan tələbələr tədrisə cəmi 7 aydır başlamalarına baxmayaraq, artıq bir çox hamam, mətbəx sisteminin çəkilişini öyrəniblər. Bu da sübutu. I kurs tələbələri su kranı quraşdırır.

Elşən Xıdırov maşın elektriki olmaq istəyirmiş. Ancaq attestat balı çilingər-santexnik ixtisası üzrə təhsil almağa imkan verib: "Öyrənməyə başlayandan sonra bu peşəni də sevdim".

Peşəsini də sevib, kranı da quraşdırıb. Ancaq quraşdırdığı kranın su buraxıb-buraxmayacağı bəlli deyil: "Bu gün praktika günümüzdür. Müəllim də bilmək istəyir ki, əlimizdən bir iş gəlir, yoxsa yox. Biz də kranı quraşdırıb göstərəcəyik ki, əlimizdən bir iş gəlir".

### Diplom arzulayan çilingərlər

Vahid Nadirov çilingər-santexnik ixtisası üzrə ustadır. 20 nəfər tələbə ilə işləyir: "Tələbələrimiz məişətimizdə istifadə edilən santexnika cihazlarının quraşdırılması, xətlərin çəkilməsini öyrənirlər. Bundan sonrakı mərhələdə onlar istehsalatda olacaqlar. Demək olar ki, hazır vəziyyətdədirlər. 18-23, hətta 30 yaşına qədər olan tələbələrimiz var. Hazırda bu qrupda ən kiçik tələbəmiz 16, ən böyük tələbəmiz təxminən 30 yaşındadır. Elə tələbələrimiz var, artıq bu sahədə işləyirlər. Ancaq kortəbii tətbiq etməyi bilirlər. Peşə Mərkəzində təhsil almaqla isə nəzəriyyəni öyrənir və onu tətbiq etməyin texnikasına bələd olurlar. Bu səbəbdən də Mərkəzə üz tutanların sayı kifayət qədərdir".

Çilingər-santexnik ixtisası üzrə hazırlıq müddəti bir il nəzərdə tutulub. Bu müddətdə 3, hətta 4-cü dərəcəyədək yüksələn tələbələr var.

16 yaşlı Ülvi Talıbov bu qrupda yetişməkdə olan çilingər santexniklərin yaşca ən kiçiyidir: "Metal boru kəsməyi, yiv açmağı öyrənirəm. Məktəbdən IX sinifdən çıxıb burada oxumağa gəldim".

Peşəni qohumları sevdirsə də, onlardan deyil, məktəbində öyrənməyə üstünlük verib: "Valideynlərim də bu peşəyə marağımı dəstəklədilər. İstəyirəm həm peşəni öyrənim, həm də diplomum olsun".

### Peşə Mərkəzinin ixtiraçıları

Texnika və Texnologiyalar üzrə Bakı Dövlət Peşə Mərkəzində, sadəcə, əl əməyi, göz nuru ilə deyil, beyninin məhsulu ilə də öyünən, müsabiqələrdə qazanan tələbələr təhsil alır. 4 nominasiya üzrə "Azərbaycanın intellektual birincisi" də Peşə Mərkəzindən çıxıb. "Xəmsə", "Nə, harada, nə zaman", "Vətəni tanı", "Axtar tap" yarışlarında II yerə layiq görülüblər.

Bakı Mühəndislik Universitetində 20-dən artıq universitetin iştirak etdiyi "İdeya" bilik yarışlarında Malik Əliyev adlı tələbəsinin su generatoru qızıl medala layiq görülüb.

Malikin təhsil aldığı qrupdayıq. Burada Nərminə Zamanovanın dərsidir. Nərminə müəllim Elektrik xətt quraşdırıcısı ixtisası üzrə təhsil alan I kurs tələbələrinə bu ixtisas üzrə dərs deyir. Bu gün onların da istehsalat günüdür. Uşaqlar sxem yığırlar. Qrup şəklində işləyirlər: "Hər birinin ideyasını dəyərləndiririk. İdeyanı onlar verir, onu reallaşdırmaq üçün biz kömək edirik. Hər biri bir ixtiraçıdır. Qrupda 19 nəfər var, onların 10 nəfəri ideya verə biləcək səviyyədədir. Ziyad Məmmədli mini mühərriklərin dövriyyəyə qoşulmasını sərbəst işləyib. Asif Mehdiyev səsgücləndirici sxemi yığıb. Dəyişən cərəyanın gücləndirilməsi, körpü sxemi Malik Əliyevin öz ideyası və sərbəst işidir. Elmar Zeynalov da ideyalarını sərbəst işləmək iqtidarında olan uşaqlarımızdandır. O, verdiyi ideya və yaratdığı sxemlə birinci qatda oturub, ikinci qatda olan elektrik açarlarını idarə edir. Uşaqlarımızın sərbəst işi çoxdur. Sənan Lətifov gərginliyi tənzimləmənin sxemini yığıb. Qrupda 6-7 liderim var ki, istənilən əməliyyatı icra etmək, maraqlı ideyalar vermək onlar üçün çətin deyil".

### "Hər yerdə internetimiz də ola bilər"

Malik Əliyev yanacaqdan istifadə etmədən, ətraf mühit üçün tam zərərsiz ixtiranın müəllifi olaraq bir dəfə müsabiqə qalibi olub. Bəs, görəsən, növbəti hədəfi nədir? Dediyinə görə, hazırda ölkəni internetlə təmin etməyin iqtisadi cəhətdən səmərəli yolu üzərində düşünür: "İnternet əsridir. Ancaq Bakının belə hər yerində internet yoxdur. Kabeldən istifadə etmədən peyklərimizdən istifadə edərək Bakının hər yerini internetlə təmin edə bilərik. Bunu reallaşdırmaq üçün mənə rabitə sistemində istifadə olunan modullar lazımdır, bir də bu sahə üzrə mühəndis. İdeyamı reallaşdırmaq üçün hələ o qədər bacarığım da yoxdur. Hesab edirəm ki, bu ideyamı reallaşdıra bilsəm, telefon işlədə bildiyimiz hər yerdə internetimiz də ola bilər".

### Onların məzunları "yerdə qalmır"

Texnika və Texnologiyalar üzrə Bakı Dövlət Peşə Mərkəzində məzunlarının hamısının səriştəli olması üçün əllərindən gələni edirlər. Tədris istehsalat işləri üzrə direktor müavini Aytac Rzayeva məzunlarının iş tapma faizini 72 faiz dəyərləndirir: "Məzunlarımız təhsil aldıqları ixtisas üzrə işin texnikasını bilir və iş tapmaqda çətinlik çəkmirlər".

Qeyd edək ki, məzunlarının işlə təminatında Mərkəzin nəzdində fəaliyyət göstərən beynəlxalq resurs mərkəzləri - Almaniyanın "Grohe" Akademiyası, Rusiyanın "Knauf" Resurs Mərkəzi, Türkiyənin "İnova Tədris-Təhsil Mərkəzi" də böyük rol oynayır. Həmin resurs mərkəzlərinin əməkdaşları tərəfindən müəssisə və şirkətlərdə tələbələr üçün ustad dərsləri, iş yerində təcrübə proqramı əsasında təlimlər keçirilir. Təlimlər əsasında kursu bitirdikdən sonra müsabiqə və müsahibədən uğurla keçərək sertifikatlaşan tələbələr həmin şirkətlər tərəfindən işlə təmin edilirlər.

Qədir Hacıyevin həmin mərkəzlərdən birində - Rusiyanın "Knauf" Resurs Mərkəzinin quru inşaat ustası ixtisası üzrə təhsil alır. 50 yaşı var. Bu yaşına qədər kran sürücüsü işləyib. 6-cı dərəcəli kran sürücüsüdür: "Təhsil almaq, öyrənmək heç vaxt gec deyil. Bundan sonra lazım olsa, ev də təmir edəcəyəm", - deyir.

Texnika və Texnologiyalar üzrə Bakı Dövlət Peşə Mərkəzinin tələbələri arasında başqa peşə sahibləri, ali məktəb məzunları olduğu kimi, məzunları arasında da ali məktəb tələbələri var.

Azərbaycan Respublikası Təhsil Nazirliyi

## Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universiteti

aşağıda adıçəkilən fakültə və kafedralarda vakant vəzifələri tutmaq üçün müsabiqə

**ELAN EDİR**

| № | Kafedranın adı | Vəzifə | Yer |
|---|---|---|---|
| 1. | Sosial-mədəni fəaliyyət kafedrası | Kafedra müdiri<br>0,5 ştat baş müəllim | 1 yer<br>1 yer |
| 2. | Muzeyşünaslıq kafedrası | dosent | 1 yer |
| 3. | Dram rejissoru və səhnə plastikası kafedrası | 0,5 ştat dosent<br>baş müəllim | 1 yer<br>1 yer |
| 4. | Ədəbiyyat və dillər kafedrası | baş müəllim | 1 yer |
| 5. | İnstrumental ifaçılıq kafedrası | baş müəllim | 4 yer |
| 6. | Estrada sənəti kafedrası | baş müəllim | 1 yer |

Müsabiqədə iştirak etmək istəyənlər sənədlərini Azərbaycan Respublikası təhsil nazirinin 09.03.2011-ci il tarixli, 400 nömrəli əmri ilə təsdiq edilmiş "Ali təhsil müəssisələrində professor-müəllim vəzifələrinin tutulması haqqında" Qaydaların tələblərinə uyğun olaraq elan qəzetdə dərc olunduğu gündən 30 gün keçənədək rektorun adına yazılmış ərizə ilə birlikdə aşağıdakı ünvana göndərə bilərlər:

Bakı şəh., AZ 1065, İnşaatçılar 39
**Tel.:** 599-00-54 (daxili-100)

Müsabiqədə yüksək peşə-ixtisas hazırlığına, elmi ad və dərəcələrə, lazımi elmi-pedaqoji, idarəetmə təcrübəsinə, yüksək mənəvi keyfiyyətlərə malik Azərbaycan Respublikası vətəndaşları, həmçinin müvafiq qanunvericiliyin tələbləri gözlənilməklə xarici ölkə vətəndaşları da iştirak edə bilərlər.

**REKTORLUQ**

# Bakteriyaların qatili robot-təmizləyici

**Yusif ƏLİYEV**



Mikrobların məhv edilməsi üçün cib robotu “CleanseBot”un yaradılmasına 1,2 milyon dollar vəsait toplanıb.

Startap iştirakçıları Hyuston Universitetində aparılmış tədqiqatdan ilham alıblar. Tədqiqat zamanı alimlər mehmanxana otaqlarında 19 səth üzərində bakteriyaların mövcud olub-olmadığını yoxlayıblar və təkcə işığı yandırıb-söndürmə düymələrinin hər kub santimetrində orta hesabla 112,7 bakteriyanın olduğunu aşkar ediblər.

**www.robo-hunter.com** saytının məlumatına görə, “CleanseBot” komandası süni intellekt və sensorlar üçün lazımi informasiyanı toplamaq və analiz etmək üçün yorğan, çarpayı və s. kimi 40 müxtəlif materialın üzərində robotu sınaqdan keçirib.

“CleanseBot” 18 sensor və “ağıllı” xəritəçəkmə texnologiyası ilə təchiz edilib ki, bu da robotun istənilən səth üzərində asanlıqla hərəkət edə bilməsinə imkan verir. İstehsalçılar iddia edirlər ki, robotun xəritəçəkmə texnologiyası onu analoqu olmayan unikal qurğuya çevirir. Robotdan ev şəraitində (əşya və oyuncaqların dezinfeksiyası üçün) və avtomobil salonlarında da istifadə etmək olar.

Startapın böyük uğur qazandığı bildirilib. Belə ki, layihənin reallaşdırılması üçün planlaşdırılandan 10 dəfə çox vəsait toplanıb. Hazırda “CleanseBot”u 99 dollara əldə etmək mümkündür.

# Smartfon istehsalı kimyəvi elementlərin tükənməsinə səbəb olur



Müasir smartfonlar çoxlu sayda komponentlərdən ibarətdir və onların istehsalı üçün ən müxtəlif kimyəvi elementlərdən istifadə olunur. Alimlərin sözlərinə görə, həmin kimyəvi elementlərin bəziləri məhdud saydadır, hətta bəziləri tükənmək üzrədir.

“Dünyada mövcud olan kimyəvi elementlərin hər biri məhdud saydadır və biz bu ehtiyatı çox sürətlə istifadə edirik, buna görə 100 ildən də az bir müddətdə hansısa kimyəvi element tükənəcək”, - deyə Şotlandiyanın Sent-Endryus Universitetinin alimi Devid Koul-Hamilton bildirib.

**www.4pda.ru** saytının məlumatında bildirilir ki, alimlər təbiətdə müxtəlif kimyəvi elementlərin tükənməsinin qarşısını almaq üçün insanları köhnə telefonları vaxtında utilizasiya etməyə səsləyiblər. Məlumata əsasən, Avropa Birliyi ölkələrində hər ay, təxminən, 10 milyon smartfon atılır və ya əvəz olunur.

# Yeni mobil proqram beynin fəaliyyətini yaxşılaşdırmağa kömək edəcək



Böyük Britaniyanın Kembric Universitetinin alimlərinin yaratdığı “Decoder” mobil proqramı konsentrasiya qabiliyyətini artırmağa və hazırda geniş yayılmış diqqət çatışmazlığı sindromu ilə mübarizə aparmağa imkan verir.

**www.planet-today.ru** saytının məlumatında bildirilir ki, alimlərin fikrincə, diqqətin bir yerə cəmlənməsi ilə bağlı problemlərin əsas səbəbi smartfon istifadəçilərinin diqqətini bitməyən bildirişlərlə yayındıran messencer və sosial şəbəkələrin populyarlığıdır.

“İndiki gənclər eyni anda bir neçə işlə məşğul olmağa məcburdurlar və bu, diqqəti konsentrasiya etmək qabiliyyətinə mənfi təsir göstərir. Buna stress, keyfiyyətsiz gecə yuxusu, eləcə də digər neqativ amillər əlavə etdikdə isə diqqət çatışmazlığı sindromu alınır”, - proqramın müəllifləri bildiriblər.

Alimlərin sözlərinə görə, proqram təminatı beynin fəaliyyətinin yaxşılaşdırılması üçün 3 qrupa bölünən 70 könüllü üzərində sınaqdan keçirilib. Qruplardan birinin könüllüləri “Decoder”, digər qrupun üzvləri başqa mobil proqramla oynayıblar, nəzarət qrupunun iştirakçıları isə heç bir oxşar proqramdan istifadə etməyiblər. Bir aydan sonra könüllülərin qabiliyyəti xüsusi test vasitəsilə yoxlanılıb. “Decoder” proqramının həqiqətən diqqət çatışmazlığını aradan qaldırmağa kömək etməsi müəyyən edilib.

# İşığın köməyi ilə idarə olunan hesablamaların aparılması texnologiyası yaradılıb



“Ağıllı” saatdan superkompüter modullarına qədər bütün elektron qurğuların əsasında yarımkeçirici çiplər şəklində prosessorlar və yaddaş kimi komponentlər dayanır. Bu çiplər silisiumun alt qatının səthində yerləşmiş tranzistorlardan ibarətdir. Bu kimi cihazlar çox kiçik olduğu üçün alim və mühəndislər daim yeni materiallar, məntiqi əməliyyatları və informasiya saxlama funksiyalarını yerinə yetirə biləcək texnologiyalar axtarışında olurlar.

Tokio Universiteti və Yaponiya Riken Tədqiqat İnstitutunun alimləri məntiq və hesab əməliyyatlarını apara bilən yeni cihaz yaradıblar. Elektrik sahələrindən istifadə edərək ultrabənövşəyi işıq ilə idarə olunan cihaz kimyəvi təbiətə malikdir.

**www.dailytechinfo.org** saytının məlumatına görə, kimyəvi hesablama qurğusunun əsasını səthində spiral pilləkən formasına bənzər formaları yığa bilən xüsusi molekullar yerləşmiş disk təşkil edir. Bu molekullar sütunlu maye kristal (columnar liquid crystals, CLC) adlanır. Elektrik sahələrin və işığın təsiri CLC-molekullarında müxtəlif formaların yaranmasına səbəb olur. Tədqiqatçılar qeyd edir ki, bu proqramlaşdırılmış kimya üzrə ilk tətbiqdir.

Hesablama funksiyalarının icra edilməsi üçün CLC-molekulların nümunələri onlara daxil edilmiş elektrodlu iki şüşə lövhənin arasında yerləşir. Bununla yanaşı, molekullar müəyyən tezliklə modullaşdırılan polyarlaşmış ultrabənövşəyi şüa ilə işıqlandırılır. Mühitdə CLC-molekullar olduğu zaman elektrik sahə və işıq hərəkət etməyə başlayaraq molekullar işığın keçməsinə mane olur. Ötürülən işıq səviyyəsi tənzimləyici vasitəsilə qeyd edilir.

# Onomastika məktəbinin yaradıcısı

## Dilçilik elminin fədaisi və təhsil təşkilatçısı

**Mahirə HÜSEYNOVA,**
*filologiya üzrə elmlər doktoru, professor, Azərbaycan Dövlət Pedaqoji Universiteti filologiya fakültəsinin dekanı*

Onu, birmənalı olaraq, XX əsr Azərbaycan dilçilik elminin ən görkəmli nümayəndələrindən biri hesab etmək olar. Bu təkcə onunla bağlı deyil ki, o, Azərbaycan dilçiliyinin ən həssas problemlərini tədqiqata cəlb edərək hər bir suala əsaslandırılmış elmi cavab vermişdir, həm də onunla bağlıdır ki, dilçilik elminin gələcək nəsil nümayəndələrinə gedilməli yolu göstərmiş, qarşıda duran vəzifələrin toplusunu təqdim etmişdir. Minnətdarlıq duyğusu ilə yada salırıq ki, müasir dilçiliyimizdə ədəbi dilin fonetikası, leksikologiyası, frazeologiyası, leksikologiya və derivatologiyasının ardıcıl və sistemli tədqiqi onun adı ilə bağlıdır. Bir faktı da xatırladaq ki, Azərbaycan dilinin onomalogiyasının elmi tədqiqi, bu sahədəki yaradıcılıq işləri də onun adı ilə bağlıdır.



O, həmin insanlardan biridir ki, xalqımızın müasir və gələcək həyatındakı ən mühüm faktlarından birinin- latın qrafikası ilə hazırlanan yeni əlifbamızın müəllifi kimi də tarixə düşüb. XX əsrin sonlarına yaxın, ötən əsrin 90-cı illərində Azərbaycan əlifbasının dəyişdirilərək latın qrafikası əsasında yaradılması ilə bağlı siyasi qərar verildikdən sonra Azərbaycan Əlifba Komissiyasının sədrliyi ona tapşırıldı.

Əlifba layihəsi Azərbaycan dilinin səs sistemi və digər xüsusiyyətləri nəzərə alınmaqla hazırlanaraq Komissiyanın müzakirəsinə verildi. Ölkə ziyalılarının və ictimaiyyət nümayəndələrinin yaxından iştirakı ilə geniş müzakirələrə çıxarılan əlifba layihəsi, nəhayət, 1992-ci ildə qəbul olundu.

Onu, sözün əsl mənasında, Azərbaycan dilçilik elminin fədaisi saymaq olar.

Söhbət Afad Məhəmməd oğlu Qurbanovdan gedir. Afad Qurbanovun qazandığı elmi titulları və elmi araşdırmaları ilə bərabər göstərdiyi ictimai-siyasi mövqe bir insan ömrünün çoxşaxəli fəaliyyət konturlarını tam olmasa da aydın göstərə bilər. Filologiya elmləri doktoru, professor olaraq özünü elmi cəmiyyətə təqdim edən Afad Qurbanovun sonrakı elmi və ictimai uğurlarının təqdimatı belədir: Azərbaycan Əlifba Komissiyasının sədri və hazırkı Latın qrafikalı Azərbaycan əlifbasının müəllifi, Azərbaycan SSR Natiqlik Cəmiyyətinin sədri, SSRİ Pedaqoji Elmlər Akademiyasının akademiki, Azərbaycan SSR Elmlər Akademiyasının üzvü, Əməkdar elm xadimi və Azərbaycan SSR Dövlət Mükafatı laureatı.

Bütün bunlarla bərabər, Afad Qurbanov həm də ölkəmizdə səriştəli təhsil təşkilatçısı kimi tanınmışdır. O, orta məktəbin direktoru olaraq gəldiyi ali məktəbdə, vaxtı ilə məzunu olduğu bugünkü Azərbaycan Dövlət Pedaqoji Universitetində dekan müavini, dekan, daha sonra rektor vəzifələrində işləyərkən hər bir məqamda təhsilin müasir standartlara cavab verməsi, müasirliyi uğrunda çalışmışdır.

Ümumiyyətlə, Azərbaycan dilçilik elmində onun yeri və mövqeyi haqqında qənaət belədir: fonetika Ə.Q Dəmirçizadə və A.Q.Axundovun, leksikologiya S.Cəfərovun, dialektologiya M.Şirəliyevin, morfologiya M.Hüseynzadənin, sintaksis Ə.Abdullayevin, dil tarixi H.Mirzəzadə, Ə.Dəmirçizadə və T.Hacıyevin, morfologiya F.Cəlilovun, onomalogiya isə A.Qurbanovun adı ilə bağlıdır.

Akademik Afad Qurbanov əsası Bəkir Çobanzadə tərəfindən qoyulmuş Azərbaycan dilçiliyi məktəbinin görkəmli nümayəndəsidir.

Xatırladaq ki, onomastika ötən əsrin 60-cı illərində müasir Azərbaycan dilçiliyinin prioritet istiqamətlərindən biri olub, diqqəti ən çox cəlb edən vacib elmi-tədqiqat sahələrindən birinə çevrilib. Ümumiyyətlə, dildəki hər bir xüsusi adın -onomastik vahidin ictimai-tarixi inkişafın məhsulu olduğunu yada salsaq, bu sahənin əhəmiyyətini daha aydın təsəvvür etmək olar. Xüsusi adlar keçmişin izlərini özündə mühafizə edib müasir zamana kimi gətirən real faktordır, tarixin canlı şahidləridir. Buna görədir ki, Afad Qurbanov onomastik tədqiqatın əhəmiyyətini və həmin qədər də məsuliyyətini nəzərə alaraq bu sahədə ciddi elmi tədqiqatları sistemli, ardıcıl şəkildə apararaq Azərbaycan dilçilik elmində onomastika məktəbini yarada bildi.

Afad Qurbanov onomastik vahidlərin özünəməxsus spesifik cəhətlərini nəzərə alaraq onların hər birinin sosial işarələr olduğu qənaətində idi və buna görə onomastik vahidlərin tədqiqini bir neçə cəhətdən əhəmiyyətli hesab edirdi:

a) dilin lüğət tərkibinin bütövlüklə xarakteristikasını vermək üçün onomastik vahidlərin tədqiqi son dərəcədə vacibdir;

b) onomastik vahidlərin çoxunda indi olmayan forma və anlayışların izi qala bildiyinə görə bunların tədqiqi dilçiliyin ən mürəkkəb və mühüm sahələri hesab edilən dil tarixi, dialektologiya və üslubiyyat üçün zəruri faktlar verə bilir;

c) onomastik materialın öyrənilməsi dilçiliklə yanaşı tarix, etnoqrafiya, sosiologiya və coğrafiya elmlərinin bir sıra problemlərinin açılmasına kömək edir;

ç) onomastik vahidləri düzgün bilmək və yazmaq insanın ümumi mədəniyyətinə təsir edən vasitələrdəndir.

Buna görədir ki, akademik A.Qurbanov onomalogiyanın tədqiqat obyektinin istiqamətlərini belə yönəldilməsini zəruri sayırdı:

- Dilimizin leksikasındakı xüsusi sözlərin müxtəlif cəhətlərini araşdırmaq;

- Xüsusi sözlərin mənşəyini, areallığını, dil mənsubluğunu müəyyənləşdirmək;

Xüsusi sözlərin struktur cəhətlərini, yaranma yollarını, semantikasını, dildəki üslubi çalarlarını və s. öyrənmək.

Afad müəllimin onomalogiyaya dair 100-ə qədər məqaləsi həmin istiqamətlərin araşdırılmasına başlıca xidmət nümunəsi sayılır. Onun “Müasir Azərbaycan ədəbi dili” (“Onomalogiya” bölməsi), “Azərbaycan onomastikası”, “Azərbaycan onomalogiyası məsələləri”, “Poetik onomastika, “Azərbaycan dilinin onomalogiyası” kimi sanballı monoqrafiyalarında onomastik vahidlərin tədqiqi tarixi, onomastik mənbələr, onomalogiyanın elmi-nəzəri məsələləri kompleks və sistemli şəkildə tədqiq edilmişdir.

Hökmən yada salmağı lazım bilirik ki, Azərbaycan dilçiliyi tarixində ilk dəfə olaraq antroponimlərin inkişafı dövrlərini müəyyənləşdirən, hər bir dövrün səciyyəvi cəhətlərini konkret dil faktları ilə əsaslandıran da A.Qurbanov olmuşdur. Gərgin və ardıcıl elmi tədqiqatlarının nəticəsi olaraq meydana çıxardılan “Azərbaycan dilinin onomalogiyası” monoqrafiyasının Dövlət Mükafatına layiq görülməsi alim əməyinə verilən ən böyük qiymət oldu.

Afad Qurbanovun bu istiqamətdəki fəaliyyətinin bir epizodu ilə bağlı akademik Məmmədağa Şirəliyev “Azərbaycan müəllimi” qəzetində yazdığı (15.09.1989-cu il) məqalədə belə deyirdi: “Afad Qurbanovun 1989-cu ildə “Maarif” nəşriyyatında buraxılan 30 çap vərəqi həcmində “Azərbaycan dilinin onomalogiyası” adlı əsəri təkcə bizim dilçiliyimiz üçün deyil, ümumsovet və dünya türkologiyası üçün çox qiymətlidir”.

Ümumiyyətlə, Afad Qurbanovun alim kimi tədqiqat meydanının arealı heyrətamiz genişliyi ilə diqqəti cəlb edir. Onun istər ümumi dilçilik məsələləri, istərsə də ədəbi dil problemləri, Azərbaycan dilinin onomalogiyası, türkoloji dilçilik, ali məktəb pedaqogikası və metodikası, qədim türk yazılı abidələri, əlifba məsələsi və digər sahələr üzrə tədqiqatların genişliyi alimin nə qədər məhsuldar olduğunu açıq-aydın göstərir.

Afad Qurbanov ancaq alim ömrünün deyil, vətəndaş borcunun da məsuliyyətini dərk edən və həmin vətəndaşlıq borcunun diqtə etdiyi mövzular üzrə çalışan elm fədailərindən olubdur. Onun həmin “borc” hissinin diqtəsi ilə yazdığı, 1977-ci ildə nəşr olunmuş fundamental “Ümumi dilçilik” dərs vəsaiti buna görə idi ki, işıq üzü gördükdən dərhal sonra elmi ictimaiyyətdə geniş rezonans doğurdu. Bu, birinci növbədə işıq üzü görən dərsliyin keyfiyyət göstəriciləri ilə bağlı idi.

Konseptual yanaşmaları ilə diqqət çəkən dərslik üzərində müxtəlif zamanlarda işləyərək, onu mükəmməlləşdirən akademik Afad Qurbanov 1989-93-cü illərdə dünya dilçiliyinin prinsipial məsələlərinin də geniş əhatə olunduğu “Ümumi dilçilik” dərsliyini nəşr etdirdi. Bu gün də Azərbaycanın ali məktəbləri üçün əvəzolunmaz olan həmin dərslikdə dilçilik elminin yaranması və inkişaf tarixi, nəzəri dilçiliyin əsas şöbələri barədə müfəssəl və geniş məlumat verilir. Akademik Afad Qurbanovun alim olaraq tədqiqata cəlb etdiyi sahələr üzrə iş prinsipi heç vaxt dəyişmədi: “Dil - canlı orqanizmdir”. Onun baxışlarına görə, dilin başlıca faktor olduğu cəmiyyətdə gedən dəyişikliklər, inkişaf onun da inkişaf dəyişmələrini diqtə edir, bu isə yeni tədqiqat elementlərini meydana çıxarır. Ona görə də o, mükəmməl olduğu qədər də fundamental olan “Ümumi dilçilik” dərsliyi üzərində yenidən işləmək qərarına gəldi. Beləliklə də növbəti əlavələrdən sonra akademik Afad Qurbanovun “Ümumi dilçilik” kitabı əvvəlki nəşrdən iki dəfə böyük həcmdə 2004-2010-cu illərdə latın qrafikası ilə nəşr olundu. Onu qeyd edək ki, dünya dilçiliyi və türk dillərinin mövqeyinə dair yeni baxışların ortaya qoyulduğu əsər rus və türk dillərinə tərcümə olunaraq Rusiya və Türkiyədə üç cilddə çap edildi.

Əlbəttə, ümumi dilçiliklə bağlı hərtərəfli tədqiqatlardan yaranan akademik baxışların meydana gəlməsi gərgin və ardıcıl alim əməyinin məhsulu idi. Ona qədər professor Afad Qurbanov “Ümumi dilçilik məsələləri” dərs vəsaitini, “Dilçiliyin tarixi”, “Dilçiliyin sistemi” kitablarını ərsəyə gətirmişdi.

Tam cəsarətlə demək olar ki, professor Afad Qurbanov müasir Azərbaycan dilçiliyinin bütün sahələri üzrə öz sözünü demişdir. Etiraf olunan həqiqətlərdən biri də budur. Müasir Azərbaycan ədəbi dilinin fonetikası, leksikologiyası, frazeologiyası, leksikoqrafiyası və derivatologiyasının sistemli və ardıcıl elmi tədqiqi məhz professor Afad Qurbanovla başlamışdır-fikri də elmi ictimaiyyət tərəfindən qəbul edilən həqiqətlərdəndir. Bu xüsusda onu da vurğulamaq hökmən lazımdır ki, onun elmi yaradıcılığında dialektologiya məsələləri xüsusi yer tutur.

Akademik Afad Qurbanovun çap etdirdiyi “Cücəkənd şivəsi” və “Qərbi Azərbaycanın “Cucəkənd şivəsi” kitablarını həmin xüsusisatda məxsusi qeyd etmək olar. Həmin kitablarında Cucikənd şivəsi əsasında müasir Azərbaycan linqvo-filologiyasının dialektoloji tədqiqat sahələrinin genişləndirilməsi zərurətindən danışmaqla ləhcə, dialekt və şivə anlayışları bir-birindən fərqləndirilmiş, dialektoloji araşdırmaların yeni istiqaməti müəyyənləşdirilmiş, öncə dialekt və şivələrin fonetika- leksikasının, daha sonra isə qrammatikasının öyrənilməsi daha məqsədəuyğun sayılmışdır.

Bəli, Afad Qurbanovun elmi yaradıcılığı Azərbaycan dilçiliyinin bütün sahələrini əhatə etmişdir, o cümlədən həmin yaradıcılıq nümunələrində türkoloji dilçilik məsələlərinə aid xeyli nümunələr tapmaq olar. Bu cəhətdən alimin türk dünyasının dil materiallarının tədqiqata cəlb edilmiş hissəsi ilə bağlı elmi qənaəti xüsusi maraq doğurur. Professor Afad Qurbanovun elmi tədqiqatlarında qədim türk tayfa və qəbilələrinin mənşəyi, dili, təşəkkül tarixinin öyrənilməsi xüsusi yer tutur. Həmin araşdırmalara 40 ilə yaxın vaxt sərf edən professorun elmi nəticələri müxtəlif vaxtlarda nəşr olunan “Türkoloji dilçilik”, “Türk antroponimlərinin inkişaf dövrü”, “Ümumtürk antroponimiyası tarixi”, “Türkoloji dilçiliyə dair biblioqrafiya”, “Ortaq türk dili” və başqa kitablarda elmi ictimaiyyətə və geniş oxucu kütləsinə təqdim edilmişdir.

Nəhayət, 1999-cu ildə Afad Qurbanov özünün türkoloji dilçiliyin əsas problemlərinə həsr olunmuş “Ortaq türk ədəbi dili” kitabını təqdim etdi.

Parlaq alim ömrü yaşamış Afad Qurbanovun ictimai-siyasi proseslərdən kənarda qalmadığı da onun tərcümeyi-halının hər bir faktından məlumdur. O, 1990-cı ilin 20 Yanvarında xalqımıza qarşı dövləti cinayətə ilk etiraz edənlərdən olub. Dövlət müstəqilliyimizin bərpasından sonra isə o, ölkəsinin taleyi üçün keçirdiyi narahatlıqları dilə gətirməkdən çəkinməyib. Belə məqamlardan birində, dövlətçiliyimiz təhlükə altında olduğu məqamlarda ümummilli lider Heydər Əliyevə qarşı çıxan qüvvələri ifşa edən bəyanatla “Səs” qəzetinin 1992-ci il 17 dekabr tarixli nömrəsindəki münasibəti isə Azərbaycan Parlamentinin üzvü Afad Qurbanovun vətəndaş mövqeyindən xəbər verirdi.

Ümumiyyətlə, akademik Afad Qurbanovun taleyini şərəfli alim-vətəndaş ömrünə nümunə kimi göstərmək olar.

"Məktəb illəri"

# "Müəllimlik böyük səbirdən başlayır"

## *Sərvinaz Abbasova:* "Elə bilirəm ki, ancaq və ancaq müəllim olmaq üçün doğulmuşam"










Jalə MÜTƏLLİMOVA

Maraqlıdır insanlar. Hərəsi bir kitabdır. Həmsöhbətimiz 286 nömrəli orta məktəbin qabaqcıl müəllimi, ibtidai siniflər üzrə metodist Sərvinaz Abbasova kimi. O, özündən danışır, mən dinləyirəm. İllər öncə Pedaqoji İnstituta qəbul üçün imtahan versə də, nəticəyə nail ola bilməyib. Ona görə yox ki, savadı, bacarığı çatmayıb. Ona görə ki, anasının ağır xəstələndiyi və əməliyyat olunacağı xəbərini alıb. Təhsilini başlamamış yarıda qoyub, Qafana qayıdıb. Bir müddət sonra ailəsinin məcburi köçkün ediləcəyi kəndə. Uzun müddət anasına qulluq edib və qərara gəlib ki, institutun qiyabi fakültəsinə təkrar sənəd versin. Sonra atasına maraqlı bir təklif edib. Məni yanında işə götür. Sərvinaz müəllim deyir ki, atasının katibəsi işləyəndə ona bir tövsiyə verib. Söyləyib ki, həmişə qürurlu ol, məndən də kim nə danışsa, sus, müdafiə etmə. Kimsəylə münasibətlərini atan olan müdirinə görə pozma. Bəlkə kiminsə qəlbinə toxuna bilər sözüm, o da deyinər, sən istənilən halda sus. Bu məsələlərə sənin aidiyyətin olmamalıdır. Müəllimə deyir ki, gənc kadr kimi aldığı bu ilk dərs onun hələ də həyat prinsipi olaraq qalır. Bir də anasını xatırlayır. Anam qulluğunda durub əziyyət çəkməyimə pis olurdu. Deyirdi mənə görə işin yarıda qaldı, fədakar qızım... Mənə həyatda bundan böyük qiymət ola bilməz. Anamın fədakar qızı idim.

Bu fədakarlığına qədərsə o, Abbasovlar ailəsinin balaca bir qız cocuğu idi...

### Qafanlı qız...

Əslən Qərbi Azərbaycandanıq. 1960-cı ildə Qafanda anadan olmuşam, ziyalı ailəsində. Atam kəndimizin məktəbində direktor idi, anamsa evdar qadın. Ailədə altı uşaq olmuşuq, üç bacı, üç qardaş. Mən ortancıl, üçüncü qız övladı idim. O vaxt insanların çoxu üstünlüyü oğlan övladına verib. Nənə mən doğulanda zarafatla deyib ki, gəlin bu qızın adını Bəsti qoyaq. Babam uzun müddət Bakıda neftçi işləmişdi, onun baxışı, dünyagörüşü dövrünə görə çox fərqli idi. Deyib ki, hamınızın acığına qızlarımı nazlandırmağa davam edəcəyəm. Yəni əvvəli nə olsa, sonu ancaq "naz"la bitəcək. Mənim adım belə Sərvinaz olub. Ancaq qəribə burasıdır ki, məndən sonra üç qardaşım dünyaya gəlib. Beləcə, bizdən babam qədər nənəm də razı qalıb.

### Ağlımdakı Qafan...

Dünyanın harasına getsəm də, mənim üçün vətən Qafandır. Bu gün belə geri dönərəm. Kəndimiz, xatirələrim, uşaqlığım, gözəl anlar, yaxınlarımızın məzarları, hər şey ordadır. Ora bizim bir parçamızdır. Təbiətinin isə müqayisəsi yoxdur. Kislovodski görmüsünüz yəqin. Bax, oranı görmüş, Qafanı görmüş, çox yaxın təbiəti var bu iki şəhərin. Mənə bir müddət öncə görüntülərin təqdim etmişdilər. Baxdm ki, bizim kənddə yaşayış var. Evimizdə də kimsə yaşayır, özümü saxlaya bilmədim, ağladım, o günlər film lenti kimi gözümün qarşısından keçdi. Ordan atamın, anamın, qardaşımın necə gəlməsini unuda bilmirəm.

### Ailəmi qoruyan ştamp...

O zaman azərbaycanlıları çıxaranda böyük təhlükə var idi. Adamları çox incidirdilər. Bu səbəbdən atam rəhbərlik etdiyi məktəbin dövlət əhəmiyyətli sənədlərini özü ilə götürdü. Düzdür, cinayətlərini edirdilər, amma dövlət qulluğunda olan azərbaycanlılara açıq-aşkar təzyiq edə bilmirdilər, qorxurdular. O üzdən bizim ailənin əşyalarını maşınla sərhədə qədər gətirdilər. Atam şərt qoymuşdu ki, bizim adamların birinə də bir şey olmamalıdır. Əks halda ştampı onlara verməyəcəyini bildirmişdi. Niyə bilmirəm, amma çəkinib bir söz deməmişdilər və bizimkilər sərhədi keçəndən sonra atam sənədləri verib özü keçmişdi.

İndi atam da, anam da dünyasını dəyişib. Hər ikisində vətən, torpaq nisgili var idi. Qafandan gələn gündən anam nə yedi, nə içdisə, "bala, ağzımın dadı yoxdur",- dedi. Qardaşlı-bacılı ona etmədiyimiz, almadığımız qalmırdı. Axırda gedib qardaşlarım bazarlığını Ordubaddan edirdi ki, ay ana, dağın o tərəfi Qafandır, bu tərəfi Ordubad, özümüzün, qohumlarımızın həyətindən ting gətirib əkib becəriblər bu meyvələri. Meyvəni ovcunda tutur, bəzən bir balaca dişləm alıb, yavaşca yerə qoyub kövrəlir, deyirdi: "Sizi inandıra bilmirəm ki, heç birindən Qafan torpağının dadı gəlmir". Sizə deyim ki, anam qədər Qafanın həsrətini çəkən ikinci adam kiçik qardaşımdır. Bilmirəm, bəlkə də ona görə ki, ata-anamla kənddən ən son çıxan o idi. İndi də deyir ki, hər şey düzəlsə, mən bu dəqiqə qayıdaram. Baxmayaraq ki, burda qurduğu şəraiti ora qayıtsa bəlkə də qura bilməz.

### Direktor atanın şagird övladları...

Əslində, bəlkə kimsə deyər ki, ata rəhbər olan yerdə şagird olmaq asandır, bütün müəllimlər güzəşt edər. Mən deyirəm ki, bu, ağırdır və məsuliyyətdir. Hər gün anam altı uşağın altısını da qarşısına alıb bir-bir dərslərini soruşurdu. Cəsarətimiz çatmazdı bir cümləsinə cavab verməməyə. Bunun üstündən də axşam atama dərs danışardıq. Anam atamdan söz eşitməsin deyə, bizim hazırlıqsız olmağımıza yol verməzdi. Bundan başqa, əynin həmişə səliqəli, saçın hörüklü olmalı idi. Bir artıq hərəkət etməyin də mümkün deyildi. Üstəlik, müəllimlərin də tapşırığı var idi. Düzü, o zamanlar bezirdik, nə qədər oxumaq olar axı. İndi nail olduqlarımız göstərir ki, oxumasaydıq, nəsə edə bilməzdik. İndi bəzən öz övladlarım da deyir bunu mənə hərdən. Tələbkar olmağımı yadıma salır. Hərdən oğlum deyir ki, "ay ana, mənə məktəbdə nəfəs almağa imkan vermirdin". Deyirəm, oğul, nəfəs alsaydın, BDU-nun hüquq fakültəsini fərqlənmə ilə bitirib, indi işlədiyin yerdə işləyə bilməzdin.

### Məşulət müəllim...

Bir tarix müəllimim vardı, Məşulət müəllim, qəribə addır, bilirəm. Amma onun kimi gözəl mütəxəssis indi çıraqla gəzilir bəlkə. Mənim tarix dərsindən gedib kitab oxuduğum yadıma gəlmir. Həmişə də ən yüksək qiymət almışam. Dərsi elə izah edirdi ki, onun dediklərini kitabdan oxumağa ehtiyac qalmırdı. Səhər demək olar ki, hər kəs dərsinə hazır gəlirdi.

### Müslət müəllim...

Bir də Müslət müəllimi heç zaman unutmaram. O zaman qadın müəllimlər son dərəcə az idi. O üzdən ibtidai siniflər üzrə metodistlərin də çoxu kişi müəllimlər idi. İndi statistika aparsaq, bəlkə belə adamlar artıq yoxdur. Yəni ibtidai siniflər üzrə metodist olan kişi müəllimlərini deyirəm. O adam dərsi o qədər sadə, rahat keçirdi ki, yorulduğum yadıma gəlmir. Mən evə gələndə onun kimi dərs keçirdim rəfiqələrimə. Elə ibtidai sinif müəllimi olmağım da ona baxıb həvəslənməyimin nəticəsi idi. Sizə bir söz də deyim. İndi dövr və zaman fərqlidir. Düşünəndə mənə elə gəlir ki, insanlar səbirsiz olub. Amma mən bizim peşədə olan bütün həmkarlarıma məhz bunu diləyirəm, səbirli olmağı. Çünki bütün uğurlara ancaq səbirlə nail ola bilərik.

### 52-də başlayan pedaqoji yol...

Müəllim kimi ilk iş yerim 52 nömrəli məktəb olub. Bir gün direktorumuz 286 nömrəli məktəbə yeni təyinat aldı. Məni yanına çağırıb dedi, qızım, sən və daha iki müəllim bu məktəbdən mənim yeni təyin olunduğum yerə gedəcəyik. Əvvəlcə razılıq verdim. Bu, mənim həm də pedaqoji qabiliyyətimə verilən qiymətdir deyə düşündüm. İndi sizinlə söhbət etdiyim bu məktəbə gəldiyim ilk gün yadıma düşəndə, inanın, bu gün də dəhşətə gəlirəm. Məktəb yeni inşa edilmişdi. Amma təmir işləri tam başa çatdırılmamışdı. Niyəsini soruşsanız, o illər bütünlükdə ölkəmiz üçün ağır illər idi. Qaçqın, məcburi köçkünlər problemi vardı. Üstəlik, məktəbin yerləşdiyi qəsəbə yeni salınırdı. Binaya girmək üçün normal yol belə yox idi. Siniflərin vəziyyətindən isə ümumiyyətlə, danışmağa dəyməz. Sinif deyə bir şey yox idi. Boş, yarıtəmir olunmuş otaqlar idi. Hələ köçməmişdən, dərslərə başlamamışdan xeyli iş görülməsinə ehtiyac var idi. Düşündüm ki, mənim gücüm çatan iş deyil bu. O üzdən direktoruma bildirdim ki, mən bu şərtlərdə işləyə, dərs deyə, uşaq yetişdirə bilmərəm. O isə diqqətlə üzümə baxıb dedi ki, oranı düzəldib işə salmağı dövlət mənə tapşırıb. Mən də düşünürəm, yaxşı müəllim olmasa, ora nə uşaqlar cəlb etmək olar, nə də iş görmək.

Bilmirəm başqalarında necədir, mən peşəmin fanatıyam. Elə bilirəm ki, ancaq və ancaq müəllim olmaq üçün doğulmuşam. O üzdən bu söz mənə çox təsir etdi. Baxmayaraq ki, kənar məktəblərdən müəllimlər bura gəlmək üçün çox müraciət edirdi, amma direktor razılaşmırdı. Onun kadr seçimi standartı başqa idi. Beləcə, mən haradasa 80-ci illərin əvvəllərində burada fəaliyyətə başladım.

### Ailəmi də cəlb etdim...

Məktəb deyəndə mənim üçün təxminən durum bu olur, elə bilirəm axar sular durulur. O üzdən ailə üzvlərimlə danışdım. Onlara vəziyyəti izah etdim. Mənim ailəmin üzvləri də məcburi köçkün həyatı yaşayıblar, bu ərazidəki ailələrin əksəriyyəti məhz o kontingent idi. Beləcə, ailəmlə birlikdə məktəbdə, xüsusən də öz sinfimdə təmizlik işləri aparmağa başladıq. İndi gördüyünüz şəraitin yaranması üçün günlərlə çalışdıq və istədiyim nəticəni aldım. Mənimlə birgə direktorumuz da öz üzərinə düşən işi artıqlaması ilə gördü. Eyni qaydada ilə məktəbə birlikdə gələn iki həmkarım da işləyirdi. Baxdıq ki, məktəbdə işlər görüldükcə həm bizim adımızı eşidən, həm də ümumiyyətlə, ərazi baxımından yaxınlıqda olan ailələr uşaqlarını bizə yönəldir. Sevindiricidir, vacib bir iş görürsən. Uşaqlara təhsil verirsən, insan, vətəndaş yetişdirirsən. Bunun üçün seçilmiş beş-on adamdan biri olursan. Elə şeylər var ki, ondan aldığın qüruru heç nəylə əvəz etmək olmur. Mən o hissi məhz bu məktəbdə, o müəllim masasının arxasında yaşamışam.

Düzdür, indi də bəzi dəyişikliklərə ehtiyacımız var. Bu istiqamətdə isə bir neçə ildir birgə işlədiyimiz yeni direktorumuz Samir müəllim əlindən gələni edir. Gördüyümüz işlərin qarşılığında çox yaxşı nəticələr gözləyirik. Ümid edirəm ki, məktəbimizdə köklü təmir işlərinə başlanılacağı gün də uzaqda deyil.

**Əslində, bəlkə kimsə deyər ki, ata rəhbər olan yerdə şagird olmaq asandır, bütün müəllimlər güzəşt edər. Mən deyirəm ki, bu, ağırdır və məsuliyyətdir. Hər gün anam altı uşağın altısını da qarşısına alıb bir-bir dərslərini soruşurdu. Cəsarətimiz çatmazdı bir cümləsinə cavab verməməyə. Bunun üstündən də axşam atama dərs danışardıq.**

### 20 Yanvarda ağlamayaq...

Məktəbimizdə tədbirlər keçirməyə həmişə meyilli olmuşuq. Son tədbirimiz 20 Yanvar şəhidlərinin anım gününə həsr edildi. Sizə bir söz deyim. İndi 20 Yanvar tədbirlərinin demək olar ki, əksəriyyətində daha çox ağlayır, kövrəlirik. Əslində, mən düşünürəm ki, o an və gün bizim qürur yerimizdir. Müstəqilliyimizə gedən yolda ən böyük fəxarətlərimizdən biridir. Həmin gün məktəblərdə daha çox vətənpərvərlik, dövlət, millət haqda materiallar təqdim etməliyik. Tarixi şəxsiyyətlərimizin müstəqillik yolundakı həyatlarından danışmalıyıq. Məncə, kədər və göz yaşı dolu mətnlər uşaqları qorxaq, cəsarətsiz və çarəsiz edir.

### Güllə altında...

Əslində, mən o günü şəxsən yaşamış adamam. Xatırlayırsınızsa, həmin ərəfədə Bakının müxtəlif yerlərində müdafiə postları qurulmuşdu. Mənim qardaşlarım da hamı kimi orda növbədə olurdu. Güllələr atılmağa başlayanda özümü saxlaya bilmədim, onlara yollandım. Gördüm qardaşım biri növbədən yeni qayıdıb, amma o birilər yoxdur. Yavaşca evdən çıxdım. Həmin gecə xeyli axtardım qardaşlarımı, tapa bilmədim. Səhərəcən həyəcanla gözlədim. Meyitlərin arasında yox idi. Uzun bir müddətdən sonra gəlib çıxdılar. Dedi biz postda olanda hücuma başladılar. Hamı qorunmaq üçün yerə uzandı. Bir o ağlımda qaldı ki, məni ayağımdan kimsə sürüyür. Başımı qaldırmaq istəyəndə, qışqırdı ki, qalxma, sonra bir də o ağlımda qalıb ki, məni metro keçidinə sürüyüb gizlədilər. O müddətdə nə gördüyünü, nədən təlaşda olduğunu daha soruşmadım. Amma dəqiqi bildiyim bir şey var, gördüyü dəhşətdən uzun müddət özünə gələ bilmədi...

### Qazancım olan uşaqlar...

Son olaraq sizə bir söz deyim. Mənim şagirdlərimi son dərəcə böyük məhəbbətlə sevməyim müxtəlif mərhələlərdə qarşıma çıxıb. Gəlinimi həkimə aparmışdım, həkimin kim olduğunu da hələ ki, bilmirdim. Bir də gördüm gənc bir xanım həkim qollarını açıb üstümə yüyürür. Əvvəl bir şey anlamadım həkimin bu jestindən. Sonra özünü təqdim edəndə bildim ki, ilk müəllimi mən olmuşam.

Bir dəfə də toy mərasimində gördüm iki yaraşıqlı adam mənə sarı gəlir. Hamı da bilirmiş ki, onlar nüfuz sahibidirlər. Mən onları tanımasam da, onlar məni tanımışdılar. Boyunlarını qucaqlayıb kövrəlmişdim. Ürəyimdə də düşünürdüm ki, yoluna çıxdığım bu uşaqlar mənim həyatdakı ən böyük qazancımdır...

**SON:** *Müəllim təkcə hər şey, ya da konkret bir elm barədə yaxşı bilən, onu adama yaxşı izah edən deyil. Müəllim olduğu həm də insanın simasına baxanda hiss olunmalıdır. Həmsöhbətimiz Sərvinaz müəllim məhz o simalardandır. Pedaqoji sifəti olan insan. Bu, bizə lazım olan ən gərəkli göstəricilərdən, keyfiyyətlərdəndir.*

# "İgid ölər, adı qalar"

## Şöhrəti zamana sığmayan qəhrəman

**Ofelya MİRZƏMMƏDOVA,**
*Bakı şəhəri K.Əyyubov adına 12 nömrəli tam orta məktəbin Azərbaycan dili və ədəbiyyat müəllimi*

Doğma torpağımızı qoruyan, onun hər daşına, çiçəyinə, otuna, hər damcı suyuna, dərəsinə, təpəsinə, qayasına önəm verən qəhrəmanlar... Canını Vətən yolunda fəda edən şəhidlər... Qeyrət timsallı babalarımızın bizə əmanət qoyub getdiyi torpaq uğrunda canını tapşıran igidlər... Ana və Vətən müqəddəsliyi önündə diz çökən oğullar... Mehdi Hüseynzadə.

Misilsiz qəhrəmanlığını vəsf etmək üçün söz belə gücsüzdür. Buna baxmayaraq danışmaq, hayqırmaq, səsimizə Koroğlunun nərəsini, Xəzərin coşqun səsini qataraq qəhrəmanlığını anlatmaq istəyirik. Nə qədər danışsaq da, bəs etməz. Bizim unudulmaz, igid Mehdimiz, sənə mahnılar bəstələnib, şeirlər yazılıb, adına məktəblər, küçələr verilib, çox yerdə heykəllərin ucalıb. Amma yenə kifayət etməz. Səni hər gün anmaq, xatırlamaq borcumuzdur, əziz Mixaylomuz.

Azərbaycan xalqının qəhrəman oğlu, İkinci Dünya müharibəsi dövründə antifaşist müqavimət hərəkatının görkəmli nümayəndəsi, Sovet İttifaqı Qəhrəmanı Mehdi Hənifə oğlu Hüseynzadənin anadan olmasının 100 illiyi 2018-ci ilin dekabrında tamam oldu. Azərbaycan Respublikası Prezidentinin Sərəncamına əsasən, igid həmvətənlimizin yubileyinin ölkə səviyyəsində qeyd edilməsi onun əziz xatirəsinə hörmət və ehtiramın nümunəsinə çevrildi. Digər təhsil müəssisələrində olduğu kimi bizim məktəbdə də bu günlərdə möhtəşəm bir anım tədbiri düzənləndi. Ölməz qəhrəmana məhəbbətimizi bildirmək üçün təşkil etdiyimiz tədbir 7 d sinif şagirdi İlkin Həsənovun ifasında himnimiz haqqında şeirlə başlandı.

*Qəhrəman babaların,*
*vüqarı var səsində,*
*Anlat Odlar yurdunu,*
*bütün Yer Kürəsində.*
*Azərbaycan himnimiz,*
*Azərbaycan himnimiz!*

Zalda möhtəşəm himnimiz hər kəsin könlündə, dilində əzəmətlə səsləndi. Sonra qəhrəmanımızın xatirəsini bir dəqiqəlik sükutla yad etdik. Aparıcılar - 11 d sinif şagirdləri Esmira Bağırzadə və Əsəd Abaslı Mehdi Hüseynzadənin həyat yolu haqqında geniş məlumat verdilər. Dedilər ki, Mehdi 1918-ci il dekabrın 22-də Bakının Novxanı kəndində dünyaya göz açıb. Orta məktəbi yaxşı qiymətlərlə bitirib. Sankt-Peterburq İncəsənət Akademiyasının Rəssamlıq bölməsinin məzunu olub. Alman, rus, fransız və italyan dillərini mükəmməl bilib. 1941-ci ildə, Böyük Vətən müharibəsi başlayanda könüllü olaraq müharibəyə gedib. 1942-ci ildə Stalinqrad yaxınlığında almanlara əsir düşüb. Oradan qaçıb Yuqoslaviya partizan dəstələrinə qoşulub. Faşistlərə ağır zərbələr vurub... Aparıcılar qəhrəmanın həyatının son anlarına işıq salaraq ölümü ilə belə düşmənləri qorxutmasını qeyd etdilər.



Tədbirdə çıxış edənlər Mehdi Hüseynzadənin ibrətamiz həyat yolunun bu gün Vətənimizin sərhədlərini qoruyan gənclər üçün əsl nümunə olduğunu bildirdilər. Mehdi Hüseynzadənin faşizmə qarşı mübarizədə apardığı çoxsaylı uğurlu kəşfiyyat əməliyyatları və nümayiş etdirdiyi misilsiz hərbi şücaətləri ilə böyük şöhrət qazandığı şagirdlərin diqqətinə çatdırıldı. Qəhrəmanın yubileyinə həsr olunmuş məclisdə həmçinin, şagirdlər ədəbi-bədii kompozisiyalar nümayiş etdirib, şeirlər söyləyib, mahnılar oxudular. Şagirdlərdən Azərin, Nigar, İbrahim, Ramilə, Alpər, Nicat, Aysu, Leyla, Yusif, Əşrəf, Rafiq, Elgün, İslam, Raul, Vaqif, Bəhlul, İlkin, Yaşar, Ağəli və Məhəmməd maraqlı çıxışları ilə yadda qaldılar.

Tədbirin sonunda məktəbin direktoru Rahim Novruzov çıxış edərək Mehdi Hüseynzadənin qəhrəmanlıq zirvəsindən söz açdı. Qeyd etdi ki, Prezidentimiz tərəfindən Mehdi Hüseynzadənin 100 illik yubileyi haqqında sərəncam imzalanması ölməz qəhrəmanımızın xatirəsinin uca tutulmasından, şəhidlərin ruhuna sonsuz hörmət və ehtiram hissindən irəli gəlir. Direktor çıxışının sonunda şagirdlərə tariximizə adlarını qızıl hərflərlə həkk edən belə şəxsiyyətlərimiz, qəhrəmanlarımız haqqında oxuyub öyrənməyi tövsiyə etdi: "Həsən Seyidbəyli və İmran Qasımovun birgə yazdığı "Uzaq sahillərdə" əsərini oxuyun, eyniadlı filmi izləyin.

Bu cür qəhrəmanları oxuya-oxuya, onların igidlik yollarını izləyə-izləyə Qarabağ qəhrəmanları, vərənpərvər oğul və qızlarımız yetişdi. İnanıram ki, sizin aranızdan da bu cür qəhrəmanlar yetişəcək və dövlətimizin gələcək taleyi sizin əllərinizdə olacaq".

**"AZƏRBAYCAN MÜƏLLİMİ"**

**Qəzet 1934-cü ildən çıxır**

**Baş redaktor**
Nurəddin Heydərov 538-21-66

**Mühasibatlıq** 539-67-74
**Reklam və elanlar** 539-20-77 (tel./faks)

**Ünvan:** AZ-1100, Bakı şəhəri, Mətbuat prospekti, 529-cu məhəllə 23 M, Mətbuat Evi, 5-ci mərtəbə

Qəzet "Azərbaycan müəllimi"nin kompüter mərkəzində yığılır və "Azərbaycan" nəşriyyatında çap olunur

Qəzet hər həftənin cümə günü çıxır

**Bank hesabımız**
Azərbaycan Beynəlxalq Bankı 5 saylı "Mətbuat şöbəsi"
Kodu: 805142 VÖEN: 9900001881
M/h: AZ 03 NABZ 01350100000000002944
S.W.I.F.T.: IBAZAZ 2X

"Azərbaycan müəllimi" qəzeti redaksiyası
Hesab № AZ80 IBAZ38060019443164986350
VÖEN: 1300397831

**Lisenziya** № 022327, **İndeks:** 0003, **Tiraj** 4217, **Sifariş** 458

**Məsul növbətçi:** Y.Əliyev

## Tələbə-könüllülər ahıllarla görüşüblər

Təhsil Nazirliyinin "Bir" Tələbə-Könüllü proqramının təşkilatçılığı ilə 2 fevral - Gənclər Günü münasibətilə keçirilən "Gəncliyin BİR həftəsi" adlı tədbirdə tələbə-könüllülər ahıllarla görüşüblər.

Proqramın "Yaşat" istiqaməti çərçivəsində "Üçüncü bahar" təşəbbüs qrupunun təqaüdə çıxmış üzvləri üçün tələbə-könüllülərin ifasında konsert keçirilib. Ahılların asudə vaxtlarını xoş keçirmələri üçün təşkil olunan tədbirdə 30-dan çox qonaq iştirak edib.

Qeyd edək ki, "Bir" Tələbə-Könüllü proqramı milli könüllü platforması kimi 20000-dən çox vahid tələbə-könüllü bazasına malikdir. Tələbələrin şəxsi inkişafı və asudə vaxtlarının səmərəli dəyərləndirilməsi üçün 6 istiqamətdə fəaliyyət göstərən proqram tərəfindən indiyədək 400-dən çox yerli və beynəlxalq tədbirə könüllü, təşkilati dəstək verilib. BİR könüllü olmaq istəyən tələbələr *www.konullu.edu.az* saytı vasitəsilə qeydiyyatdan keçə və proqrama qoşula bilərlər.

## Etibarsız sayılır

**Sumqayıt şəhər** 14 nömrəli tam orta məktəbi 2006-cı ildə bitirmiş Həsənov Elmidar İsa oğluna verilmiş B-270429 nömrəli attestat itdiyi üçün etibarsız sayılır.

**Göyçay Dövlət İdarəetmə və Texnologiya Kolleci** tərəfindən 2008-ci ildə Qasımov Fərid Rasim oğluna verilmiş BB-II-076384 nömrəli diplom itdiyi üçün etibarsız sayılır.

**Bakı şəhər** 10 nömrəli tam orta məktəbi 2004-cü ildə bitirmiş Tahirov Ramiz Eduardoviçə verilmiş B-014041 nömrəli attestat itdiyi üçün etibarsız sayılır.

**Bakı şəhər** 242 nömrəli tam orta məktəbin IX sinfini 2007-ci ildə bitirmiş Məmmədov Araz Balağa oğluna verilmiş A-562639 nömrəli şəhadətnamə itdiyi üçün etibarsız sayılır.

**Milli Aviasiya Akademiyası** tərəfindən 2017-ci ildə Süleymanov Xəyal Davud oğluna verilmiş tələbə bileti itdiyi üçün etibarsız sayılır.

**Azərbaycan Müəllimlər İnstitutu** Sumqayıt filialı tərəfindən 2013-cü ildə Aslanova Ofelya Kamal qızına verilmiş B-260713 nömrəli bakalavr diplomu itdiyi üçün etibarsız sayılır.

**Azərbaycan Dövlət İqtisad Universiteti** tərəfindən 2012-ci ildə Əhədov Tural Kərim oğluna verilmiş B-250496 nömrəli bakalavr diplomu və əlavəsi itdiyi üçün etibarsız sayılır.

**Gəncə Humanitar Kolleci** tərəfindən 2010-cu ildə Novruzov Arzu İbadət oğluna verilmiş BB-II-105511 nömrəli diplom itdiyi üçün etibarsız sayılır.

**Azərbaycan Dövlət İqtisad Universiteti** tərəfindən 2006-cı ildə Rzayev Qoşqar Təvəkkül oğluna verilmiş B-071006 nömrəli bakalavr diplomu və əlavəsi itdiyi üçün etibarsız sayılır.

**Bakı şəhər** 59 nömrəli tam orta məktəbi 2014-cü ildə bitirmiş Məmmədov Namaz Sahib oğluna verilmiş A-303387 nömrəli attestat itdiyi üçün etibarsız sayılır.

**Kürdəmir rayon** Sığırlı kənd tam orta məktəbinin IX sinfini 2001-ci ildə bitirmiş Səlimova (Həsənova) Humay Saməddin qızına verilmiş B-472626 nömrəli şəhadətnamə itdiyi üçün etibarsız sayılır.

**Kürdəmir rayon** Köhünlü kənd tam orta məktəbini 2007-ci ildə bitimiş Cəfərov Fariz Ramiz oğluna verilmiş B-434790 nömrəli attestat itdiyi üçün etibarsız sayılır.

**Neftçala Peşə Məktəbi** (151 nömrəli Neftçala orta texniki peşə məktəbi) tərəfindən 1990-cı ildə İsmayılov Əşrəf Əlimirzə oğluna verilmiş Б-496384 nömrəli diplom itdiyi üçün etibarsız sayılır.

**Azərbaycan Dövlət Neft və Sənaye Universiteti** nəzdində Bakı Neft Energetika Kolleci tərəfindən 2018-ci ildə Yusifli Nihad Fariz oğluna verilmiş tələbə bileti itdiyi üçün etibarsız sayılır.

**Bakı Bədən Tərbiyəsi Turizm Kolleci** tərəfindən 2009-cu ildə Abdullayeva Mədinə Sadiq qızına verilmiş BB-II-092031 nömrəli diplom itdiyi üçün etibarsız sayılır.

**Bakı şəhər** 282 nömrəli tam orta məktəbi 1999-cu ildə bitirmiş Həsənov Ramil Eldar oğluna verilmiş A-357145 nömrəli attestat itdiyi üçün etibarsız sayılır.

**Bakı Mühəndislik Universiteti** tərəfindən 2016-cı ildə Sadiqova Əsli Nuru qızına verilmiş tələbə bileti itdiyi üçün etibarsız sayılır.

**Bakı şəhər** 89 nömrəli tam orta məktəbin IX sinfini 2018-ci ildə bitirmiş Əlizadə Faiq Cəmil oğluna verilmiş C-161457 nömrəli attestat itdiyi üçün etibarsız sayılır.

**Azərbaycan Maliyyə-İqtisad Kolleci** (Azərbaycan Dövlət İqtisad Universitetinin nəzdində) tərəfindən 2012-ci ildə Məmmədov Rüfət Azər oğluna verilmiş AA-022715 nömrəli "Subbakalavr" diplomu itdiyi üçün etibarsız sayılır.

**Ağcabədi rayon** Qaravəlli kənd tam orta məktəbini 1978-ci ildə bitirmiş İbrahimova Təbiət Abdulhüseyn qızına verilmiş 582225 nömrəli attestat itdiyi üçün etibarsız sayılır.

**Ağcabədi rayon** Aran kənd 1 nömrəli tam orta məktəbi 2008-ci ildə bitirmiş Ağayeva Leyla Məhərrəm qızına verilmiş B-515567 nömrəli attestat itdiyi üçün etibarsız sayılır.

**Ağcabədi rayon** Qaravəlli kənd tam orta məktəbinin VIII sinfini 1978-ci ildə bitirmiş Quliyeva (Əzizova) Səbirə Abbasəli qızına verilmiş 811884 nömrəli şəhadətnamə itdiyi üçün etibarsız sayılır.

**Bakı şəhər** 151 nömrəli tam orta məktəbi 2015-ci ildə bitirmiş İsmayılov Mark Borisoviçə verilmiş A-399401 nömrəli attestat itdiyi üçün etibarsız sayılır.

**Abşeron rayon** Xırdalan şəhər 1 nömrəli tam orta məktəbi 2007-ci ildə bitirmiş Manaflı Dilşad Mühsin qızına verilmiş B-390494 nömrəli attestat itdiyi üçün etibarsız sayılır.

**Masallı rayon** Ərkivan qəsəbə 1 nömrəli tam orta məktəbi 2004-cü ildə bitirmiş Abbaslı Fidan Zahir qızına verilmiş B-041257 nömrəli attestat itdiyi üçün etibarsız sayılır.

**Biləsuvar rayon** Xırmandalı kənd 1 nömrəli tam orta məktəbi 1977-ci ildə bitirmiş Əliyev İsmayıl İsaxan oğluna verilmiş АИ-990223 nömrəli attestat itdiyi üçün etibarsız sayılır.

**Biləsuvar rayon** Çaylı kənd tam orta məktəbini 1995-ci ildə bitirmiş Nəzərov Alim Vəkil oğluna verilmiş A-N-578 nömrəli attestat əvəzi arayış itdiyi üçün etibarsız sayılır.

**Xırdalan şəhər** 8 nömrəli tam orta məktəbi 2011-ci ildə bitirmiş Əkbərli Ənnağı Tərlan oğluna verilmiş A-034861 nömrəli attestat itdiyi üçün etibarsız sayılır.

**Xaçmaz rayon** Yeni-Həyat qəsəbə tam orta məktəbini 1999-cu ildə bitirmiş Baxutov Zəfər Mardali oğluna verilmiş A-490202 nömrəli attestat itdiyi üçün etibarsız sayılır.

**Azərbaycan Kooperasiya Universiteti** tərəfindən 2013-cü ildə Əhmədov Əhməd Səlim oğluna verilmiş B-271259 nömrəli bakalavr diplomu itdiyi üçün etibarsız sayılır.

**Ordubad rayon** Nüsnüs kənd tam orta məktəbini 2008-ci ildə bitirmiş Abbasbəyli Coşqun Abbas oğluna verilmiş B-472880 nömrəli attestat itdiyi üçün etibarsız sayılır.

**Cəlilabad şəhər** 8 nömrəli məktəb-liseyi 1997-ci ildə bitirmiş Feyzullayev Zaman Həsən oğluna verilmiş A-199059 nömrəli attestat itdiyi üçün etibarsız sayılır.

**Bakı Sosial İdarəetmə və Politologiya İnstitutu** tərəfindən 1997-ci ildə Quluzadə Kənan Vidadi oğluna verilmiş AN-000353 nömrəli bakalavr diplomu itdiyi üçün etibarsız sayılır.

**Bakı şəhər** 82 nömrəli tam orta məktəbi 2014-cü ildə bitirmiş Babayev Qorxmaz Cavid oğluna verilmiş A-310404 nömrəli attestat itdiyi üçün etibarsız sayılır.

**Bakı şəhər** 173 nömrəli tam orta məktəbin IX sinfini 2008-ci ildə bitirmiş Kərimov Nicat Valeh oğluna verilmiş AN-697713 nömrəli şəhadətnamə itdiyi üçün etibarsız sayılır.

**Bakı şəhər** 18 nömrəli tam orta məktəbi 1989-cu ildə bitirmiş Camalova Mətanət Səyavuş qızına verilmiş A-598838 nömrəli attestat itdiyi üçün etibarsız sayılır.

**Zəngilan rayon** 33 nömrəli tam orta məktəbi 2018-ci ildə bitirmiş Kərimov Məhi Əsəd oğluna verilmiş E-124669 nömrəli attestat itdiyi üçün etibarsız sayılır.

**Neftçala rayon** Bankə qəsəbə 1 nömrəli tam orta məktəbi 1992-ci ildə bitirmiş Əhmədov Dilavər Tapdıq oğluna verilmiş A-240277 nömrəli attestat itdiyi üçün etibarsız sayılır.

**Bakı şəhər** 267 nömrəli məktəb-liseyi 2015-ci ildə bitirmiş Həşimova Sevinc Teymur qızına verilmiş A-397899 nömrəli attestat itdiyi üçün etibarsız sayılır.

**Azərbaycan Dövlət İqtisad Universiteti** tərəfindən 2002-ci ildə İsgəndərov Rasim Azadxan oğluna verilmiş A-102700 nömrəli bakalavr diplomu və əlavəsi itdiyi üçün etibarsız sayılır.

**Yevlax rayon** Kövər kənd tam orta məktəbinin IX sinfini 2012-ci ildə bitirmiş Cəfərov Alşan Vahid oğluna verilmiş A-179025 nömrəli attestat itdiyi üçün etibarsız sayılır.

**Bakı şəhər** 179 nömrəli tam orta məktəbi 1992-ci ildə bitirmiş Muradov Mübariz Abdulbəsir oğluna verilmiş A-167465 nömrəli attestat itdiyi üçün etibarsız sayılır.

### ALLAH RƏHMƏT ELƏSİN!

Azərbaycan Dövlət İqtisad Universitetinin professor-müəllim heyəti Xarici dillər fakültəsinin müəllimi Yeganə Abbasovaya atası, SSRİ maarif əlaçısı, Qabaqcıl maarif xadimi, Prezident təqaüdçüsü

**MİRZƏXAN HƏSƏN OĞLU HÜSEYNOVUN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

# Bir ailədə iki istedad



Ata-ana üçün bundan böyük sevinc nə ola bilər?! Təsəvvür edin ki, bir ailədə iki istedad yetişir. Və onlar bacı-qardaşdırlar. Ağlı, zəkası, davranışı, nizam-intizamı, əxlaqı ilə seçilən bu yeniyetmələr təhsil aldıqları məktəbin də fəxri sayılırlar. İlk görüşdə onlar mənə çox xoş təsir bağışladılar və tezcə də doğmalaşdıq. Olduqca səmimi, həlim xarakterli qeyri-adi istedad sahibləri ilə söhbətimiz də ürəkaçan idi.

... Öncə özlərini təqdim etdilər: Dünya İsmayılova və Mirismayıl İsmayılov. Söhbətimiz təsəvvür etdiyimdən də maraqlı keçdi, çünki bu yeniyetmə bacı-qardaşlar, sözün tam mənasında, istedad sahibi idilər. Onlarla həmsöhbət olmaq, fikir mübadiləsi aparmaq həm xoşdur, həm də çox rahat. Tərcümeyi-hallarını dinləmək özü bir ruhi rahatlıq bəxş edirdi insana. Dünya özü haqqında məlumat verərkən ani olaraq gülümsədi və dedi:

### Arzularım tükənməzdir

Düz deyirmişlər ki, arzular sonsuz olur. Mənim də arzularım tükənməzdir. Ən böyük arzum musiqimizi dünya arenasında tanıtdırmaqdır. Bunun üçün də səylə çalışıram. İdmanı da çox sevirəm. Uşaqlıqdan gimnastika ilə məşğul oluram. Dünya rəqslərini və milli rəqsləri həvəslə ifa edirəm.

### İbtidai sinfi əla qiymətlərlə bitirmişəm

Bəlkə də bu özü bir xoşbəxtlikdir ki, biz paytaxtda təhsil almışıq, necə deyərlər, arzularımızın reallaşdığı məkanda. Mən 2007-ci ildə Bakıda anadan olmuşam. Hazırda Azərbaycan Milli Konservatoriyası tərkibində İncəsənət Gimnaziyasının VI sinfində Natəvan Həsənovadan kanon təhsili alıram. İbtidai sinfi əla qiymətlərlə bitirmişəm. İbtidai sinifdə dəfələrlə yoldaşlarımdan fərqləndiyimə görə fəxri fərmanlar qazanmışam.

### Bu alətin sehrində

Kiçik yaşlarımdan televiziya kanallarında musiqi verilişlərini izləyirdim. Xüsusən də kanon alətini görəndə gözlərimi ondan çəkmirdim. Bu alətin sehrli səsi sümüyümə işləyirdi, qeyri- adi hisslər keçirirdim. Sonralar valideynlərim mənə bu musiqi alətini də aldılar. Elə sevinirdim ki! Ötən bu illər ərzində mən dəfələrlə beynəlxalq müsabiqələr qalibi olmuşam.

### O, xoşbəxtlərdən biri də elə özüməm

Uğurlarım günü-gündən artır. Valideynlərim də mənim nailiyyətlərimə çox sevinirlər. Demək olar ki, hər gün dünya bəstəkarlarının əsərlərini dinləyirəm və musiqinin dərin sirlərinə yiyələnirəm. Mən ümumiyyətlə, dünya klassiklərinin melodiyalarını dinləməyi bir xoşbəxtlik sanıram və düşünürəm ki, o xoşbəxtlərdən biri də elə özüməm. Saatlarla dinləməkdən doymuram onları. Bu əsərlər insanı ecazkar aləmlə qovuşdurur.

Sifai SƏFƏROVA

### Onlar mənə kömək edirlər

... Bütün fəsilləri xoşlayıram, amma yay fəslini daha çox. Çünki tətil günlərində öz üzərimdə çalışmağa vaxt daha çox olur. Mən kanonda ifa edəndə anam da, nənəm də dinləyirlər, bəzən xalalarım da. Onlar da pianoda çalmağı bacardıqlarına görə iradlarını və məsləhətlərini əsirgəmirlər. Necə deyərlər, mənə evdə müəllimlik edirlər və bu, mənə çox kömək edir.

### Nənəmi mən arzusuna qovuşdurdum

Qeyd edim ki, nənəmin adı da Dünyadır. Hər gün əsər ifa edərkən ilk öncə sevimli nənəm qulaq asır və dəyərləndirir. Bilirsiniz nənəmi nə qədər çox sevirəm?! Adı kimi dünyalar qədər əzizdir mənə. O, çox istəyirdi ki, nəvələrindən biri kanon alətində ifa etməyi bacarsın. Arzusuna qovuşdurduğum üçün o, məni çox istəyir.

### I yeri tutdum

...Rəşid Behbudov adına Dövlət Mahnı teatrında “Ümid-2019” beynəlxalq incəsənət müsabiqəsi keçirilirdi. Konsertdə iştirak edərkən zalda gözlərim nənəmə dikildi. Baxışlarımla hər şeyin yaxşı olacağını işarə edirdim. Yaxşı hazırlaşdığıma görə bilirdim ki, uğur qazanacağam. Belə də oldu. Sanki nənəmin xeyir-duaları nəticəsində kanon üzrə I, fortepiano üzrə III yeri tutdum. İlk öncə nənəm məni təbrik etdi. Sənin uğurların məni göylərə qanadlandırır,- dedi. Mənimlə məşğul olan fortepiano müəllimim Svetlana Əhmədovaya da qazandığım uğurlara görə minnətdarlıq edirəm.

## *Mirismayıl İsmayılov:* “Bacım arzularını ifa ilə təqdim edir, mən isə rəsm əsərimlə”

### Özümə güvənirəm

Dəfələrlə musiqi yarışmalarında I yerə layiq görülmüşəm. Yaddaşım çox güclüdür, özümə güvənirəm. Bir dəfə əsərə baxmaqla notları yadımda saxlayıram. “Gənclərə dəstək” layihəsi çərçivəsində Kamera və Orqan zalında dəfələrlə çıxış etmişəm. Yeri gəlmişkən deyim ki, gimnaziyada kanon ifaçılarından ibarət ansambl fəaliyyət göstərir. Ansamblın fəal üzvlərindən biri də mənəm. Təhsil Nazirliyinin təhsildə inkişaf və innovasiyalar üzrə II qrant müsabiqəsinin qalibi olmuş gimnaziyanın layihə üzvlərinin tərkibində Qəbələ şəhərində I nömrəli məktəbdə keçirilən tədbirdə mən və qardaşım İsmayıl da iştirak edirdik.

### Birinci nənəmə zəng etdim

Uğurlarım lap çox olub. 2018-ci ildə CASPİ ART Uluslararası sanat yarışmasına qatıldım. Kanon aləti üzrə keçirilən yarışmada I yeri qazandım və diploma layiq görüldüm. Həmin gün sevincimin hədd-hüdudu yox idi. Birinci nənəmə zəng etdim və sevincimi onunla bölüşdüm. Çox kövrəlmişdi. “Payız əfsanələri” beynəlxalq incəsənət müsabiqəsində isə laureat adını qazandım. Kanon müəllimim Natəvan xanım da mənim uğurlu ifama görə çox sevindi.

### Konservatoriyanın tələbəsi olmağı arzulayıram

Çalışıram gələcəkdə müəllimim kimi sənət bilicisi olum. Onda özümü dünyanın ən xoşbəxt adamı sanaram. Bu, hələ ki, arzu olsa da onu gələcəkdə reallaşdıracağıma söz vermişəm. Milli Konservatoriyanın tələbəsi olmağı arzulayıram. Hazırda isə Moskvada və Türkiyədə keçiriləcək beynəlxalq musiqi yarışmalarına qatılmaq üçün öz üzərimdə əzmlə çalışıram.

### Qardaşım da istedadlıdır

Qardaşım Mirismayıl da istedadlıdır. O da gimnaziyada VIII sinifdə oxuyur, təsviri və tətbiqi sənət şöbəsində Esmira Məmmədəli qızından rəssamlıq sənətinin sirlərini öyrənir. Mirismayıl 5 yaşından rəsmlə məşğul olur. Təbiət mənzərələrini təsvir etməyi çox sevir. 100-ə yaxın rəsm əsərləri var. Evdə bir otağımız onun emalatxanasıdır, hara baxırsan onun əsərləridir. Əsasən qırmızı, yaşıl və narıncı rənglərə üstünlük verir. Əlinə fırça alıb nəsə bir rəsm çəkəndə fantaziyasının gücündən məharətlə istifadə edir. Mövzü üzərində kifayət qədər düşünməyi bacarır. Çəkdiyi rəsm əsərləri elə bil dil açıb danışacaq.

Bayaqdan bacısının danışığına diqqət kəsilən Mirismayıl da söhbətimizə qoşuldu və yavaş-yavaş yiyələnməyə çalışdığı rəssamlıq peşəsinin onun maraq dairəsində necə göründüyünü təsvir etməyə başladı. O, danışdıqca qeyri-adi istedad sahibi olduğu da açıq-aydın duyulurdu. Mirismayılın yaratdığı kompozisiyaların əksəriyyəti mövzu etibarı ilə mürəkkəb olur. Bu da onun dərin fəlsəfi düşüncəyə malik olduğuna bir işarədir. Gündə 5 saat rəsm çəkməyə vaxt ayırdığı onun da öz seçdiyi peşəyə ciddi yiyələnəcəyi barədə ümid verir.

### Bacımla mənim təbrikim ən qiymətli hədiyyə olur

Mirismayılın söylədiyi bir fikir də ürəyimcə oldu. Dedi ki, qohumların ziyafət məclislərində, ad günlərində bacım öz təbrikini, arzularını kanonda səsləndiriyi ifa ilə təqdim edir, mən isə rəsm əsərimlə. Və elə ən qiymətli hədiyyə də bizim hədiyyələrimiz sayılır. Sanki dünyanı bağışlayırıq onlara. Eyni zamanda idmanın bütün növlərini də sevirəm. Amma futbolsuz qala bilmirəm. “Vətən” idman klubunda məşğul oluram. Bacımla birlikdə üzgüçülüyə də gedirik.

### Vətənpərvərlik mövzusunda rəsmlərim çoxdur

... Dəfələrlə televiziya kanallarında dostluq, vətənpərvərlik və təbiət mövzularında çəkdiyim rəsmlərim nümayiş olunub. Azərbaycan rəssamlarından - Səttar Bəhlulzadənin, Toğrul Nərimanbəyovun əsərlərinə həmişə diqqət yetirirəm. 2013-cü ilin mayında ümummilli lider Heydər Əliyevin anadan olmasının 90 illik yubileyi münasibətilə ümumtəhsil məktəbləri və ilk peşə-ixtisas təhsili müəssisələrinin şagirdləri arasında “Heydər Əliyev və müstəqil Azərbaycan” mövzusunda keçirilən respublika rəsm müsabiqəsində II yeri tutdum və diploma layiq görüldüm. “Payız düşüncələri-2016”, “Mənim düşüncələrim-2017” adlı uşaq rəsm müsabiqələrində fəal iştirakıma görə diplomlarla mükafatlandırılmışam. Az.TV kanalında “ Mən də uşaq olmuşam” verilişində iştirak etmişəm. 2017-ci ildə “Fövqəladə hallar uşaqların gözü ilə” rəsm yaradıcılıq müsabiqəsində fəxri fərmana layiq görülmüşəm. Yunanıstanda keçirilən rəsm müsabiqəsində isə II yeri qazanmışam.

### Memar olacağam

Ötən il CASPİ ART Uluslararası sanat yarışmasında təbiət mövzusunda işlədiyim rəsmlər bəyənildi və II yerə layiq görüldüm. Ümumiyyətlə, uğurlarım ev olmayıb və gələcəkdə də valideynlərimin, müəllimlərimin ümidlərini doğrultmağa çalışacağam. Bu, mənim də, bacımın da qarşımıza qoyduğumuz məqsəddir. Gələcəkdə isə memar olmaq arzusu ilə yaşayıram.

*... Biri musiqi, biri isə rəsm sahəsində özünü doğrultmağa can atan və kifayət qədər uğurlara nail olan yeniyetmə bacı-qardaşla saatlarla söhbət etmək xoş olardı. İstedadlarına heyran qaldığım bu yeniyetmələrlə xudahafizləşərkən onların öz valideynlərinə bəxş etdikləri sevinc hisslərini bir ana olaraq mən də yaşadığımı etiraf etdim və xoşbəxt ailənin üzvlərinə gələcək fəaliyyətlərində uca zirvələri fəth etməyi arzuladım.*

## VII Muğam Televiziya Müsabiqəsinin dinləmələrinə başlanılıb

Sifai SƏFƏROVA

Heydər Əliyev Fondunun dəstəyi, Azərbaycan Mədəniyyət Fondunun layihəsi əsasında, Azərbaycan Televiziyasının təşkilatçılığı, Mədəniyyət və Turizm Nazirliyinin iştirakı ilə keçirilən VII Muğam Televiziya Müsabiqəsinin dinləmələrinə başlanılıb.

Müsabiqənin ilk dinləmələrinə Bərdədən başlanılıb. Altı rayon üzrə 63 yeniyetmə və gənc öz istedadını nümayiş etdirib. Onlardan 12 nəfəri seçim turuna vəsiqə qazanıb. Bölgələr üzrə növbəti seçim turu Gəncə şəhərində olub. Qeyd edək ki, dinləmələr zamanı Samux, Goranboy, Şəmkir, Tovuz, Qazax, Ağstafa, Kəlbəcər və Xocalıdan olan 30-a yaxın ifaçı iştirak edib. Onlar xalqımıza xas olan muğamı özlərinə məxsus tərzdə ifa ediblər.



## Bakı Musiqi Akademiyasında “Müasir musiqi” adlı konsert

Üzeyir Hacıbəyli adına Bakı Musiqi Akademiyasında (BMA) “Müasir musiqi” adlı konsert proqramı təqdim olunub.

BMA-dan AZƏRTAC-a bildirilib ki, konsertdə akademiyanın tələbələri tərəfindən bir-birindən parlaq və maraqlı repertuarlar səsləndirilib. Həmçinin, konsert çərçivəsində dünya bəstəkarlarının yaradıcılığına da müraciət olunub.

Akademiyanın müəllim və tələbə heyətinin qatıldığı konsert proqramı maraqla qarşılanıb.

## II sinif şagirdi beynəlxalq yarışda II yeri tutub

Paytaxtdakı 24 nömrəli 11 illik musiqi məktəbinin fortepiano ixtisası üzrə II sinif şagirdi Rəhimxanım Nəbiyeva Türkiyədə keçirilən “CASPİ ART Uluslararası Sanat Yarışması”na qatılaraq II yerə layiq görülüb və diploma mükafatlandırılıb. Yeniyetmə sevinir ki, ifası münsiflər heyəti tərəfindən bəyənilib. Sənət yolunda ilk addımlarını atan Rəhimxanım gələcəkdə daha böyük nailiyyətlər əldə edəcəyinə söz verib. Müəllimi Mehparə Məmmədəliyeva onun uğurlarını həmişə qiymətləndirir. İnanır ki, beynəlxalq festival və müsabiqələrdə I yeri tutacaq.